# Xürrəmi üsyanı və Babək

Dosent Elnur Nəsirov
Tarix üzrə fəlsəfə doktoru

organicelm

# Mündəricat

Giriş ------------------------------------------------------------------------------------------- 3
Mənbələrin etibarlılığı ------------------------------------------------------------------------- 4
Xürrəmi üsyanının mənşəyi ------------------------------------------------------------------ 4
Xürrəmi sözünün mənası ------------------------------------------------------------------- 5
Xürrəmiliyin Məzdəkiliklə əlaqəsi -------------------------------------------------------- 6
Xürrəmilərin müsəlman olması ilə bağlı iddialar ------------------------------------- 10
Xürrəmilərin etnik kimliyi ------------------------------------------------------------- 12
Babəkin etnik kimliyi ------------------------------------------------------------------- 16
Babəkin Xürrəmi üsyanına rəhbərlik etməsi ------------------------------------------ 18
Xürrəmi üsyanının yatırılması və Babəkin ələ keçirilməsi ---------------------------- 25
Nəticə ----------------------------------------------------------------------------------- 34

organicelm.com

# Giriş

Elmi və ictimai aktuallığını qoruyub son dövrlərdə yenidən gündəmə gəlməsini və İslam tarixindən çox Azərbaycan tarixinin bir parçası olduğunu nəzərə alaraq bu mövzuya kitabda ayrıca və geniş yer vermək məcburiyyəti hiss etdik. Elmi və ictimai çevrələrdə bu mövzuya münasibətin birmənalı olmaması məsələnin geniş və dərin təhlili zərurətini doğurmaqdadır. Qiyamın xronoloji seyrinin təsvirini ən sona saxlayaraq Babəkin kimliyi, şəxsiyyəti, mənşəyi və məqsədi, o cümlədən xürrəmiliyin mahiyyəti kimi məsələlərin araştırılmasına daha çox əhəmiyyət verilməsində fayda olacaqdır. Xürrəmiliyin Babəkə qədər də dini-ideoloji bir cərəyan olaraq mövcud olduğunu diqqətə alaraq əvvəla bu haqda danışmaq yerinə düşəcəkdir. Lakin mövzuya giriş babında əvvəla tarix elmi, tarixşünaslıq haqqında söhbət açmağı lazım bildim. Düşünürəm ki, bu tədqiqat üsulumuzu, istifadə etdiyimiz metodologiyanı oxucuya çatdırmaqla birlikdə bu mövzuda yol verilən yanlışlıqları da gün üzünə çıxaracaqdır. Hər bir elmin üsulu, metodologiyası vardır. Bu həmin elm sahəsinin açarıdır, yol xəritəsidir. Üsuluna vaqif olmadan hər hansı bir elm sahəsində irəliləməyə, məsafə qət etməyə çalışmaq üzməyi bilməyənin dəryaya baş vurmağına bənzəyər. Məşğul olmağa çalışdığı elm sahəsinin üsulundan xəbərsiz kəs çox yanlış nəticələr çıxarmaq, səhv qənaətlər hasil etməklə əvvəl özünü, sonra da başqalarını yanılda bilər.

Buna görə də işə tarix elminin tərifindən başlamaq lazımdır. "*Tarix-insanların cəmiyyət həyatına təsir edən fəaliyyətləri nəticəsində meydana gəlmiş hadisələri, səbəb və nəticə əlaqələrini müəyyən edərək, mənbə materiallarının tənqidi təhlilinə əsaslanaraq, məkan və zaman bildirərək öyrənən ictimai elm sahəsidir*". Burada xüsusi vurğulamaq istədiyim məsələ "*mənbə materiallarının tənqidi təhlili*" məsələsidir. Bu tarix sahəsində elmi hipotezin qurulmasında bu ən əsas şərtdir desək yəqin ki, yanılmarıq. Sirr deyil ki, "Babək və xürrəmilik" mövzusu Azərbaycan və İranın orta əsrlər tarixi ilə birlikdə İslam tarixinin mövzusudur. Bu haqda məlumat nəql edən mənbələrin mühüm bir hissəsi ərəb, geri qalan hissəsi isə fars, erməni, gürcü, suryani və digər dillərdədir. Ağırlığın ərəb və fars dillərində olmasını nəzərə alaraq bu iki dili ən az mətn oxuyub tərcümə edə biləcək səviyyədə bilməyən kəsin bu mövzuda araşdırma aparması ümumiyyətlə absurddur. Bu sahədə araşdırma aparan bir şəxsin "tərcümələrə" ehtiyacı olmamalıdır. Araşdırdığı dövrün və mövzunun dilini bilmədən bu haqda nəsə yazmağa cürət etmək bu işə girişəni gülməli vəziyyətə salar. Samballı elmi dairələrdə bu cür cəhdlər ümumiyyətlə ciddiyə alınmaz. Çox təəssüf ki, ölkəmizdə bu kimi hallara sıx rast gəlinir. "İnsan bilmədiyi şeyin düşmənidir"- deyərlər. Mənbələrə nüfuz edə bilməmək naqisliyi ona gətirib çıxarır ki, mənbə müəllifləri qərəzlilik, iftiraçılıq, böhtançılıq, yalançılıq, "saray tarixçisi" olmaq kimi ittihamlarla üz-üzə qalmalı olurlar. İşin qəribə tərəfi bu iddiada olanlar xürrəmiliyin həqiqi mahiyyətini mənbə materiallarına istinad edərək qələmə almış sovet və qərb araşdırmaçılarını ərəb və fars mənbələrinin böhtan və iftira xarakterli məlumatlarını təhlil edib dərindən araşdırmamaqda ittiham edirlər. Naşılığın daha bir tutarsızlığı da məhz budur. Elə zənn etmək olardı ki, bu cür iddia sahiblərinin özləri ərəb və fars dillərinə mənbə materiallarını dərindən araşdıra biləcək qədər mükəmməl yiyələniblərmiş. Lakin bunun belə olmadığı özləri kimi hər kəsə bəllidir. Əgər Babək və xürrəmilik haqqında məlumat verən mənbə müəllifləri həqiqətən qərəzli, yalançı və Abbasi sarayının sifarişi ilə yazıblarsa, onların yazdıqlarını bütünü ilə rədd etmək gərəkməzmi? Nə bilmək olar, bəlkə də Babək adlı bir adam və xürrəmilik adlı bir hərəkat ümumiyyətlə olmayıb. Axı qərəzlilik və yalançılıqda ittiham olunan müəlliflər əsərlərində bu mövzuya yer verməsəydilər biz belə bir şəxsin və hərəkatın mövcud olduğundan ümumiyyətlə xəbərsiz olacaqdıq. Hər hansı bir mənbə müəllifinin verdiyi məlumatlar arasından işinə yarayanı, xoşuna gələni qəbul edib bəyənmədiyini rədd etmək hansı ciddi tarixçiliyə sığar? Bu naşılığın, diletantlığın ən bariz təzahürü deyilmi? Tədqiqatlarda və təhqiqatlarda dəlildən nəticəyə gedilir, əvvəlcədən nəticə, qənaət hasil edib sonra lehinə dəlil toplanmır. Bu üsulla qurulmuş elmi hipotez çürüdülməyə məhkumdur. Tarixçilik siyasi fikirlərin, ideoloji xəyalların, arzu və təmənnaların tətmini üçün var olan elm sahəsi olmamalıdır.

## Mənbələrin etibarlılığı

Sözügedən mövzuda məlumat verən mənbə müəlliflərinə "saray tarixçisi" damğasının vurulması da yol verilən digər bir xətadır. Düşünürəm ki, məsələyə bu tərz yanlış bir münasibətin meydana gəlməsinə bəzi müasir araşdırmaçıların İslam tarixşünaslığı və mənbəşünaslığı haqqında kifayət qədər məlumatlı olmamaları səbəb olmuşdur. Qatı mu'təzili olan Mə'mun (813-833), Mu'təsim (833-842) və Vasiqi (842-847) nəzərə almasaq, Abbasi xəlifələrinin ümumi anlamda "sünni" İslam inancına sahib olduqları doğrudur. Mu'təzilə isə etiqad əsasları baxımından sünni İslamla dərin bir ziddiyət içində olan bir dini cərəyan idi. Buna əlavə olaraq xəlifə Mə'munun atəşin bir ələvi olduğunu təsdiq edən məlumatlar da mövcuddur. Buna yuxarıda toxunduğumuz kimi, irəlidə də məlumat verəcəyik. Əgər iddia edildiyi kimi xürrəmilər həqiqətən uca dağ başlarındakı istehkamlarında oturub qaib imamın zühurunu gözləyirdilərsə, ən azından bu mövzuda Mə'munla həmfikir olmalı idilər. Adını çəkdiyimiz üç mu'təzili xəlifənin hakimiyyəti dövründə sünni İslamı təmsil edən elm və din xadimləri "mihnə" adlanan tarixi prosesdə ağır təzyiqlərə, həbs və işgəncələrə məruz qalmışdılar. Buna görə də bu ekola mənsub müəlliflərin "saray tarixçisi" olmaları mümkün deyildir. Həmin dövrdə Abbasi sarayına kimlərin yaxın olduqları Mə'mun dövrünü buraya qədər diqqətlə oxumuş olan oxucunun yəqin ki, nəzərindən yayınmamışdır. Doğrudur, Babək və xürrəmilik haqqında məlumat verən müəlliflərin heç biri adını çəkdiyimiz üç mu'təzili xəlifə dövründə deyil, sonrakı illərdə və əsrlərdə yaşamışlardır. Lakin onların hamısı mövzu ilə bağlı qərəzli məlumat verəcək qədər bir-birləriylə həmfikir olmamışlardır. Mövzu ilə bağlı ayrıca bir əsər yazmış olan Vaqid ibn Amr ət-Təmiminin "Əxbaru Babək" adlı əsəri müasir dövrümüzə qədər gəlib çatmamışdır. Sonrakı dövrdə yaşamış müəlliflərin əksəriyyəti bu əsərə istinad etmişdirlər. Bunlardan biri də "Kitab əl-Fihrist"in müəllifi İbn ən-Nədim olaraq tanınan Əbul-Fərəc ibn İshaq ən-Nədim əl-Bağdadi əl-Vərraqdır (909-995). Bioqraf Abbas əl-Qummi (1877-1940) İbn ən-Nədim haqqında məlumat verərkən onun fəzilətli, hər şeydən xəbərdar, elm dəryası bir imamiyyə şiəsi olduğunu bildirir[1]. Bu Babəkin kimliyi və xürrəmiliyin mahiyyəti haqqında ən dəqiq məlumatları nəql etmiş olan İbn ən-Nədimin "Abbasilərin saray tarixçisi" olmadığına sübut üçün məncə kifayət edər. Bundan başqa atasının peşəsi olan vərraqlığı[2] miras almış olan İbn ən-Nədim ömrünü Bağdaddakı kitab mağazasını işlətmək və kitab üzü köçürməklə keçirmişdir[3]. Mövzu haqqında geniş məlumata sahib olması da yəqin ki, peşəsindən irəli gəlir, saraydan aldığı "sifariş"dən deyil. Mövzu ilə bağlı əsərinə ən çox müraciət olunan digər bir müəllif Əbül-Həsən Əli ibn Hüseyn əl-Məs'udi (896-957) də şiə-imamiyyə məzhəbinə mənsub idi[4]. O, cümlədən əsərlərində sözügedən mövzu ilə bağlı dəyərli məlumatlar qeyd etmiş Əhməd əl-Yaqubi[5] (öl. 904), Əhməd ibn Ə'səm əl-Kufi[6] (öl. 926), İbn Miskəveyh (öl. 1030), Əbül-Fərəc əl-İsfəhani (öl. 966) kimi müəlliflər də şiə-imamiyyə məzhəbinə mənsub idilər[7]. Bu müəlliflərin Abbasi sarayının sifarişi ilə Babək və xürrəmilik haqqında neqativ təsəvvür yaratmaq naminə tarix uydurduqlarını təsəvvür etmək mümkün deyil.

## Xürrəmi üsyanının mənşəyi

Xürrəmi üsyanı Abbasilərin ilk dövründə qədim zərdüşti mühitində baş vermiş Ravəndiyyə, Ustad Sis, Sinbaz əl-Məcusi, Müqənna, İshaq ət-Türk, muhəmmirə, mubəyyizə qiyamlarından mahiyyət etibarı ilə çox fərqlənmirdi. Hətta xürrəmi qiyamı bu qiyamların məntiqi davamı idi də deyə bilərik. Bu baxımdan xürrəmiliyi milli-azadlıq hərəkatından çox İslam sonrası zərdüşti-məcusi mühitindəki

---

[1] Abbas əl-Qummi, *Hədiyyət əl-Əhbab*, (tərc. H. əs-Salehi), Qum 1379, 126.

[2] Vərraq-vərəqçi, katibçı, kitab üzü köçürən.

[3] Ramazan Şeşen, *Müslümanlarda Tarih-Coğrafya Yazıcılığı*, İstanbul 1998, 84-85.

[4] Qummi, *Hədiyyət əl-Əhbab*, 323, İbn Həcər əl-Əsqəlani. *Lisan əl-Mizan*, V/532. Əli əl-Məs'udinin həyatı və elmi yaradıcılığı ilə bağlı daha ətraflı məlumat üçün bax: Şeşen, *həmin əsr*, 60-61.

[5] Əhməd əl-Yaqubinin babası Vazeh bir müddət Azərbaycanda yaşamış və işləmişdir. Əhməd əl-Yəqubinin mövzu ilə bağlı səhih məlumatlara sahib olmasında bunun rolu olmamış deyildir. Müəllifin həyatı və elmi yaradıcılığı bağlı ətraflı məlumat üçün bax: Saib Əbdulhəmid, *Mu'cəmu Muvərrix əş-Şii'yyə*, I, Tehran 1424, 85.

[6] Muhsin əl-Əmin, *Ə'yan əş-Şiə*, II/481.

[7] Daha ətraflı məlumat üçün bax: Saib Əbdulhəmid, "İlk Dönem Şiî Tarihçiler ve Eserleri", (tərc. Ş. Öz), **KSÜ İlahiyat Fakültesi Dergisi**, XV, Kahramanmaraş 2010, 147-204.

ictimai-dini proseslər nəticəsində meydana gəlmiş bir üsyan olaraq dəyərləndirmək daha doğru olacaqdır. Bir çox tarixçi haqlı olaraq xürrəmiliyi məzdəkiliyin davamı saymışdır. Məzdəkilik öz zamanında Sasanilərə və dövlətin rəsmi dini olan zərdüştiliyə qarşı bir çıxış olaraq meydana gəlmişdi. Əslində zərdüşti din xadimləri bu tip dini cərəyanları özlərinin bidətçiləri hesab edərək onlara qarşı mübarizə aparmışdılar. Lakin İslamdan sonrakı dövrdə siyasi nüfuzdan məhrum olan zərdüşti din xadimləri zərdüşti mühitində, bu dinin təlimlərini əsas alan bu tip cərəyanlar qarşısında aciz qalmışdılar. Bəzən çarəni müsəlman dövlət xadimlərinə şikayətdə görürdülər. Buna misal olaraq irəlidə haqqında daha geniş məlumat verəcəyimiz Bih-Afərid ibn Mahfəridun[8] hərəkatını göstərə bilərik. İslam qarşısında əriyərək tərəfdar kütləsi itirən zərdüştilikdə islahat aparmaq qərarına gələn Bih-Afərid bu məqsədlə farsca bir kitab da qələmə almışdı. Onun dini təlimi atəşpərəstliyi əsas götürsə də özündə İslama aid bir sıra komponentləri də ehtiva edirdi. Əsasən məzdəkiliyi mənimsəmiş kütlə arasında tərəfdarları artan Bih-Afəridi "bid'ətçi" kimi tanıdıb Əbu Müslim Xorasaniyə şikayət edən zərdüştilər 747-ci ildə öldürtərək ondan yaxa qurtara bilmişdilər[9].

## Xürrəmi sözünün mənası

"Xürrəmilik" adının meydana gəlməsi, daha doğrusu sözünü etdiyimiz cərəyanın bu adla tanınması qaynaqlarda bir neçə şəkildə izah olunur. Bunlardan ilki xürrəmiliyin və ya xürrəmdiniyyə firqəsinin öz adını Məzdəkin (öl. 529) arvadı Fadə qızı Xürrəmədən götürmüş olmasıdır. Məzdəkin edamından sonra Xürrəmə gizlicə Mədaindən Reyə gəlmiş və burada gizli şəkildə ərinin təlimini yaymağa davam etmişdir. Bu təlimi Xürrəmədən öyrənənlər onun adı ilə xürrəmi və ya xürrəmdini olaraq tanınmışdılar[10]. Digər bir fikir budan ibarətdir ki, nəfslərinin arzuladığı hər bir işi görüb hər bir hərəkəti etməyi caiz gördükləri üçün bu adla tanınmışdırlar. Bu fikir xürrəmiliyi məzdəkiliyin davamı mahiyyətində bir cərəyan olaraq görən əs-Səm'ani, İbn əl-Covzi, İbn əl-Əsir kimi alimlər tərəfindən irəli sürülmüşdür. Sərxoşluq verici içki içmək, öz məhrəmləri ilə evlənmək kimi İslamda haram olan əməlləri etdikləri və bunu mübah gördükləri üçün, ümumiyyətlə nəfsani ləzzət ala bildikləri heç bir şeyi özlərinə qadağan etmədiklərinə, "xürrəm" bir həyat tərzi seçdilərinə görə bu adla anılmışdırlar[11]. İbn əl-Əsir əl-Cəzəri (1160-1233) işi daha da irəli götürərək xürrəmiliyi "fərc dini" adlandırır. O, qeyd edir ki, xürrəm sözünün mənası qadın cinsi orqanı, fərc mənasındadır. Məcusilik öz mənsubların anaları, bacıları, qızları ilə evlənməyə izn verdiyi üçün xürrəmiliyə "fərc dini" adı verilmişdir[12]. Əbdulkərim əs-Səm'ani xürrəmilərin ilin bir gecəsində toplu, qrup halında keyf, əyləncə və işrət (orgy)[13] məclisləri təşkil etdiklərini bildirir. Əs-Səm'ani xürrəmilərin İslamdan əvvəl onlara hökmranlıq etmiş Şirvin adlı birinə ehtiram göstərdiklərini, onu Muhəmməd əl-Mustafadan (s.ə.v) daha fəzilətli, daha üstün bir şəxs olaraq tanıdıqlarını qeyd edir[14]. Sıbt ibn əl-Covzi (öl. 1256),  və İbn Şakir əl-Kutubi (öl. 1363) kimi müəlliflər də xürrəmiliyin adının farsada "keyfli və ləziz" mənasını ifadə edən "xürrəm"dən törədiyi qənaətindədirlər[15]. "Xürrəmi" adının mənşəyini fərqli şəkildə izah edən digər bir müəllif isə Yaqut əl-Həməvidir. Onun fikrinə görə "xürrəmi" sözü Ərdəbilin kəndlərindən biri olan Xurrəm kəndindən götürmüşdür. Müəllif qeyd edir ki, farscada şadyanalıq, şəhvətə uyma anlamındakı xürrəmilik cərəyanı mənsubları həmin kəndin adı ilə anılmışdırlar[16]. Müəllif Xorasanda "Xürrəmabad" adlı bir kənd haqqında da məlumat

---

8 Bu şəxsin adı bəzən Bəha-Fərid şəklində transkript olunur. Bu doğru deyil. Sözügedən şəxsin adı (به آفريد) Bih-Afəriddir, Bəha Fərid deyil.

9 Biruni, *Asar əl-Baqiyə*, 210; İbn ən-Nədim, Kitab *əl-Fihrist*, 407-408; Zərrinkub, "The Arab Conquest of Iran and its aftermath", 33.

10 Nizamülmülk, *Siyasətnamə*, 146; Anonim, *Mücməl ət-Təvarix vəl-Qəsəs*, (nəşr. M. Bahar), Tehran 1318, 277; Muhəmməd Cavad Şəms, "Mə'rufi. Xürrəmdiniyyə ya Xürrəmiyyə", **Pewuhəşnameyi-Ədyan**, 6, Eslamşəhr 1388, 55-80; Amoretti, "Sects and Heresies", 517.

11 Əbu Səid Əbdulkərim əs-Səm'ani, *Kitab Ənsab əl-Əşraf*, V, (nəşr. Ə. əl-Yəmani), Qahirə 1980, 96; Əbil-Fərəc Əbdurrəhman ibn əl-Covzi, *Təlbis əl-İblis*, Birmingham (tarixsiz), 187.

12 İbn əl-Əsir, *əl-Kamil*, VI/284. (ومعنى خرم : فرج ، وهي مقالات المجوس ، والرجل منهم ينكح أمه ، وأخته ، وابنته ، ولهذا يسمونه دينالفرج)

13 (وهم خرمية ولهم ليلة في كل سنة يجتمع فيها رجالهم ونساؤهم ويطفئون فيها سرجهم وشموعهم ويثب فيها كل رجل منهم على من ظفر بها من نسائهم)

14 Səm'ani, *Kitab Ənsab əl-Əşraf*, II/13; V/96; İbn əl-Covzi, *Təlbis əl-İblis*, 187; Şəms, *həmin məqalə*.

15 Sıbt ibn əl-Covzi Yusif ibn Qızoğlu əl-Bağdadi, *Mirat əz-Zaman fi Təvarix əl-Ə'yan*, XIV, Beyrut 2013, 178; Muhəmməd ibn Şakir əl-Kutubi, *Uyun ət-Təvarix*, (nəşr. Ə. N. Hatum), Beyrut 1996, 80.

16 Yaqut əl-Həməvi, *Mu'cəm əl-Buldan*, II/362.

versə də,[17] xürrəmiliyin öz adını buradan götürə biləcəyi haqda heç bir şey qeyd etməyib. Halbuki bu məntiqən daha doğru olardı. Belə ki, irəlidə də görəcəyimiz kimi xürrəmilik Azərbaycandan əvvəl Xorasanda meydana gəlmiş, oradan digər bölgələrə yayılmışdı. Xorasan xürrəmilərinin qiyamı Azərbaycan xürrəmilərinin qiyamından əvvəl baş vermişdi. İranlı tədqiqatçılar Q. Sədiqi və M. C. Şəms haqlı olaraq Yaqut əl-Həməvinin özünün də tərəddüdlə irəli sürdüyü fikri doğru saymırlar[18]. Xacə Nizamülmülkün bu dini-ictimai cərəyanın adını Məzdəkin arvadı Xürrəmə ilə əlaqələndirməsi irəli sürülən üçüncü ehtimaldan daha zəif görünür. Xürrəmiyyə, xürrəmdiniyyə adlanan bu cərəyan görünür həqiqətən öz adını nəfsani, şəhvani ləzzətlərin dadına varmaq anlamını daşıyan "xürrəm" kəlməsindən götürmüşdür[19]. Belə ki, hətta Abbasi ordusu komandanı Afşin ləqəbli Heydər ibn Kavus tərəfindən Bəzzdə mühasirədə saxlandıqları vaxt Babəkin öz xürrəmiləri ilə nəbiz (xurma şərabı) içib təbil və zurna çaldığı qeyd olunur[20].

## Xürrəmiliyin Məzdəkiliklə əlaqəsi

VI əsrin ilk yarısında Sasani İranında dini-siyasi cərəyan olaraq meydana gəlmiş məzdəkilik sonrakı əsrlərdə də müxtəlif formalarda təzahür edərək orta şərq xalqlarının tarixində dərin iz buraxa bilmişdi. Sosial təbəqələşmə Sasani toplumunun böyük əksəriyyəti ilə hakim elita, aristokratiya arasında dərin uçurum yaratmışdı. İri torpaq sahibləri, iri məmurlar, sərkərdələr, böyük din xadimlərindən ibarət olan Sasani aristokratiyasının həyat tərzi əhalinin 80%-nindən artığını təşkil edən xalq kütləsi üçün əlçatmaz bir nağıllar aləmi mahiyyətində idi. Arsitokratiya məhz bu geniş xalq kütləsinin istismarı nəticəsində meydana gəlmiş və zənginləşmişdi[21]. Məzdək Bamdadan[22] maniheizm, zərdüştilik, platonizm, xristianlıqdan ilham alaraq meydana gətirdiyi dini təlim ilə bu sosial ədalətsizliyə guya çözüm gətirməyə çalışmışdı. Mani təlimindəki dualizmi, ikitanrıçılığı əsas götürən Məzdək zülümət və nur tanrılarının mübarizə halında olduğunu öyrədirdi[23]. Muhəmməd əş-Şəhristani (1086-1158) bildirir ki, Məzdəkin təliminə görə onların ali aləmdə olan mə'budu (tanrısı) kəsra (kral) kimi öz taxtında oturmuşdur və dörd qüvvəyə malikdir. Bunlar mükəmməllik (التميز), anlayış (الفهم), hifz, mühafizə (الحفظ) və həzz, zövqdür (السرور). Bu dörd ünsür dünyanı yeddi nazir, nəzarətçi vasitəsi ilə idarə edir. Mə'bud bu qüvvələr vasitəsi ilə adlarını sadaladığı 7 vəzirə, onlar da 12 ruhani varlığa hökm edərək dünyanı və həyatı idarə edirlər[24]. Məzdəkə görə insanların bir-birinə nifrət etməsinin, ixtilafa düşmələrinin ən əsas səbəbi sahib olduqları maddi nemətlər, mallar, əmlak və qadınlardır. Bu ixtilafın və nifrətin cəmiyyətdən bir dəfəlik aradan qalxması üçün maddi nemətlərin xüsusiləşdirilməsinin ləğv olunmasına və ümumi olmasına ehtiyac var[25]. Beləcə Məzdək sonrakı əsrlərdə müsəlman teoloqların "əl-ibahiyyə" adlandırdıqları fikri ortaya atmışdı. İbahilik hər cür haramın, qadağanın, hər cür yasaqın mübah qılınmasını öyrədir, vacib sayırdı. Buna cəmiyyətdə kişi-qadın münasibətlərinin nikahla məhdudlaşdırılmaması da daxil idi. Məzdəkiliyə və sonrakı əsrlərdə onun davamı mahiyyətindəki cərəyanlara ətf edilən "qadınların ümumiliyi" fikri buradan doğmuşdur. Məzdək bu fikirləri Sasani şahı I Qubada (488-531) aşılaya bilmişdi. Siyasi dəstəyə malik olan Məzdək öz fikirlərini geniş xalq kütlələrinə çatdırmaqda çətinlik çəkməmişdi.

---

[17] *həmin əsər*, II/361.

[18] Qulamhüseyn Sədiqi, *Cunbuşhaye-dini İran dər qərnhaye-dovvom və sevvome hicri*, Tehran 1372, 240-241; Şəms, *həmin məqalə*.

[19] Sədiqi, *Cunbuşhaye-dini İran*, 241-242; Şəms, *həmin məqalə*. Q. Sədiqi sözügedən dini cərəyanın "xürrəmiyyə" yox, "xürrəmdiniyyə" adlandırılmasının daha doğru olacağı qənaətindədir.

[20] Təbəri, *Tarix*, XIII/5832; İbn əl-Əsir, *əl-Kamil*, VI/405.

[21] Farhad Saboorifar, "Mazdakism and its Historical Principals", **IUSH, SI № 1**, Medellin 2017; Abdulla Fazili, *Atropatena, er. Əv. IV-er.VII əsrləri*, Bakı 1992, 169.

[22] Əbu Hənifə əd-Dinəvəri Məzdəkin İranın İstəxr (*Əxbar ət-Tival*, 65), əl-Biruni isə Nəsa şəhərindən olduğunu bildirir (*əl-Asar əl-Baqiyə*, 209). İbn Cərir ət-Təbəriyə görə isə Məzdək İraqlı idi. Müəllif Məzdəkin Maziraya (indiki əl-Kut) şəhərindən olduğunu qeyd edir (*Tarix,* II/99). Mənbələrdə bu adın həm Məzdək (مزدك), həm də Məzdəq (مزدق) şəklində qeyd olunduğuna rast gəlmək olur.

[23] Şəhristani, *əl-Miləl vən-Nihəl*, II/276; Fazili, *həmin əsər*, 169.

[24] Şəhristani, *əl-Miləl vən-Nihəl*, II/276.

[25] Şəhristani, *əl-Miləl vən-Nihəl*, II/276. Alman şərqşünas T. Nöldkeyə görə Məzdək kişi-qadın münasibətlərinin nikah çərçivəsi xaricinə çıxarılması, belə demək mümkünsə "azad qadın" ideyasında qədim yunan filosofu Platonla həmfikir idi. bax: Saboorifar, *həmin məqalə*.

Mal və əmlakın, maddi nemətlərin və ləzzətlərin ümumiliyinə çağırdığı üçün Məzdək İran aristokratiyasının zülmü altında inləyən geniş xalq kütləsi arasında populyarlıq qazana bilmişdi[26]. Dövlət tərəfindən dəstəklənən əmval və əmlakın ümumi istifadəsi fikri ona gətirib çıxarmışdı ki, qaragüruh istənilən zəngin adamın evinə, mülkünə iznsiz daxil olub ehtiyacı olan şeylərdən istifadə edə bilirdi. Poliqamiya qədim İran toplumunda yayğınlıq qazanmış bir hal idi. Bu səbəbdən zəngin aristokratiyanın sahib olduğu hərəmxanalar da qaragüruhun iştahını qabardan xüsuslardan biri idi[27]. Mirxond (1433-1498) var-dövlət və fərclərin ümumi istifadəsini mübah qıldığına görə təlimi xalq arasında rəğbət görən Məzdəkin həm də heyvanların kəsilib ətinin yeyilməsini də qadağan etdiyini bildirir[28]. Yenə Mirxondun bildirdiyinə görə şah I Qubad ilə Məzdəkin arasının dəyməsinə səbəb Məzdəkin şahın arvadını, şahzadə Xosrov Ənuşirəvanın anasını I Qubaddan tələb etməsi olmuşdur[29]. Güman ki, ixtilafın yaranması və məzdəkiliyin tənəzzülünün səbəbi bu qədər bəsit olmamışdır. Yəqin ki, əmlak ümumiliyi məsələsinə I Qubadın qarşı çıxmamasına və dəstəkləməsinə səbəb hökmdarın həddən artıq varlanmış feodal aristokratiyanın müqavimətinin qırılmasını arzu etməsi səbəb olmuşdur. O, bunu geniş xalq kütləsinin dəstəyi olmadan həyata keçirə bilməzdi. Məzdək şaha bu işdə, belə deməkmümkünsə kömək etmişdi. Lakin "islahat" dövlətin təməlini laxlatmağa başlayıb Sasani sülaləsinin hakimiyyətini sual altında qoymağa başlayanda Məzdəkin özü şahın hədəfinə çevrilmişdi. Sasani sarayı Məzdək və onun təliminə qarşı şiddətli bir təqib başlatmışdı. 529-cu ildə Məzdəkin edamından sonra tərəfdarları qətliama uğradılmışdı[30]. Şah I Xosrov Ənuşirəvanın (531-579) əmri ilə 80-150 min məzdəkini qətlə yetirdiyi bildirilir[31]. Qətliamla müşayət olunan təqib məzdəkiləri Sasani imperiyasının ucqarlarında, dağlıq bölgələrində gizlənməyə məcbur etmişdi. Mümkündür ki, bu inancın daşıyıcıları öz etiqadlarını gizləyərək Sasani imperiyasının ərəblər tərəfindən işğalına qədər varlıqlarını davam etdirmişdilər. Sasanilərə məxsus ərazilər fəth edilib xilafətə birləşdiriləndən sonra isə məzdəkilər daha azad və sərbəst yaşamaq imkanı əldə etmişdilər. Çünki xilafətin nəzərində onların digər zərdüştilərdən bir fərqləri yox idi, cizyələrini və xəraclarını vaxtında ödədikləri müddətcə nəyə necə inandıqları müsəlman ərəblər üçün elə bir əhəmiyyət kəsb etmirdi[32]. İran və Xorasan coğrafiyasında qədim dinlərinə bağlı olaraq yaşayan əhali hətta X-XI əsrlərə qədər əhalinin mühüm əksəriyyətini təşkil etmişdirlər[33]. Müsəlman coğrafiyaşünaslarının əsərlərindəki qeydlərdə bunu rahatlıqla görmək mümkündür[34]. Məcusi-zərdüşti din xadimləri X əsrdə Abbasi dövləti daxilində siyasi-ictimai həyata təsir edə biləcək qədər nüfuza malik idilər[35].

Xürrəmiliyin yaxud xürrəmdiniyyənin ictimai-dini mahiyyəti mövzusunda ciddi araşdırma aparmış peşəkar araşdırmaçıların fikir və qənaətləri bir-birinə yaxın və ya eynidir. Birmənalı olaraq söyləmək mümkündür ki, xürrəmilik məzdəkiliyin davamı mahiyyətində bir dini-ictimai cərəyan idi[36]. Mənbələrdə dinlər, dini cərəyanlar təsnif edilərkən xürrəmilik məzdəkiliyin davamı

---

26 İbn əl-Covzi, *əl-Muntəzəm*, II/107-108; Əbu Mənsur Əbdulməlik əs-Sə'alibi, *Ğurər Əxbaru Muluk əl-Furs və Siyərihim*, Paris 1900, 596-598; Muhəmməd ibn Xondşah Mirxond, *Tarixu Rövzət əs-Səfa*, I, Tehran 1338, 774; Yakubovskiy, *həmin əsər*, Leninqrad 1958, 58.

27 Yakubovskiy, *həmin əsər*, 59.

28 Mirxond, *Tarixu Rövzət əs-Səfa*, I/774. (و ملت آن بد کیش آن بود که اموال و فروج خلایق را بر یکدیگر مباح کرداند...ذبح حیوانات و اکل لحوم ... حرام ساخت )

29 *Yenə orada*.

30 İbn əl-Covzi, *əl-Muntəzəm*, II/107-108; Sə'alibi, *Ğurər Əxbaru Muluk*, 596-598; Mirxond, *Tarixu Rövzət əs-Səfa*, I/774; Yakubovskiy, *həmin əsər*, 59.

31 Patricia Crone, "Kavad's Heresy and Mazdak's Revolt**", Iran: Wournal of the British Institute of Persian Studies**, 29 (1991), 21-42.

32 Clot, *Harun Reşid*, 3.

33 Moshe Sharon, *Black Banners from East*, Werusalem 1983, 184.

34 Anonim, *Hüdud əl-Aləm*, 80, 82; Əbu İshaq İbrahim əl-İstəxri, *Kitab əl-Məsalik vəl-Məmalik*, Leyden 1870, 280-281; Əbül-Qasım ibn Hövqəl ən-Nuseybi, *Kitabu Surət əl-Ərz*, (nəşr. W. Ouseley), London 1800, 116.

35 əl-Məs'udi İsfəndiyar ibn Azərbad (Atorpat) adlı möbidin xəlif ər-Razi Billahın (934-940) əmri ilə edam edildiyini qeyd edir. Bax: Əbil-Həsən Əli əl-Məs'udi, *ət-Tənbih vəl-İşraf*, Qahirə 1938, 91.

36 Patricia Crone, *The Nativist Prophets of Early Islamic Iran*, New York 2012, 22; Patricia Crone, "Zoroastrian Communism", **Comparative Studies in Society and History,** XXXVI/3. (1994), 447-462; Sədiqi, *Cunbuşhaye-dini*

mahiyyətində bir dini-ictimai cərəyan olaraq təsvir edilməkdədir. İbn ən-Nədim xürrəmiyyənin sahib olduğu inanc və əqidənin təməlinin Məzdək tərəfindən qoyulduğunu bildirir[37]. İbn Həzm əl-Əndəlusi (994-1064) əsərində xürrəmiliyin məzdəki firqələrindən biri olduğunu qeyd edir[38]. Əbil-Müzəffər əl-İsfərayini (öl. 1078) isə xürrəmiliyin İslamdan əvvəl məzdəkiyyə adlandığını qeyd edir[39]. Əli əl-Məs’udi (896-957) də məzdəkiliklə xürrəmiliyi eyniləşdirir[40]. İbn əl-Əsir əl-Cəzəri (1160-1233) Sasani şahı I Qubadın dövründə məzdəkiyyə adlanan və məcusiliyə aid olan bu dini cərəyanın İslamdan sonrakı dövrdə bütün haramları mübah hesab edən xürrəmdiniyyə olaraq tanındığını qeyd edir[41].

Yuxarıda qeyd etdiyimiz kimi orta əsr müsəlman müəlliflər dini cərəyanları təsnif edərkən xürrəmiyyəni məzdəkiliklə birlikdə “əl-ibahiyyə”, mübahçılar firqəsinə daxil etmişdirlər. Bu firqəyə mübahçı deyilməsinin səbəbi isə onların haram buyurulmuş işlərin görülməsini mübah, icazəli hesab etmələri idi[42]. Xilafət dövründə məzdəkilər ərəbcə terminlə “əl-muhəmmirə” (المحمّرة), farsca adı ilə “sorx camegan” (سرخ جامگان) adı ilə tanınmaqda idilər[43]. Bu kəlmələrin hər ikisi “qırmızılar, qırmızı geyimlilər” mənasını ifadə edir[44]. Əbu Mənsur əl-Bağdadi (öl. 1038) “əl-İbahiyyə”ni təsnif edərkən bildirir ki, İslamdan əvvəl “əl-məzdəkiyyə” olaraq tanınan bu firqə İslamdan sonra “əl-muhəmmirə” olaraq bilinmişdir. “Babəkiyyə” və “mazyariyyə” olaraq iki qola ayrılan “əl-xürrəmdiniyyə” “əl-muhəmmirə”yə aiddir[45]. Xürrəmiliyi ibahiyyə və məzdəkiyyədən ayırmayan əş-Şəhristani əsərində bu firqələrin İraqdan Xorasana qədər qədim İran coğrafiyasında yayıldığı yerlər haqqında da məlumat verir[46].

Əməvilərin hakimiyyətə gəlməsindən sonra İraq mühitində bu sülaləyə qarşı başlamış olan müxalifətin nüvəsini Əli ibn Əbu Talib soyu mənsubları və onların tərəfdarları təşkil edirdilər. Avtoritar valilər tərəfindən amansızca təqib edilən bu müxalifət təqib və təzyiqlərdən yaxa qurtarmaq və daha asudə fəaliyyət göstərə bilmək üçün xilafətin ucqarlarına, əsasən də Xorasana üz tutmuşdular. Bu dövrdə Xorasana izdihamlı ərəb köçü də müşahidə edilməkdə idi. Ərəb qəbilələri böyük kütlələr halında Xorasan, İran və Azərbaycana köçərək buralarda məskunlaşmaqda idilər[47]. Xorasan ərəbləri arasında Əli tərəfdarları az sayılmayacaq qədər nüfuza sahib idilər. Abbasi inqilabi hərəkatının “ali-beytin haqqını tələb etmək” şüarı ilə təbliğat fəaliyyətinə Xorasanda başlamış olması təsadüfi deyildi. Sonrakı əsrlərdə yazılmış səyahətnamələrdə Xorasan və Mavəraünnəhrdə Əli övladı tərəfdarlığının yayğın nüfuza malik olduğunu öyrənmək olur. Səyyah Əbu Duləf (X əsr) buğrac türklərinin Əli ibn Əbu Talibin ərəblərin tanrısı, onun soyundan gələn Zeyd ibn Hüseyni isə peyğəmbəri olduğuna inandıqlarını qeyd edir[48]. İran və Xorasandakı zərdüşti-məzdəki ünsürü ölkələrini ələ keçirib siyasi təşəkküllərinə, dövlətçiliklərinə son qoyan, onları cizyə, xərac kimi vergiləri ödəməyə məcbur edən, bundan qurtulmanın yeganə yolu olaraq isə İslamın qəbulunu təklif edən ərəblərdən əlbəttə ki, məmnun deyildilər. Məmnun olmadıqları İslamı

*İran*, 242; Səid Nəfisi, *Babək*, Bakı 2010, 19; Hüseyn Qasım əl-Əziz, *əl-Babəkiyyə*, Beyrut 1966, 130; A. Yakubovskiy VIII əsrdə Xorasan və Azərbaycan məzdəkilərin xürrəmi adı ilə tanındıqlarını qeyd edir (bax: *İstoriya İrana*, 98, 107.

[37] İbn ən-Nədim, *Kitab əl-Fihrist*, 406.

[38] Əbu Muhəmməd Əli ibn Həzm əl-Əndəlusi, *əl-Üsul vəl-Füru‘*, I, (nəşr: M. A. əl-İraqi-Əbu Vafiyə, S. F.), Qahirə 1978, 362. (الخرّميّة أصحاب بايك وهم فرقة من فرق المزدقيّة)

[39] Əbil-Müzəffər Şahfur ibn Tahir əl-İsfərayini, *ət-Təbsirə fid-Din və Təmyiz əl-Firqət ən-Naciyə ənil-Firəq əl-Halikin*, (nəşr: K. Y. əl-Hut), Beyrut 1983, 135. (الخّرميّة وهم فرقتان, فرقة منهم كانوا قبل دولة الاسلام وهم المزدكيّة)

[40] Məs’udi, *ət-Tənbih vəl-İşraf*, 306.

[41] İzzəddin Əli ibn əl-Əsir əl-Cəzəri, *əl-Lübab fi təhzib Ənsab əl-Əşraf*, I, Beyrut 1980, 436-437. (الخّرمدينيّة لاباحتهم الحرمات من شرب الخمر والزنا وغير ذلك)

[42] Bağdadi, *əl-Fərq beyn əl-Firəq*, 233; İbn Şakir, *Uyun ət-Təvarix*, 82; Çağatay-Çubukçu, *İslam Mezhepleri Tarihi*, 66; İbrahim Agah Çubukçu, “Gazzaliye Göre İbahilik”, **AÜİFD**, I/5, Ankara 1956, 165-173.

[43] İbn ən-Nədim, *Kitab əl-Fihrist*, 405-406. (الخرّمية صنفان, الخرّمية الاولين ويسمون المحمّره)

[44] Yakubovskiy, *İstoriya İrana*, 107; Amoretti, “Sects and Heresies”, 503; Şəms, “Mə’rufi. Xürrəmdiniyyə ya Xürrəmiyyə”, 68-69.

[45] Bağdadi, *əl-Fərq beyn əl-Firəq*, 233.

[46] Şəhristani, *əl-Miləl vən-Nihəl*, II/150, 263.

[47] Bu haqda daha ətraflı məlumat üçün bax: Athamina, “Emevî Hilafeti Döneminde Arap İskanı”.

[48] İbn Fəzlan, *Səyahətnamə*, 89.

və ərəbləri Əməvi dövlətinin simasında görürdülər. Bu məmnuniyyətsizliyin dərinləşməsində əlbəttə Əməvi dövlətinin əyalətlərə təyin etdikləri məmurların icraatları da az rol oynamamışdı. Beləcə Xorasandakı ələvi ərəb ünsürü ilə zərdüşti-məzdəki ünsürü arasında ortaq hədəfə qarşı bir əməkdaşlıq, işbirliyi meydana gəlməsi qaçınılmaz olmuşdu. Abbasi inqilabının ideya müəllifləri bu vəziyyətdən məharətlə istifadə edə bilmişdilər. Hətta Abbasi inqilabı hərəkatının Xorasandakı ələvi və zərdüşti müxalifəti koordinə edən bir "çətir təşkilat" halına gəldiyi söyləsək yəqin ki, yanılmarıq. Əməvilərin son dövründə rəvacda olan bu inqilabi taktika bəzən əks nəticə də meydana gətirə bilirdi. Necə ki, müsəlman müəlliflərin əsərlərində "xürrəmi" adı ilə tanınan ilk şəxs Xorasandakı Abbasi naiblərinin başçısı təyin olunmuş Xidaş ləqəbli Əmmar ibn Yəzdad olmuşdur. H. 118-ci ildə (736-737) İraqdan Xorasana gələrək Abbasi ailəsinin lideri Muhəmməd ibn Əlinin lehinə təbliğat işi ilə məşul olan Xidaşın bir müddət sonra fikir və söyləmlərində ciddi dəyişiklik baş vermişdi. İbn Cərir ət-Təbəri Xidaşın xürrəmilik dinini izhar etdiyini və insanlara arvadlarının bir-birləri üçün rüsxətli olduğunu[49] söylədiyini, kütləyə imam Muhəmməd ibn Əlinin də bu fikirdə olduğunu təlqin etdiyini bildirməkdədir[50]. Ona qulaq verən kütləyə "*namaz, oruç, həcc deyə bir şey yoxdur, oruc imamın adını zikr etmək, namaz imama dua etmək, həcc isə üzünü imama çevirməkdir*" deyən Xidaş insanları fiziki-mənəvi həzzlərin heç birindən özlərini məhrum etməməyə, ləzzət ala bildikləri hər bir işi görməyə çağırırdı. O, özündən bir əsr əvvəl Məzdəkin irəli sürdüyü bu fikirlərə "dəlil" olaraq təqdim etmək üçün Qur'andan bir ayə də tapmışdı. Xidaş kontekstdən çıxardığı Maidə surəsinin 93-cü ayəsini[51] öncüsü olduğu neo-məzdəkiliyin dəlili olaraq təqdim etməkdə idi[52]. Əbül-Fərəc ən-Nəhivani (915-1000) Xidaşın ardınca gedənlərin "haramları mübah sayan əl-xürrəmiyyə" olaraq görüldüyünü bildirir[53]. Abbasilərin lideri imam Muhəmməd Xidaşın fikirlərindən və çağırışından uzaq olduğunu bildərərək onu lənətləmişdi. Bu hadisə Xorasandakı Abbasi tərəfdarları arasında parçalanmaya səbəb olmuşdu. Xidaş isə Xorasan valisi Əsəd əl-Qəsri tərəfindən sorğuya çəkiləndən sonra valinin əmri ilə edam edilmiş, cəsədi Amul şəhərində çarmıxa gərilərək asılmışdı[54]. Xidaşın tərəfdarları Muhəmməd ibn Əlidən sonra imamlığın Xidaşa keçdiyi fikrini yaymaqla[55] yanaşı onun ölümünü inkar edərək müvəqqəti qeybə çəkildiyini iddia etmişdilər. Bu güruh Xorasan xürrəmiyyəsi olaraq tanınmışdı[56]. Xidaşdan geriyə qalan kifayət qədər izdihamlı icma əvvəllər onun adı ilə "əl-xidaşiyyə" adlansa[57] da sonradan "əl-xalidiyyə", Əbu Müslim Xorasaninin xəlifə Mənsurun (754-775) dövründə öldürülməsindən (775) sonra isə Əbu Müslimin qızı Fatimənin ətrafında birləşdikləri üçün "əl-fatimiyyə" olaraq tanınmışdı[58]. Bu qrupun sahib olduğu tərəfdar sayı və nüfuzu siyasi iddiaları olan bir sıra insanlarda onları öz tərəfində çəkmək, yaxud öz fikirlərini onların arasında yaymaq arzusunu və cəhdlərini meydana gətirirdi. Bunlardan biri də Əli ibn Əbu

---

[49] (وأظر دين الخُرّميّة, ودعا إليه ورخّص لبعضهم في نساء بعض)

[50] Əbu Cəfər Muhəmməd ibn Cərir ət-Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VII, (nəşr. M. Əbül-Fəzl İbrahim), Qahirə (tarixsiz), 109.

[51] "*İman gətirib yaxşı işlər görənlərə, (Allahdan) qorxaraq iman gətirib yaxşı işlər gördükləri, sonra (yenə Allahdan) qorxaraq iman gətirdikləri, sonra (yenə də Allahdan) qorxaraq yaxşı işlər gördükləri təqdirdə, (haram buyurulmamışdan əvvəl) daddıqları şeylərə görə heç bir günah gəlməz. Allah yaxşı iş görənləri sevir*". (Maidə 93). Ayə içki və qumarın haram edilməsindən sonra bəzi səhabələrin sualları üzərinə nazil olmuşdur. Onlar Peyğəmbərə (s.ə.v) "*içkinin haram edilməsindən əvvəl iman etmiş, iman etdikdən sonra da içmiş, lakin Bədr və Uhudda şəhid olan qardaşlarımız necə olacaqlar?*" kimi suallar verirdilər. Sonra Allah sözügedən ayəni nazil edərək məsələni aydınlığa qovuşdurmuşdu. Bəra ibn Azib, Abdullah ibn Abbas, Qatədə kimi səhabə və tabiindən ayənin təfsiri ilə bağlı nəqllər mövcudur. Daha ətraflı məlumat üçün bax: Əbu Cəfər Muhəmməd ibn Cərir ət-Təbəri, *Camiu əl-Bəyan fi Təfsir əl-Qur'an*, I, (nəşr. Ə. Hindavi), Beyrut 2004, 491-495.

[52] İbn əl-Əsir, *əl-Kamil*, V/163; ; İbn Kəsir, *əl-Bidayə*, IX/524. İbn Kəsir Xidaşın insanları dəvət etdiyi məzhəbin zənadiqəyə (zındıqlıq) mənsub xürrəmilik olduğunu qeyd edir (دعاهم إلي مذهب الخَرّميّة الزّنادقة).

[53] Əbül-Fərəc ibn Zəkəriyya ən-Nəhrivani əl-Cəriri, *əl-Cəlis əs-Salih əl-Kafi vəl-Ənis ən-Nasih əş-Şafi*, III, (nəşr. İ. Abbas), Beyrut 1987, 294. (كان خداش صاحب الخداشية, وهو رأي الخرّمية, إباحة المحارم)

[54] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VII/109; İbn əl-*Əsir*, *əl-Kamil*, V/163; İbn Kəsir, *əl-Bidayə*, IX/524.

[55] Anonim, *Əxbaru əd-Dövlə əl-Abbasiyyə*, 403.

[56] Ən-Naşi əl-Kəbir, *Məsail əl-İmamə*, Beyrut 1971, 32-33; Farhad Daftary, "Emeviler Döneminde ve Abbasilerin İlk Dönemlerinde İran, Horosan ve Marveraünnehir'deki Mezhepçi ve Milliyetçi Hareketler", **Kelam Araştırmaları, IV/2**, (2006), 139-158; Amoretti, "Sects and Heresies", 504.

[57] Nəhrivani, *əl-Cəlis əs-Salih*, III/294.

[58] Anonim, *Əxbaru əd-Dövlə əl-Abbasiyyə*, 403; Sharon, *Black Banners*, 183.

Talibin soyundan olan Abdullah ibn Müaviyədir. Bu şəxs haqqında yuxarıda ətraflı məlumat vermişdik. İbn Cərir ət-Təbərinin əsərində verilən məlumatdan aydın olur ki, Abdullah ibn Müaviyə Xorasan xürrəmisi sayılan xidaşilərin yardımını umsa da bunu onlardan görə bilməmişdi. Abdullah ibn Müaviyə məyusluğunu iki acı beytlə dilə gətirmişdi: "*antilop kimi Xidaşın ətrafından qaçıb dağılışdıqlar. Xidaş nəyi ovlayacağına çaşıb qaldı*"[59]. İraqda Əməvilərə məğlub olub Xorasana üz tutmuş Abdullah ibn Müaviyə h. 127-ci (744-745) ildə artıq Xorasandakı hərəkatın liderlərindən sayılan Əbu Müslim Xorasani tərəfindən həbs edildiyi zindanda boğdurularaq öldürülmüşdü[60].

Xidaş hadisəsi məzdəkiliyin təlqin etdiyi ideyaların Xorasanda hələ də rəvacda olduğunu və böyük kütlələr tərəfindən asanlıqla mənimsənə bildiyini göstərir. Bu həm də Abbasi inqilabi təbliğatının xitab etdiyi kütlənin sadəcə müsəlman ərəblərdən ibarət olmadığını, qədim İran dinlərinə bağlı olan kütlələrin də bu hərəkatın içində mühüm rol oynadığına sübutdur. Aralarında inanc və əqidə birliyi olmasa da, Əməviləri ortaq düşmən olaraq görmələri onları birlikdə hərəkət etməyə sövq edirdi. Belə ki, Abbasilərin hakimiyyətə gəldikdən sonra özlərinin ənənəvi "sünni" qiyafələrinə bürünməsi keçmiş müttəfiqlərini qeyzləndirmişdi. Bu qeyzlənmə yuxarıda haqqında ətraflı məlumat verdiyimiz Abbasilərin ilk illərindəki silahlı qiyamlar şəklində özünü büruzə vermişdi. Bunda ələlxüsus Əbu Müslim Xorasaninin xəlifə Mənsur tərəfindən öldürtülməsi mühüm rol oyanmışdı. Yuxarıda haqqında ətraflı bəhs etdiyimiz Xorasandakı Sinbaz əl-Məcusi (755), İshaq ət-Türk (757)[61], Ustad Sis (767), Müqənna əl-Xorasani (775) qiyamları məhz bu hadisədən sonra Abbasilərdən Əbu Müslimin intiqamını almaq şüarı ilə meydana gəlmişdi. Sözügedən qiyamlarda iştirak edən kütlə əvvəl Xidaşı, sonra Əbu Müslimi dəstəkləyən, onların xitab etdiyi kütlə idi. Nizamülmük və əl-Məs'udi Sinbaz əl-Məcusi qiyamının bir xürrəmi qiyamı olduğunu qeyd edirlər[62]. Azərbaycan xürrəmiləri də Əbu Müslim Xorasaninin adından istifadə etmişdilər[63]. Azərbaycan xürrəmiləri arasında "kudəki-dana" (كودك دانا), yəni "müdrik uşaq" kultu mövcud idi. "Kudəki dana" Əbu Müslimin qızı Fatimənin oğlu Firuzun ləqəbi idi. Bu şəxs Azərbaycan xürrəmilərinin inanc yeri idi, onun adını zikr etməyi ibadət olaraq bilirdilər[64]. Bu şəxsi ilahlaşdıran məzdəki cərəyan sonralar "əl-kudəkiyyə" (الكودكية), yaxud "əl-kuzəkiyyə" (الكوذكية) adı ilə tanınmışdı[65]. Əli əl-Məs'udi Azərbaycan xürrəmilərini təsnif edərkən "cavidaniyyə" və "babəkiyyə"ni "əl-xürrəmiyyət-ul-kudəkiyyə"nin tərkib hissələri olaraq qeyd edir[66].

## Xürrəmilərin müsəlman olması ilə bağlı iddialar

Mövzu ilə bağlı mənbə məlumatlarının təhrifi və tə'vilinə yol verilərək edilən iddialardan biri də xürrəmilərin yaşadıqları bölgələrdə məscidlərin olması, bu məscidlərdə Qur'an oxunduğu, xürrəmilərin qeybdəki bir xilaskarın, Mehdinin intizarında olmaları məsələsidir. Məsələnin həm qəribə, həm də maraqlı tərəflərindən biri də budur ki, bənzər məlumatları dəstəvuz edərək xürrəmiləri İslam dini dairəsinə daxil etməkdə israrlı olanlar bu məlumatların da orta əsr ərəb müəllifləri tərəfindən verildiyini unudurlar. Halbuki həmin müəlliflər bəzi cənabların heç bir şeyə əsaslanmayan iddialararını təkzib edən məlumatlar verdikdə "qərəzli, yalançı, böhtançı saray tarixçilərinə" çevrilirlər. Hərçənd ərəb müəlliflərin bu bəyəndikləri məlumatlarını da əsl qaynağından deyil başqa araşdırmaçıların əsərlərindən oxuduqları üçün onları qınamağa dəyməz. Həmin məlumatla əsl qaynağında və müqayisəli təhlil edərək göz gəzdirəndə görürük ki, oradaki məlumatlar xürrəmilərin İslam dininə mənsubluğunu təsdiq etmir, əksinə təkzib edir. İbn Hövqəl (öl. 988) xürrəmilər haqqında verdiyi məlumatda deyir: "*Babəkin mənsub olduğu xürrəmiyyə, onların kəndlərində məscidlər var və Qur'an oxuyurlar. Buna baxmayaraq deyirlər ki, onlar*

[59] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VII/303. (تَنَرَّقَتِ الظباءُ علي خِداشٍ, فما يَدْري خداش ما يَصِيد)
[60] İbn əl-Əsir, *əl-Kamil*, V/307-308.
[61] İbn ən-Nədim, *Kitab əl-Fihrist*, 408.
[62] Məs'udi, *Muruc əz-Zəhəb*, III/244; Nizamülmülk, *Siyasətnamə*, 146.
[63] İbn ən-Nədim, *Kitab əl-Fihrist*, 408; Melikoff, *Ebu Müslim*, 55.
[64] Nizamülmülk, *Siyasətnamə*, 161; Melikoff, *Ebu Müslim*, 55.
[65] Şəhristani, *əl-Miləl vən-Nihəl*, II/277.
[66] Məs'udi, *ət-Tənbih vəl-İşraf*, 306.

*daxilən ibahilikdən başqa heç bir dinə bağlı deyillər*”[67]. Burada diqqət edilməli bir neçə xüsus var. Əvvəla İbn Hövqəlin Azərbaycanı da gəzib gördüyü orta şərq səyahəti 945-977-ci illəri əhatə edir[68]. Yəni o, bu müşahidələrini qeydə alarkən xürrəmi qiyamının yatırılması və Babəkin edam edilməsinin üzərindən 150 ilə yaxın müddət ötmüşdü. Cümlənin içərisindən “məscid” və “Qur’an” kəlimələrini maqqaşla çəkib müəllifin fikrini təhrif edərək zehinləri bulandırmaq və yanlış fikir formalaşdıramaq nəyə lazımdır? İbn Hövqəl Babəkin həyatda, başçılıq etdiyi qiyamın isə fəal olduğu zamanlardan deyil. bundan 150 il sonrakı durum haqqında məlumat verir. 150 il ərzində bölgədə xürrəmilərin əqidə və etiqadından başqa əlbəttə ki, çox şey dəyişmiş, məscidlər tikilmiş, əhaliyə İslamı öyrədən qarilər, Qur’an oxucuları təyin edilmişdi. Çünki İbn Hövqəlin səyahət etdiyi dövrdə Azərbaycan Babək Xürrəminin deyil, əvvəl Sacilər, sonra isə Salarilər dövlətinin hakimiyyəti altında idi. Digər bir xüsus isə İbn Hövqəlin məscid və Qur’an oxuyan qarilərə rəğmən xürrəmilərin hələ də ibahilikdən, yəni bütün haramları mübah, caiz görən əqidədən başqa bir şeyə inanmadıqlarını qeyd etməsidir. Maraqlıdır ki, cümlənin əvvəlindəki “məscid” və “Qur’an” kəlmələrini maqqaşla seçənlər cümlənin sonundakı “ibahilik” kəlməsini görməyiblər. Artıq qərəzdənmi, naşılıqdanmı bunu demək müşküldür. Xürrəmilər nəinki X əsrdə, hətta çox sonrakı dövrlərdə də ibahi olaraq qalmağa davam etmişdirlər. Məsələn XIII əsrdə yaşamış İbn əl-Əsir əl-Cəzəri “əl-Babəkiyyə” başlığı altında yazır ki, “*əl-Bəzz dağlarında bu gün əl-Babəkiyyəyə mənsub bir icma qalmaqdadır. Onlar ildə bir dəfə kişili-qadınlı bir məclis təşkil edirlər. Sonra çıraqları söndürüb kişilərdən kim hansı qadına güc yetirə bilirdisə onunla olurdu*”[69]. IX əsrin ilk yarısında başlayıb sona çatmış qiyamın aparıcı qüvvəsi olan Azərbaycandakı xürrəmilər onlar üçün tikilmiş məscidlərə rəğmən X əsrdə ibahi olaraq qalmaqda idilər. XIII əsrdə isə onların Bəzz dağlarında marginal bir qrup olaraq öz ənənəvi dinlərində qalmağa davam etdiklərini görürük. XII əsr Azərbaycan xürrəmilərinin inancında qadın suya bənzədilirdi. Onların etiqadına görə susuz kişinin su içməsi təbii olduğu kimi cinsi ehtiyacının təmini üçün bəyəndiyi qadından istifadə etməsi də təbii hesab olunurdu[70]. P. Crone İran mühitində XVII əsrə qədər xürrəmi icmasının öz varlığını davam etdirdiyini bildirir[71].

Digər bir məsələ isə mənbələrdə xürrəmilər haqqında onların qeybdəki xilaskarı, Mehdini gözləməkdə olduqlarının qeyd olunmasıdır. Bu məlumat xürrəmiləri İslam dini dairəsində görməkdə təkid edənlərin tutunmağa çalışdıqları az sayıda arqumentdən biridir. Bu məsələni də mənbələrin nəql etdikləri məlumatların işığında aydınladaq. Aşağıda iqtibas etdiyimiz məlumata üç coğrafiyaşünas müəllifin əsərində rast gəldik; Əbu Düləf Mis’ər əl-Yənbui (öl. 1000), Yaqut əl-Həməvi[72] (1179-1229) və Zəkəriyya əl-Qəzvini[73] (1203-1283). Bunlardan Əbu Düləf və Yaqut əl-Həməvinin Azərbaycanın şəhər və vilayətlərinə səyahət etdikləri bilinməkdədir. Mövzu ilə bağlı verdikləri məlumatın eyni olduğunu nəzərə alaraq digər ikisinin X əsrdə cənubi Qafqaza səyahət etmiş Əbu Duləfi təkrarladıqlarını, onun əsərindən iqtibas etdiklərini söyləyə bilərik. Əbu Düləf əl-Yənbui Bəzzeyn dağlarını haqqında məlumat verərkən qırmızı geyimli (əl-muhəmmirə) xürrəmilərin və Babəkin buradan çıxdıqlarını, Mehdinin də burada zühur edəcəyinin gözlənildiyini qeyd edir. Əsəri ruscaya tərcümə etmiş P. Bulqakov və A. Xalidov bunu “*Оттуда выступил Бабак и там ожидают ал-Махди*” şəklində tərcümə etmişdirlər[74]. Əsəri farscaya qazandırmış Ə.

---

[67] İbn Hövqəl, *Kitab Surət əl-Ərz*, 317. (الخرميّة و كان بابك منها, ولهم بقراهم مساجد ويقرأون القرآن, ويقول عليهم في خلال ذلك انهم لا يدينون في الباطن بدين غير الاباحة)

[68] Şeşen, *Müslümanlarda Tarih-Coğrafya Yazıcılığı*, 101-102.

[69] İbn əl-Əsir, *əl-Lübab fi təhzib Ənsab əl-Əşraf*, I/101. (وبقي من البابكية اليوم جماعة بجبال البذّ, لهم في السنة يجتمع فيه فيها رجالهم و نساؤهم, ويطفؤون السرج, ويثب فيها كل رجل منهم علي من ظفر بها من نسائهم)

[70] Crone, “Zoroastrian Communism”, 450-451.

[71] *Həmin məqalə.* P. Crone “*The Nativist Prophets of Early Islamic Iran”* adlı əsərinin 391-392-ci səhifələrində “Wife-sharing” başlığı altında mövzuya xüsusi yer ayırıb.

[72] *Mu’cəm əl-Buldan*, I/361.

[73] *Asar əl-Bilad*, 511.

[74] Əbu Duləf Mis’ər əl-Yənbui, *Vtoroya Zapiska*, http://www.vostlit.info.

Təbatəbayi[75] və ərəbcə mətnini nəşr etdirmiş M. M. Mersi[76] bu cümləni "*Babək oradan çıxmışdır, həmçinin həmin məkanda Mehdinin zühur edəcəyi, təvəqqe edilir, gözlənilir*" şəklində qeyd etmişdirlər. Görüldüyü kimi burada xürrəmilərin Mehdini gözlədikləri deyil, Mehdinin həmin yerdə zühur edə biləcəyinin gözlənildiyi qeyd olunur. Babək və onun xürrəmilərinin "Mehdinin zühuru" inancına sahib olub onun zühurunu gözləmələri xronoloji baxımdan da mümkün deyil. "Mehdi" inancına sahib olanların bildirdiyinə görə sözügedən şəxs 870-ci ildə dünyaya gəlmişdi, yəni Babəkin ölümündən (838) 32 il sonra dünyaya gəlmişdi. Dünyaya gəlməmiş, qeybə çəkilməmiş birinin zühurunun xürrəmilər tərəfindən gözlənildiyini iddia etmək bir qədər absurd deyilmi!? X əsrdə Bəzz dağlarındakı xürrəmilər batini təbliğatçıların təsiri ilə batini-ismaililiyə transformasiya etmişdilər. Bu məzhəbə xas inancların onlar arasında özünə yer tapmış olması da bu səbəbdəndir İrəlidə bu məsələyə daha geniş yer veriləcəkdir.

Hətta əksi olsaydı belə bu xürrəmilərin İslam dini dairəsinə daxil edilməsi və Mehdi inancına sahib şiələr olaraq təqdim edilməsi üçün dəlil təşkil etməzdi. Çünki qeybdəki xilaskarın zühur edəcəyi inancına sadəcə şiələr sahib deyillər. Yəhudi və xristianlar "Messiah", buddistlər "Maytreya", hinduistlər "Kalki" inancına sahib olduqları kimi bu inanç zərdüşti-məcusilikdə də mövcuddur. Xürrəmilərin aid olduqları zərdüşti-məcusilərin kitabı Zənd-Avestada bu şəxs "Saoşyant" adlanır. Zənd-Avestaya görə Zərdüşt öz nütfəsini Hamun gölünə buraxmışdır. Qiyamətə yaxın 15 yaşlı bakirə bir qız göldə üzərkən Zərdüştün nütfəsindən hamilə qalacaq və zülmün tüğyan etdiyi dünyanı ədalətlə dolduracaq məcusilərin "mehdi"si Saoşyantı dünyaya gətirəcəkdir[77].

Hülul, tənasüx, ricət kimi inanclara sahib olmaları xürrəmiyyənin ğulat (ifratçı) şiə firqələrdən biri kimi təqdim edilməyə cəhd olunmasına səbəb olmuşdur. Halbuki şiə-imamiyyə məzhəbinin klassik alimləri xürrəmiləri əsla bu cür bir kateqoriyaya daxil etməmiş, bu cərəyana qarşı kəskin münasibət nümayiş etdirmişdirlər. Şiəlik firqə və cərəyanları ilə bağlı "Firəq əş-Şi'ə" adlı əsərin müəllifi Həsən ən-Növbəxti (öl. 923) "xürrəmdiniyyə"nin adını məzdəkilər, zındıqlar və dehrilər (materialistlər) ilə birlikdə çəkərək "*Allahın lə'nəti onlara olsun*" deyir. O, xürrəmiliyin ruhların bədəndən bədənə gəzməsinə (tənasüx) inanıb axirət və hesab gününü inkar etdiklərini qeyd edir[78]. Q. Sədiqi də xürrəmilik və babəkiliyin ğulat şiəliyə aid edilməsini yanlış hesab edir[79]. Sünni-əş'ari alimi Əbu Mənsur əl-Bağdadi də dinlər, məzhəblər və cərəyanları təsnif edərkən yanlış təsəvvür edildiyi kimi xürrəmiləri İslami cərəyanlardan biri hesab etməmişdir. Əbu Mənsur əl-Bağdadi xürrəmilikdən əsərinin dördüncü babındakı "*İslama intisab edilsə də İslama mənsub olmayan firqələrin bəyanı*" başlığı altında bəhs edir[80].

## Xürrəmilərin etnik kimliyi

Xürrəmilik və Babəklə bağlı maraq və mübahisə doğuran məsələlərdən biri də etnik kimlik məsələsidir. Son dövrlərdə Azərbaycan xürrəmiləri və Babəkin türk mənşəli olması haqqında heç bir sağlam dəlilə, sübuta əsaslanmayan, lakin çox cürətli çıxışlara rast gəlinir. Qeyd edim ki, Babək və xürrəmilik qərb ölkələri, Rusiya, İran, qismən də Türkiyədə ciddi elmi araştırmaların mövzusu olsa da, Azərbaycandan başqa heç yerdə Babək və xürrəmilərin türk mənşəli olduqlarına dair fikir bəyan edən tədqiqatçı olmayıb. Xürrəmilər ilə Babəkin etnik mənşəyinin ayrı-ayrı məsələlər olduğunu nəzərə alaraq əvvəlcə Azərbaycan xürrəmilərinin, sonra isə Babəkin etnik mənsubiyyəti barədə mənbələrdəki məlumatların təhlilinə əsaslanaraq danışacağıq. Azərbaycan xürrəmilərinin etnik mənsubiyyəti haqqında təsəvvürə sahib ola bilmək üçün sözügedən dövrdə Azərbaycanın

---

75 Əbu Duləf Mis'ər əl-Yənbui, *Səfərnaməyi-Əbu Duləf dər İran*, (tərc. Ə. Təbatəbayi), Tehran 1354, 47. (وبابك از آنجا برخاست. ونيز در اين مكان انتظار ظهور مهدي را دارند)

76 Əbu Duləf Mis'ər əl-Yənbui, *ər-Risalət əs-Saniyə*, (nəşr. M. M. Mersi), Qahirə 1970, 48. (ومنه خرج بابك وفيه يتوقعون المهدي)

77 Ekrem Sarıkçıoğlu, "Mecusi Dini'nde Mehdi İnancı", **AÜİFD, VII**, (1986), 5.

78 Növbəxti, *Firəq əş-Şiy'ə*, 32, 41-42.

79 Sədiqi, *həmin məqalə*, 241.

80 Bağdadi, *əl-Fərq beyn əl-Firəq*, 202. (الباب الرابع, في بيان الفرق التي انتسبت إلي الإسلام و ليست منه)

etnogenetik mənzərəsinə aydınlıq gətirməyə ehtiyac var. Bu haqda IX-X əsrlərdə Azərbaycana səyahət etmiş səyyahların qeydlərinə, eləcə də əsərlərini qələmə alarkən bu qeydlərdən faydalanmış coğrafiyaşünasların əsərlərinə müraciət etmək lazım gəlir. Səyyah və coğrafiyaşünas İbrahim əl-İstəxri (X əsr) Azərbaycanda danışılan dillərlə bağlı məlumat verərkən əhalinin farsca və ərəbcə[81] danışdıqlarını, Bərdə və ətraf nahiyələrdə isə arran (əl-arraniyyə)[82] dilində danışdıqlarını bildirir. Müəllif həmçinin böyük Qafqazda müxtəlif dillərdə danışan kafir əhalinin yaşadığını da qeyd edir[83]. İbn Hövqəl (X əsr) də Azərbaycan əhalisinin əksəriyyətinin farsca danışdıqlarını, tacirlər və ziyalıların ərəbcə bildiklərini, farsca danışan əhalinin ərəbcə anlamadıqlarını, Bərdə və ətrafında arraniyyə dilində danışıldığını qeyd edir. Müəllif həmçinin böyük Qafqaz dağlarında müxtəlif dillərdə danışan qeyri-müsəlman əhalinin məskun olduğunu da qeyd edir[84]. Burada sözügedən farscanın (əl-farisiyyə) bu günkü mənada anlaşılan fars dili olmadığını da yenə orta əsr müəlliflərinin əsərlərindən öyrənirik. Yaqut əl-Həməvi Azərbaycan haqqında məlumat verərkən qeyd edir ki, bu diyar əhalisi azəri (əl-azəriyyə) dilində danışır və başqaları bu dili başa düşmürlər[85]. Farsca ilə eyni dil ailəsinə daxil olması və bənzərlik səbəbiylə bəzi müəlliflər azəri dili ilə farscanı eyniləşdirsələr də işin ərbabı olanlar daha dəqiq təsnifat apara bilirdilər. Məsələn Əli əl-Məs’udi azəri dilini pəhləvi və dəri dilləri ilə eyni qrupda təsnif etmişdir[86]. Əhməd əl-Yaqubinin verdiyi məlumat isə araşdırdığımız mövzunun aydınlatılması baxımından daha dəyərlidir. Müəllif yazır ki, Azərbaycanın şəhər və əyalətlərinin əhalisi əcəm azərilər ilə keçmişdə Bəzz şəhərinin sakini olan cavidanilərin qarışığından ibarətdirlər[87]. Göründüyü kimi sözügedən dövrdə Azərbaycan əhalisinin türkcə danışmadığı aydın şəkildə mənbələrdə öz əksini tapmışdır. Azərbaycan xürrəmilərinin danışdıqları dil İran dillərinə aid olan azəri (əl-azəriyyə) dili idi[88]. Orta əsrlərdə yaşayıb ərəbcə yazan müəlliflər türklərə və onların danışdıqları dilə yaxşı bələd idilər. Yəni səhv salma, qarışdırma ehtimalları yoxdur. Belə ki, XI əsrin birinci yarısından etibarən başlamış böyük oğuz köçündən sonrakı dövrdə ərəbdilli müəlliflər Azərbaycan əhalisi haqqında qədər fərqli məlumat verirlər. Məsələn XIII əsrin əvvəllərində Azərbaycanı işğal etmiş Cəlaləddin Xarəzmşahın katibi Şihabəddin

---

[81] Sözügedən dövrdə Azərbaycanda ərəbcə danışanlar xilafət dövründə köçərək Azərbaycanda məskunlaşmış ərəb qəbilələri idi. Hansı qəbilənin hansı əyalət və şəhərdə məskunlaşmış olduğu haqda dəqiq məlumat əldə etmək mümkündür. Mənbələrdə bu haqda kifayət qədər təfərrüatlı və dəqiq məlumat verilir. Bu haqda ətraflı məlumat üçün bax: İbn əl-Fəqih, *Kitab əl-Buldan*, 582; Athamina, "Emevî Hilafeti Döneminde Arap İskanı"; Bünyadov, *Azərbaycan VII-IX əsrlərdə*, 218-219.

[82] Arranın mərkəzi Bərdə və ətraf bölgələrdə danışılan və orta əsr ərəb müəlliflərin "əl-arraniyyə" adlandırdıqları dil qədim alban dili idi.

[83] İstəxri, *əl-Məsalik vəl-Məmalik*, 191-192. (ولسان اذربيجان و ارمينيّة و الرّان الفارسيّة و العربيّة غير انّ اهل دبيل و حواليها يتكلّمون بالارمينيّة ونواحي برذعة الرانيّة, ولهم جبال يسمُّونها القَبْق وتحيط بها السنة مختلفة كثيرة للكفّار)

[84] İbn Hövqəl, *Surət ər-Ərz*, 299. (فأما لسان اهل اذربيجان و اكثر اهل ارمينيه فالفارسية تجمعهم, والعربية بينهم مستعملة, وقلّمن بها ممن يتكلم بالفارسية لا يفهم بالعربية ويفصح بها من التجار و ارباب الضياع, ويتكلم اهل برذعه باالرّانيّة).

[85] Yaqut əl-Həməvi, *Mu’cəm əl-Buldan*, I/128. (ولهم لغة يقول لها الآذرية, لا يَفهمُها غيرهم)

[86] Məs’udi, *ət-Tənbih vəl-İşraf*, 68. (كالفهلوية والدرية والآذرية وغيرها من لغات الفرس)

[87] Əhməd ibn Əbi Yaqub əl-Yaqubi, *Kitab əl-Buldan*, (nəşr: M. Ə. Zənavi), Beyrut (tarixsiz), 80. (واهل مدن اذربيجان و كورها اخلاط من العجم الاذريه و الجاودانيه القدم اصحاب مدينه البذّ). Müqayisə et: Axmad al-Yakubi, *Kniqa Stran*, (tərc. L. Semenova), Moskva 2011, 45. (*Жители городов Азербайджана и его областей представляют собою смешение персов ал-азариййа и ал-джавиданиййа, бывших правителей города ал-Базз.*).

[88] Mövzu ilə bağlı araşdırma aparmış tədqiqatçılar da bu qənaətdədirlər ki, ərəbdilli mənbələrdə "əl-azəriyyə" adlandırılan bu dilin İran dil qrupuna aiddir. Məsələn bax: Əlisöhbət Sumbatzadə*, Azerbaydwantsı-Etnogenez i Formirovaniye Naroda*, Bakı 1990, 49; Sara Qasımova, *Azerbaydwan v III-VII vv.*, Bakı 1993, 43-44; Əhməd Kəsrəvi, *Azəri ya Zeban Bastane Azərbaycan*, Tehran 1925, 20-23. S. Qasımovanın fikrinə görə hal-hazırda Təbriz, Xalxal və Qəzvin ətrafında danışılan, iranlıların "tati" (tatca) adlandırdıqları xarzani, kəringani, xalxali kimi ləhcələr qədim azəri dilinin davamıdır (*həmin əsər*, 40-41). Xətib Təbrizi (1030-1109) ilə ustadı, dilçi alim Əbul-Ə’la əl-Məərri arasında cərəyan etmiş hadisə XI əsrin sonu-XII əsrin əvvəllərində Azərbaycan əhalisinin azəri dilində danışdığına sübutdur. Xətib Təbrizi müəlliminin fenomenal hafizəyə sahib olduğu haqda xatirəsini danışarkən öz həmvətəni ilə "əl-azərbiyyə" dilində uzun-uzadı söhbət etdiyini deyir (وكلمتُهُ بلسانِ الأذربية شيئاً كثيراً). Dili anlamadığı halda mükaliməni olduğu kimi hafizəsinə həkk edib təkrarlaya bilmiş Əbul-Ə’la əl-Məərrinin "*bu hansı dildir?*" sualına Xətib Təbrizi "*bu Azərbaycan əhalisinin dilidir*" (هذا لسان أهل آذربيجان) deyə cavab vermişdir (Yaqut əl-Həməvi, *Mu’cəm əl-Udəba*, I/308). Qədim azəri dilinin XIV əsrdə də canlılığını qoruduğunu Həmdullah Mustəvfinin (öl. 1349) qeydlərindən anlaşılmaqdadır. Müəllif Quştəsfi (Kür deltası və civarı) vilayəti haqqında məlumat verərkən deyir ki, bu yerin əhalisi imam əş-Şafiinin məzhəbində olub Gilan dilinə yaxın olan Pəhləvi dialektində danışırlar (*Nuzhət əl-Qulub*, London 1919, 94).

ən-Nəsəvi Arranda və Muğanda oğuzların çoxluğunu təsvir etmək üçün belə yazır: "*əgər oradakı türkmənlər (oğuzlar) bir yerə toplansalar, bu qarışqa sürüsü və çəyirtgə buluduna bənzəyər*"[89]. Yenə XIII əsrdə qələmə alınmış coğrafiyaya dair "Əcaib əd-Dünya" müəllifi isə Arran haqqında bunları yazır: "*Türklərin bu qədər sıx yaşadığı başqa heç bir yer yoxdur. Deyirlər ki, orada 100 minə qədər türk süvarisi var*"[90]. Buraya qədər mənbələrdən etdiyimiz iqtibaslar və nəqllər xürrəmilərin mənşə etibarı ilə türk deyil əcəm olduqlarını söyləməyə imkan və əsas verir. Bunun əksini iddia edənlərin tez-tez müraciət etdikləri bir arqumenti burada çürütmək yerinə düşəcəkdir. Bu Ubeyd ibn Şəriyyə əl-Curhuminin (öl. 686) Əməvilərin ilk hökmdarı Müaviyə ibn Əbu Süfyan (661-680) arasında cərəyan etmiş söhbət zamanı Ubeydin Azərbaycanla bağlı ifadə etdiyi bir cümlədir. Bu söhbət Əbdulməlik ibn Hişamın (öl. 834) "Kitab ət-Tican fi Muluki Himyər" (*Himyər krallarının tacları haqqında kitab*) adlı əsərində qeyd olunur. Şəxslərin ölüm tarixlərinə diqqət yetirsək görəcəyik ki, müəllif ilə Ubeyd əl-Curhuminin görüşmüş olmaları mümkün deyil, çünki arada 150 ildən çox müddət var. İbn Hişam həmin kitabda yazdıqlarını Əsəd ibn Musadan, onun Əbi İdris ibn Sinandan, onun da ana tərəfdən babası Vəhb ibn Münəbbihdən (öl. 733) nəql etdiyini bildirir. Kitabın adından da məlum olduğu kimi kitabın mövzusu Azərbaycanın deyil Yəmənin qədim tarixdir. Müaviyə ibn Əbu Süfyan həmin vaxt artıq yaşı 150-ni keçmiş Ubeyddən qədim zamanlarda Yəməndə mövcud olmuş Himyər krallarının və onların ulu əcdadlarının tarixini dinləyirdi. Ubeydin mənsub olduğu Curhum qəbiləsinin İbrahim peyğəmbər (ə.s) tərəfindən Kə'bənin inşa edilməsindən sonra Yəməndən Hicaza köçdüyü və indiki Məkkə civarında məskunlaşdığı bilinməkdədir. Ubeyd də Müaviyəyə bunun haqqında danışırdı. Əsərin müəllifi İbn Hişamın "Curhumun hadisəsi, onun Yəməndən Hərama çıxıb gəlməsi" (حديث جرهم و خروجهم من اليمن الي الحرم) başlığı altında yazdığı 29 səhifəlik məlumatın içindən seçilmiş 2 cümlə tarixçilərimiz tərəfindən ana dilimizə müxtəlif cür tərcümə olunmuşdur. Akad. Z. Bünyadov Müaviyənin "*Türklər və Azərbaycan nə deməkdir?*" sualına Ubeydin cavabını "*Azərbaycan qədimdən türklərin yaşadığı ölkədir*" şəklində tərcümə etmişdir[91]. Prof. S. Əliyarlının tərtibatı və redaktəsi ilə nəşr olunmuş kitabda isə Müaviyə soruşur: "*Sən Allah, Azərbaycan (haqqında) ələqəniz, tələşınız və xatirəniz nədir?*". Ubeyd isə belə cavab verir: "*Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər*". S. Əliyarlı belə hesab etmişdir ki, Müaviyənin bu sualı verməyə məcbur edən planlaşdırdığı yeni yürüş ərəfəsində qoşununun Azərbaycanda qarşılaşa biləcəyi çətinlikləri düşünməsi idi[92]. İndi isə "Kitab ət-Ticanın" ərəbcə mətninə baxaq. Orada Ubeydin belə rəvayət etdiyi deyilir: "*Şimr ibn əl-Qəttaf ibn əl-Məntab ibn Amr ibn Zeyd ibn Ə'mlaq ibn Amr ibn Zu-Ənəs yüz minlik ordu ilə Azərbaycana daxil oldu. Döyüşərək çoxlu qətl törətdi və fəlakət toxumu səpdi. Sonra bunu iki daşa (abidəyə) yazdı. Hansı ki, indi də Azərbaycanda divardadır". Müaviyə dedi: "Allah üçün de, Azərbaycan nədir?" Ubeyd cavab verdi: "Ora türklərin torpaqlarından idi və onu (Şimri türklər) orada qarşıladılar?*"[93]. Bu qısa mətndə söhbətin hansı tarixi dövrdən getdiyi, hansı tarixi hadisələrin anlatılmağa çalışıldığı haqda akad. Z. Bünyadov müəllifi məlum olmayan, XII əsrə aid "Mucməl ət-Təvarix vəl-Qəsəs" adlı mənbəyə istinadən qısa məlumat verərək qeyd edir ki, söhbət Himyər hökmdarı Raişin hərbi-siyasi fəaliyyətindən gedir[94]. Lakin istər sıravi oxucu, istərsə də tarixçi üçün məsələ yenə də tam aydınlığa qovuşmamış olaraq qalır. "Mucməl ət-Təvarix vəl-Qəsəs" müəllifi Himyər kralı əl-Haris ər-Raişin Yəməndən indiki İraq torpaqlarına gəldiyini, buradan Hindəvana[95] gedib Azərbaycan torpaqlarına daxil olduğunu, burada Əfrasiyab və türklərlə

---

[89] Muhəmməd ibn Əhməd ən-Nəsəvi, *Siratu əs-Sultan Cəlaləddin Məngübərti*, (nəşr. Ə. Həmdi), Qahirə 1952, 356.

[90] Anonim, *Əcaib əd-Dünya*, (tərc. L. Smirova), Moskva 1993, 181.

[91] Bünyadov, *Azərbaycan VII-IX əsrlərdə*, 230.

[92] Süleyman Əliyarlı, *Azərbaycan Tarixi Üzrə Qaynaqlar*, Bakı 2007, 57. Müəllif nə üçün və nəyə əsasən belə bir qənaətə gəldiyini açıqlamır. Lakin biz Müaviyənin (661-680) hakimiyyəti illərində Azərbaycanın Əməvi xilafətinin tərkib hissəsi olduğunu, ələ keçirmək məqsədiylə oraya hər hansı bir yürüşün edilmədiyini bilirik.

[93] Əbu Muhəmməd Əbdulməlik ibn Hişam, *Kitab ət-Tican fi Muluki Himyər*, Səna (tarixsiz), 416. (... وبعث شمر بن القطاف في مائة ألف حتى دخل عليهم أذربيجان فقتل المقاتلة وسبى الذرية، ثم اقبل فكتب في حجرين أمر مسيرخ، فهما اليوم على جدار أذربيجان. قال معاوية: وما بال أذربيجان لله أنت؟ قال: له أنها كانت من ارض الترك واجتمعوا له)

[94] *Azərbaycan VII-IX əsrlərdə*, 230.

[95] Hindəvan bu gün İranın şərqi Azərbaycan ostanında, Xoy şəhəri yaxınlığında yerləşən kiçik bir qəsəbədir.

müharibə etdiyini qeyd edir[96]. İbn Cərir ət-Təbəri bu hadisə haqqında yazarkən Şimr ibn əl-Qəttafın Himyər kralı əl-Haris ər-Rayişin süvari ordusunun sərkərdəsi olduğunu bildirir. Müəllif qeyd edir ki, Şimr Azərbaycan ərazisindəki türklərin üzərinə getdi, ora (Azərbaycan) həmin günlərdə onların (türklərin) əlində idi[97]. İbn Hişamın Ubeyd əl-Curhuminin dilindən nəql etdiyi kimi Təbəri də yazır ki, bu hadisə iki daş abidənin üzərinə həkk edilimiş olaraq Azərbaycanda mövcuddur[98]. Əbu Hənifə əd-Dinəvəri (828-896) Yafəs ibn Nuhun (ə.s) soyundan olan Əfrasiyab ibn Təvzil ibn Türk haqqında məlumat verərkən onun öz kralına qalib gələrək torpaqlarını istila etdiyini qeyd edir[99]. Müəllif türk hökmdarı Əfrasiyabın İran hökmdarı Mənuçöhrü əsir alıb öldürtdüyünü və onun mülkünü istila etdiyini bildirir[100]. Bənzər məlumata İbn Quteybə əd-Dinəvərinin (öl. 889) əsərində də rast gəlirik[101]. Qeyd etmək lazımdır ki, bu hadisələrdə adları çəkilənlərin tamamına yaxını tarixi deyil mifoloji, əsatirvari şəxsiyyətlərdir. Bu əsatirlərin ilkin mənbəyi isə zərdüşti-məcusilərin qutsal kitabı Zənd-Avestadır. Abbasilərin ilk dövrlərində başlamış tərcümə fəaliyyətləri nəticəsində bir çox qədim İran mətnləri pəhləvicədən ərəbcəyə tərcümə olunmuşdu. Orta əsr ərəbdilli müəlliflər qədim İran tarixinə dair bu əsatirləri öz kitablarına daxil etmişdirlər. Burada sözügedən hökmdar Mənuçöhr pers mifologiyasında və Avestada adı çəkilən ilk İran xanədanı Pişdadilərin (پيشداديان) hökmdarlarından biridir. Əfrasiyab isə qədim türk hökmdar ailəsinin banisi sayılan Alp Ər Tunqadır. Avesta mətnlərində adı "Franqrasyan" olaraq qeyd edilən bu əfsanəvi hökmdarın adı pəhləvicə mətnlərdə "Firasyav" şəklində yazılmaqda idi. Ərəbdilli salnaməçilərin əsərlərinə isə "Əfrasiyab" şəklində düşmüşdür[102]. Əfsanəyə görə şah Mənuçöhrün ölümündən sonra Turan hökmdarı Pəşəng oğlu Əfrasiyabı (Alp Ər Tunqa) İran torpaqlarını tutmağa göndərmişdi. Əfrasiyab Mənuçöhrün oğlu Nodarı öldürərək 12 il İran mülkünü öz əlində tutmuşdu[103]. Mənbələr türk hökmdarı Əfrasiyab (Alp Ər Tunqa) ilə İran hökmdarı Keykavusun arasında şahzadə Siyavuşun qətlə yetirilməsi səbəbiylə uzun sürən qanlı müharibələrin baş verdiyini qeyd edirlər. Bu müharibələrdən birində məğlub olan Əfrasiyabın Azərbaycanda gizləndiyi, daha sonra yaxalandığı və Keykavusun əmri ilə Siyavuşa qisas olaraq Azərbaycanda qətl edildiyi bildirilir[104]. Akad. Zəki Vəlidi Toqan "Alp Ər Tunqa" dastanındakı hekayələrə istinad edərək Saka dövləti hökmdarı Alp Ər Tunqanın (Əfrasiyab) iranlılarla olan macəralarını anlatarkən onun Keyxosrov (Midiya hökmdarı Kiaksar e.ə. 625-585) tərəfindən məğlub edildikdən sonra Altay dağlarına getdiyini, daha sonra Azərbaycana etdiyi növbəti hərbi səfər vaxtı Keyxosrov tərəfindən yenidən məğlub edilərək öldürüldüyünü yazır[105]. Eyni məlumata Mirxondun (1433-1498) əsərində də rast gəlirik[106]. Oxumuş olanların xatırlayacaqları kimi Əbül-Qasım Firdovsi sözügedən hadisələri "Şahnamə"sində uzun-uzadı anlatmaqdadır. Mənbə məlumatlarının müqayisəli təhlilinə əsaslanaraq buraya qədər izah edilənlərdən anlaşıldığı kimi Müaviyə Azərbaycana edəcəyi növbəti hərbi səfərdə ordusunun qarşılaşacaqlarından ötürü əndişə duyduğu üçün Ubeyd ibn Şəriyyəyə Azərbaycan barədəki əlaqəsini, təlaşını və xatirələrini soruşmamış, Ubeyd də ona Azərbaycanın türklərin məskun olduqları, cəmləşdikləri məmləkət olduğunu söyləməmişdi. Ubeyd əl-Curhumi Himyər kralı əl-Haris ər-Raişin həmin vaxt Azərbaycanı ələ keçirmiş Alp Ər Tunqa (Əfrasiyab) ilə müharibəsi haqqında danışmışdı. Türkün tarixi uydurmaya, təhrifə ehtiyac duymayacaq qədər şanlı, xürrəmiliklə Babək zorla oraya daxil edilmədən də əzəmətli bir tarixdir.

---

96 *Mucəm ət-Təvarix vəl-Qəsəs*, 121.
97 *Tarix ər-Rusul vəl-Muluk*, I/383. (شمر بن العطاف, فدخل علي الترك أرض أذربيجان وهي في أيديهم يومئذ)
98 *Yenə orada*.
99 *Əxbar ət-Tival*, 5. (فراسياب بن توذل بن الترك بن يافث بن نوح فغلب علي ملكه أيضاً واستولي الي أرضه)
100 *Əxbar ət-Tival*, 11. (وقفا فراسياب أثر منوشهر حتي لحقه فقتله و استولي علي ملكه)
101 *əl-Məarif*, 630.
102 Varis Abdurrahman, "Tarihteki Efsanevi Turan Padişahı Alp Er Tunga Hakkında", **AÜTAD,** XXII/35, (2004), 2-8.
103 *Yenə orada*.
104 Təbəri, *Tarix ər-Rusul vəl-Muluk*, I/515; İbn əl-Əsir, *əl-Kamil fit-Tarix*, I/239; Dinəvəri, *Əxbar ət-Tival*, 15. Əbu Bəkr Muhəmməd ən-Nərşəxi öz əsərində Əfrasiyabın (Alp Ər Tunqa) Buxarada öldürüldüyünü və məzarının da orada olduğunu qeyd edir (*Tarixi-Buxara*, 26)
105 Zeki Velidi Togan, *Umumî Türk Tarihi'ne Giriş*, İstanbul 1981, 36.
106 Muhəmməd ibn Xondşah Mirxond, *History of the Early Kings of Persia*, (nəşr. D. Shea), London 1832, 196-201.

# Babəkin etnik kimliyi

Mövzu xeyli uzamış olsa da, Babəkin etnik mənşəyi mövzusuna da toxunmadan keçmək olmaz deyə düşünürük. Bu mövzuda daha dəqiq və səhih məlumat ala biləcəyimiz Vaqid ibn Amr ət-Təmiminin “Əxbaru Babək” adlı kitabı təəssüf ki, dövrümüzə qədər gəlib çatmayıb. Belə bir kitabın mövcudluğunu isə oradan iqtibas edən İbn ən-Nədimin (909-995) “əl-Fihrist”indən öyrənirik. Peşəsi kitabçılıq (əl-vərraq) olan İbn ən-Nədim bu kitab və ehtiva etdiyi məlumatlarla tanış olmaq fürsəti əldə etmişdi. Mütəhhər əl-Məqdisi (öl. 966) də Babək və Azərbaycan xürrəmiləri haqqında nəql etdiyi məlumatları Vaqid ət-Təmiminin əsərinə istinadən qələmə almışdır. Təəssüf ki, Vaqid ibn Amr ət-Təmiminin həyatı və elmi fəaliyyəti haqqında bizə heç bir şey məlum deyil. Onun yaşadığı dövr və sözügedən əsəri barədə mənbələrdə məlumata rast gəlinmir. Babəkin atasının kimliyi haqqında mənbələrdə, ikisi bənzər, biri fərqli olmaqla üç cür məlumat mövcuddur. Fərqli olan İbn Cərir ət-Təbərinin qeyd etdiyi məlumatdır. Orada Babəkin atasının Mətər (مَطَر) adlı bir quldur, oğru (الصعاليك) olduğu deyilir. Müəllif yazır ki, Mətər Allaha and içərək Babəkin atası olduğunu Əli ibn Murr adlı şəxsə özü söyləmişdir. Əli ibn Murr bunun necə olduğunu soruşanda Mətər bir müddət (Təbriz hakimi) İbn Rəvvadın yanında qaldığını, Barumiyyə (və ya Bərumənd) adlı tək gözlü bir qadının onun üçün qulluqçuluq edib paltarlarını yuduğunu, bir gün özünü saxlaya bilməyib qadınla cinsi əlaqəyə girdiyini, sonra qadından övladının dünyaya gəldiyini öyrəndiyini demişdi[107]. Bir qədər qəribəlik ərz edən bu məlumata Təbəridən başqa heç bir müəllifin əsərində rast gəlinmir. Qəribəliyi də ondadır ki, Təbriz hakimi İbn Rəvvadın bir quldurla ortaq nə işi ola bilərdi ki, onu qonaq edib xidmətinə bir qulluçu da vermiş olsun. Bununla belə qeyd edim ki, Babəkin anası Barumənding bir müddət İbn Rəvvadın yanında qulluqçuluq etdiyi digər mənbələrdə də qeyd olunur. Lakin bu, Babəkin dünyaya gəlməsindən sonra baş vermişdi. Əgər İbn Cərir ət-Təbərinin rəvayətinin doğru olduğunu ehtimal etsək güman ki, Mətər Babəkin yox onun ana bir qardaşının atası olmuşdu. Niyə belə bir qənaətə gəldiyimiz aşağıdakı məlumatlardan sonra daha yaxşı anlaşılacaq. İbn ən-Nədimin bildirdiyinə görə Babəkin atası Mədainli bir adam idi. Mədain Sasani imperiyasının indiki İraq ərazisində yerləşən paytaxtı idi. Səyyar yağ satıcısı olan bu adam Azərbaycanın Meyməd vilayətinin[108] Bilalabad kəndinə gəlir və burada tək gözlü qadınla tanış olur. Kəndin qadınları su aparmaq üçün getdikləri bulağın yaxınlığında şərab içib nəbati dilində nəğmə oxuyan adamla qadını yaxalayırlar. Kişi qaçsa da onlar qadını yaxalayıb kəndə gətirir və rüsvay edirlər. Bu hadisədən sonra Mədainli yağ satan adam qadını atasından istəyir. Onların bu evliliyindən Babək dünyaya gəlir. Yağ satan adam bir müddət sonra Savalan dağı civarında bıçaqlı hücuma uğrayaraq yaralanır və ölür. Babəkin anası qulluqçuluq etməyə məcbur olur. Babəkin özü də əvvəlcə Sərabda Şibl əl-Əzdinin mal-qarasına çobanlıq edir. Sonra isə Təbrizə gedərək İbn Rəvvadın yanında işləyir[109]. Mütəhhər əl-Məqdisi Babəkin atasının Abdullah adlı bir əs-Səvad nəbatisi olduğunu qeyd edir[110]. Eyni məlumatı əs-Səfədi[111] və İbn Şakir[112] də Babəkin zinadan dünyaya gəldiyini (إنه كان ولد زناء) vurğulayaraq təkrarlamaqdadır[113]. İbn Cərir ət-Təbəri Babəkin Abdullah və Müaviyə adlı iki qardaşının olduğunu bildirir[114]. Əgər mənbələrdə deyildiyi kimi Babəkin atası Abdullah oğlunun dünyaya gəlişindən qısa müddət sonar öldürülmüşdüsə (akad. Z. Bünyadov onun bir il sonra öldüyünü yazır[115]) bəs qardaşları Müaviyə ilə Abdullahın atası kim idi? Burada Təbərinin qeyd etdiyi quldur Mətər və onun İbn Rəvvadın evindəki qulluqçu ilə macərasına qayıtmaq istəyirik. Ola bilsin ki, Babəkin qardaşlarından birinin və ya hər ikisinin atası Mətər olmuşdu. Əgər bu məlumat doğru deyilsə belə Babəklə qardaşlarının sadəcə ana tərəfdən doğmalıqları olmalıdır, ata tərəfdən deyil. Müaviyə ilə Abdullahın Babəkdən böyükmü, kiçikmi olduqlarına dair də hər hansı bir məlmuat mövcud deyil. İndi isə Babəkin atası sayılan Abdullahın

---

[107] Təbəri, *Tarix ər-Rusul vəl-Muluk*, IX/54.
[108] Meyməd vilayəti indiki Əhər vilayətinin əhatə etdiyi ərazidə idi.
[109] İbn ən-Nədim, *əl-Fihrist*, 406.
[110] *Kitab əl-Bəd'i vət-Tarix*, VI/114-115.
[111] *Kitab əl-Vafi*, X/38-39.
[112] *Uyun ət-Təvarix*, 80.
[113] Şəmsəddin əz-Zəhəbi ət-Türmani də Babəkin zinadan dünyaya gəldiyini bildirir (*Siyəru Ə'lam ən-Nübəla*, X/296)
[114] *Tarix ər-Rusul vəl-Muluk*, IX/46-47.
[115] *Azərbaycan VII-IX əsrlərdə*, 299.

etnik mənsubiyyəti məsələsinə qayıdaq. Yuxarıda gördüyümüz kimi İbn ən-Nədim Abdullahın Baruməndlə bulaq başında şərab içib keflləndiyi vaxt nəbati ləhcəsində nəğmə söylədiyini yazır. Əl-Məqdisi, əs-Səfədi və İbn Şakir isə Abdullahın Nəbt əs-Səvadlı olduğunu qeyd edirlər[116]. Əs-Səvad İraqın cənubundakı məhsuldar qara torpaq ərazilərə verilən addır. "Qaralar" mənasını ifadə edən "səvad" adını da bu səbəbdən almışdır. Bu gün bu ərazi "şətt əl-ərəb" (شط العرب) adlanır. Nəbaticə isə sami dillərinə aid olan arami dilinin dialektlərindən biridir. Əgər iddia edildiyi kimi Babəkin atası həqiqətən türk olsaydı o, nəbati dilində deyil, öz ana dilində, yəni türkcə nəğmə oxumalı idi. Heç bir mənbədə Babəkin atasının türk mənşəli olduğuna dair bir tək kəlmə belə yoxdur. Lakin qeyri-türk olduğunu söyləməyə əsas verən kifayət qədər məlumat mövcuddur.

Diqqət çəkən bir digər məqam da Babəkin qardaşlarının adlarıdır. Abdullah və Müaviyə müsəlman ərəblərə xas adlardır. Əli əl-Məs'udi Babəkin öz adının Həsən, qardaşının adının isə Abdullah olduğunu bildirir[117]. O, "Babək"i ləqəb olaraq götürmüşdü[118]. Babəkin anasının adı ərəbdilli mənbələrdə bir-birinə bənzər şəkildə Bərumənd, Bərumiyyə, Rumiyyə olaraq qeyd olunur[119]. Onun dünyaya gəldiyi kəndin adının da "Bilalabad" olduğunu nəzərə alaraq Babəkin azərbaycanlı müsəlman mühitində doğulub böyüdüyünü söyləməyə əsas verir. "Həsən", "Abdullah, "Müaviyə", "Bilal" adları müsəlman mühitinə xas xüsusi adlardır. Qeyri-müsəlmanların öz övladlarını və yaşayış məntəqələrini bu adlarla adlandırmış olması uzaq ehtimaldır. Bundan başqa mənbələr Babəkin anasının "uluc" olduğunu qeyd edirlər. Şəmsəddin əz-Zəhəbi[120], İbn Aybək əs-Səfədi[121], İbn Şakir əl-Kutubi[122] bu qadının ulucdan olduğunu yazırlar. İbn Cərir ət-Təbəri isə onun İbn Rəvvadın ulucundan olduğunu bildirir[123]. Xilafət dövründə qeyri-ərəb müsəlman kəndlilərin kasıb, fəqir olanları "ilca" (cəmi şəklində "uluc") adlanırdı[124]. Uşaqlıq və yeniyetməlik çağlarını Sərabda Şibl əl-Əzdinin mal-qarasını otarmaqla keçirən Həsən (Babək) buradakı qulamlardan tənbur (simli musiqi aləti) çalmağı öyrənir. Daha sonra Təbrizə gedərək Muhəmməd ibn Rəvvad əl-Əzdinin xidmətində çalışan Həsən (Babək) iki il sonra öz kəndlərinə, anasının yanına qayıdır. Bu vaxt o, artıq 18 yaşlı gənc idi[125]. Fəqirlik və ehtiyac içində keçən uşaqlı və yeniyetməlik illəri onun şəxsiyyətinin, xarakterinin formalaşmasında əlbəttə ki, mühüm rol oynamışdır. Anası Yəmən mənşəli əzdilərin təsərrüfatında qulluqçuluq və ulucluq edərək onu və qardaşlarını böyütmüşdü. Özünün də öz vətənində eyni dinə, lakin fərqli etnik mənşəyə mənsub gəlmələrin, ərəb feodalların təsərrüfatında ulucluq etmək məcburiyyətində qalmış olmasını ələlxüsus vurğulamaq gərək. Ərəblərə və onların simasında İslama qarşı pataloji nifrət hissinin onun zehnində özünə yer etməsində bu amilin əhəmiyyəti olduğunu düşünürük.

---

[116] Səfədi, *Kitab əl-Vafi*, X/38-39; İbn Şakir, *Uyun ət-Təvarix*, 80. (رجل من نبط السواد يقال له عبد الله)
[117] *Muruc əz-Zəhəb*, IV/48. (وكان اسم بابك الحسن, واسم أخيه عبد الله).
[118] Mümkündür ki, Sasani imperiyasının banisi Ərdəşir Babəkanın (Papakan) şərəfinə bu ləqəbini mənimsəmişdi. Çünki Babək özünü hökmdar hesab edirdi, hərçənd irəlidə görəcəyimiz kimi müasirləri bu mövzuda fərqli düşünürdülər.
P. Crone bunu Ərdəşir Babəkanın adı ilə əlaqələndirir (*The Nativist Prophets,* 66)
[119] Məsələn, bu qadının adını Təbəri "Bərumənd" (*Tarix ər-Rusul vəl-Muluk*, IX/54), İbn Şakir "Bərumiyyə" (*Uyun ət-Təvarix*, 80), əz-Zəhəbi "Rumiyyə" şəklində qeyd etmişdirlər (*Siyəru Ə'lam ən-Nübəla*, X/296). Bunlardan Rumiyyə (روميّة) ərəb dilində "Bizanslı, yunan qadın" qadın mənasını ifadə edir. Lakin bu yanlış görünür ərəbdilli müəlliflərin yaxud müstənsixlərin ərəbcə olmayan ada bələd olmamaları səbəbiyə yazılışda yol verdikləri xətadan irəli gəlirmişdir.
[120] *Siyəru Ə'lam ən-Nübəla*, X/296. (وكانت أمه العوراء, يقول لها, رومية العلجة).
[121] *əl-Vafi bil-Vəfayat*, X/39. (أمه العوراء تعرف برومية العلجة)
[122] *Uyun ət-Təvarix*, 80. (أمه العوراء تعرف برومية العلجة)
[123] *Tarix ər-Rusul vəl-Muluk, IX/54*. (وكانت أمه برومند العوراء من عُلوج ابن روّاد).
[124] Ümumən qeyri-ərəb müsəlmanlar "məvla" (cəm halında "məvali") adlanırdılar. Məvali kəndlilər "dehqanlar" və "uluc" olaraq iki qismə ayrılırdı. Dehqanlar qeyri-ərəb müsəlman torpaq ağaları, feodallar idilər. Uluc isə sonralar "rəncbər" adlanacaq, əmlaksız və torpaqsız kəndlilərə deyilirdi. Bu haqda irəlidə daha ətraflı məlumat veriləcəkdir.
[125] İbn ən-Nədim, *əl-Fihrist*, 406.

## Babəkin Xürrəmi üsyanına rəhbərlik etməsi

Azərbaycanın Bəzz[126] bölgəsindəki xürrəmi icmasının başçısı Şəhrək oğlu Cavidanla görüşü Bilalabadlı Həsənin (Babək) həyatında dönüm nöqtəsi olmuşdu. Apardığı qoyun sürüsünü Zəncan bazarında satıb geri qayıdarkən qar fırtınasına düşən Cavidan yolu üstündəki Bilalabadda qalmalı olur. Bəruməndin evinə düşən Cavidan bu dul qadının gənc oğlu ilə söhbət edərkən səlis olmayan danışığına, kobud və xəbis xarakterinə rəğmən onun cəsur və diribaş olduğunu anlayır[127]. Özünün kim olduğunu söyləyən Cavidan gəncin anasından oğlunu özü ilə aparmağa izn verməsini istəyir və bunu müqabilində ayda 50 dirhəm göndərməyi təklif edir. Beləcə Bilalabadlı Həsən Cavidanla birlikdə Bəzzə yollanır[128]. Verilən məlumatlardan burada onun dini inancını və adını dəyişdiyini aydın olur. İbn ən-Nədimin Cavidanı Babəkin ustadı adlandırması onun xürrəmi təlimini şəxsən Cavidandan öyrəndiyini söyləməyə əsas verir[129]. Cavidan xürrəmilərə liderlik uğrunda Əbu İmran[130] adlı şəxslə daima müharibə halında idi. Belə döyüşlərdən birində rəqibini öldürən Cavidan ağır yaralandığı üçün üç gün sonra özü də həyata gözlərini yumur[131]. Bu hadisə Babəkin həyatında ikinci dönüm nöqtəsi olur. Babəklə yaxın münasibəti olan Cavidanın qadını[132] ərinin ölümündən sonra onun yaxın ətrafına söylədiyi yalanla Babəkin ulduzunu parlatmışdı. Qadın xürrəmiləri toplayaraq onlara Cavidanın öldüyünü, lakin ölümündən əvvəl vəsiyyət etdiyini bildirmişdi. Uydurma vəsiyyət isə bundan ibarət idi ki, güya Cavidan həmin gecə öləcəyini bildiyi üçün arvadına ölümündən sonra ruhunun bədənindən çıxıb Babəkin bədəninə girəcəyini, onun ruhu ilə bütünləşəcəyini, Babəkin zorakı müstəbidləri məhv edərək məzdəkiliyi yenidən izzətləndirib dirçəldəcəyini söyləmişdi. Cavidanın qadını tərəfindən uydurulmuş bu vəsiyyəti qəbul edən xürrəmilər Babəkə sədaqət andı içmişdilər[133]. Belə görünür ki, xürrəmiləri buna inandırmaq elə də çətin olmamışdı. Zira maniçilik və məzdəkilikdən hülul, tənasüx və ric'ət kimi inancları miras almış olan xürrəmi etiqadına görə Tanrı insanın bədəninə girərək onunla bütünləşə, onda həll (hülul)[134] ola bilir, ruhlar bir bədəndən çıxıb (nüsxələnib) digər bir insanın və ya heyvanın bədəninə girə bilir (tənasüx), bəzi insanlar isə öldükdən sonra yenidən dünya həyatına ric'ət edə, qayıda bilirdilər.

Mə'mun hakimiyyətə gəldikdən sonra Tahir ibn Muhəmməd əs-Sən'anini Azərbaycan və Albaniya valisi təyin etmişdi. Varsanda[135] yeni valini xilafətin Albaniyadakı əyalət qüvvələri, vəzifəsindən azad edilmiş əvvəlki vali İshaq ibn Süleyman, Ömər və Əbdurrəhman adlı əmirlər, Arran patriki və digər iri alban feodalları[136] qarşılamışdılar. Onlar yeni valinin qarşısında xəlifə Mə'muna bey'ət

---

[126] Araz çayından cənubda, güney Azərbaycanın Qarabağa həmsərhəd olan bu dağlıq bölgəsinin adı bəzi mənbələrdə "əl-Bəzz" (البذّ) (Yaqut əl-Həməvi, *Mu'cəm əl-Buldan*, I/361; Əbu Zəkəriyya əl-Əzdi, *Tarix əl-Məvsil*, 602), bəzilərində isə "əl-Bəzzeyn" (البذّين), yəni "iki Bəzz" şəklində qeyd olunur (məsələn, əl-Məs'udi, *Muruc əz-Zəhəb*, IV/25). "əl-Bəzz" həm də Babəkilərin mərkəzi olan qala-şəhərin adı idi (Yaqubi, *Kitab əl-Buldan*, 80).

[127] İbn ən-Nədim, *əl-Fihrist*, 407. (وخاطبه وناطقه فوجده على رداءة حاله وتعقد لسانه بالاعجمية فهما ورآه خبيثاً شهماً)

[128] İbn ən-Nədim, *əl-Fihrist*, 407.

[129] İbn ən-Nədim, *əl-Fihrist*, 407. (فان جاويدان, هو استاد بابك)

[130] Bəzi mənbələrdə bu şəxsin adının İmran olduğu qeyd edilir (məsələn, əs-Səfədi, *əl-Vafi bil-Vəfayat*, X/39)

[131] Yenə orada.

[132] Mənəbələrdə bu eşq macərası fərqli sözlərlə ifadə edilir. Mütəhhər əl-Məqdisi Cavidanın qadınının Babəkə meyli olduğunu yazarkən (فمالت اليه أمرأةُ جاويدان) *Kitab əl-Bəd'i vət-Tarix*, VI/115, İbn ən-Nədim qadının Babəkə aşiq olduğunu qeyd edir (وكانت امرأة جاويدان تتعشق بابكا) *Kitab əl-Fihrist*, 407. İbn Aybək əs-Səfədi isə Babəkin Cavidanın avradına aşiq olduğunu bildirir (فعشقته أمرأته) *əl-Vafi bil-Vəfayat*, X/39.

[133] İbn ən-Nədim, *əl-Fihrist*, 407 (ويقتل الجبابرة ويرد المزدكية ويعز به ذليلكم ويرتفع به); Məqdisi, *Kitab əl-Bəd'i vət-Tarix*, VI/115-116.

[134] Hinduizmin baş tanrısı Vişnanın 10 müxtəlif zahiri görkəmdə (avatar) yer üzündə görünə bildiyinə inanılır. Qədim Hindistan mənşəli dinlərdəki "avatar" inancının zərdüşti-məcusiliyə uyğunlaşdırılmış versiyası yunan fəlsəfəsində özünə yer edə bildiyi kimi oradan da xristianlığa keçmişdi. Tanrılaşmış insan yaxud insanlaşmış tanrı, təslis (üçlü birlik) kimi inancların mənşəyində bu etiqad dayanır. Bu inanış sonrakı əsrlərdə "hululiyyə" adı ilə özünü İslama nisbət edən bir çox firqə və cərəyanlarda fərqli şəkildə təzahür etmişdir. İslam dinində bu inanc qəti surətdə rədd edilir. Qur'anın Şura surəsi 11-ci ayəsində deyilir: "*Onun (Allahın) heç bir bənzəri yoxdur*".

[135] Ərəbdilli müəlliflər Araz çayı kənarında yerləşən Varsanın Beyləqandan daha böyük şəhər olduğunu və Əməvilərdən Mərvan ibn Muhəmməd tərəfindən inşa etdirilmiş möhkəm qala divarları ilə əhatə olunduğunu qeyd edirlər. Daha ətraflı məlumat üçün bax: Nəsirov, *Orta əsrlərdə yaşamış Azərbaycanlı alimlər*, 74.

[136] (بطريق الرّان و جماعة من البطارقة)

etmişdilər. Varsandan Bərdəyə yollanan yeni valini burada böyük izdihamla Arran amili Zuheyr ibn Sinan ət-Təmimi qarşılamışdı. Vəzifəsinin icrasına başlayan Tahir əs-Sən'ani sabiq vali İsqah ibn Süleymanı həbs edərək Mə'munun hüzuruna göndərmişdi[137]. Bu hadisədən bir neçə gün sonra vəzifəsindən azad edilmiş digər biri, əmir Əbdulməlik ibn əl-Həccaf əs-Suləmi Beyləqan əhalisinin dəstəyi ilə qiyam qaldırmışdı. O, vali Tahir əs-Sən'anini Bərdə şəhərində mühasirəyə almış və mühasirə xəlifənin Süleyman ibn Əhməd əl-Haşiminin başçılığı altında mərkəzdən göndərdiyi qüvvələr gələnədək bir neçə ay davam etmişdi. Əbdulməlik əs-Süləmi aman diləyərək təslim olmuş və ölkədən çıxarılmışdı. Mə'mun bu hadisədən sonra Tahir əs-Sən'anini Arran valiliyindən azad edərək onun yerinə Hərsəmə ibn Ə'yanın oğlu Hatimi göndərmişdi. Lakin Hatim ibn Hərsəmənin valiliyi dövründə də Azərbaycanın şimalında vəziyyət qarışıq olaraq qalmağa davam etmişdi. Bu dəfə Arrandakı mu'təzilə məzhəbi mənsubları ilə hədis əhli[138] arasında ziddiyət dərinləşmiş, iş silahlı toqquşmaya qədər böyümüş və hər iki tərəfdən də ölənlər olmuşdu. Hatim ibn Hərsəmə tərəfləri sakitləşdirib barışdıra bilmişdi[139]. Lakin Hatim atası, Abbasilərə sədaqətlə xidmət etmiş Hərsəmə ibn Ə'yənin həbs edildiyi Mərv zindanında öldürülməsinin (816) intiqamını xəyanətlə almağa çalışmışdı. O, valilik etdiyi Arranın iri xristian feodalları və Babəklə gizli əlaqə quraraq onlarla məktublaşmış və onları qiyama təşviq etmişdi[140].

Mə'munun Xorasandan xilafəti idarə etməyə çalışdığı, Bağdadda isə xaos və qeyri-müəyyənliyin hökm sürdüyü h. 201-ci (816-817) ili Babək qiyama başlamaq üçün əlverişli vaxt olaraq seçmişdi. Həmin il Mə'mun Əli ər-Rzanı özünün vəliəhdi elan etmiş, Bağdad əhalisi isə buna etiraz olaraq İbrahim ibn əl-Mehdiyə bey'ət etmişdilər. Həmin il yuxarıda qeyd etdiyimiz kimi əhalisi məcusilərdən ibarət olan Təbəristan və Deyləm də xilafət ordusu tərəfindən ələ keçirilmişdi. Güman ki, buradan çox sayıda məcusi ətraf bölgələrə qaçmaq məcburiyyətində qalmışdı. Bu faktorun Azərbaycan xürrəmilərinin canlı qüvvə baxımından güclənməsinə təsir etdiyini ehtimal etmək olar. Xürrəmiləri silahlandıran Babək onlara öz yaşayış məntəqələrinə qayıdıb şərtləşdikləri günə qədər gözləməyi əmr etmişdi[141]. Şərtləşdikləri günün gecəsi xürrəmilər müsəlman əhaliyə hücum edərək qadın, qoca, uşaq demədən qətlə yetirmişdilər. Bu qətliam Azərbaycanın müsəlman əhalisi arasında dəhşətli bir qorxu və təşviş meydana gətirmişdi[142]. Qeyd etmək lazımdır ki, xürrəmilərin qətliama uğratdıqları bu insanlar ərəblər deyil, öz müsəlman soydaşları idilər. Bu Azərbaycan xürrəmilərini ilk qiyamı deyildi. H. 192 (807-808) ildə Azərbaycanda xürrəmilərin qaldırdıqları, Rey, İsfəhan, Həmədan və İranın digər şəhələrindəki məcusilərin də dəstək verdikləri qiyamda 100 mindən artıq silahlı qiyamçı iştirak etmişdi. Harun ər-Rəşidin Abdullah ibn Malik və Əbu Duləf əl-İclinin başçılığı altında göndərdiyi ordu qiyamçıları məğlub edərək qiyamı yatırmışdı[143]. Həmin vaxt xilafətdə siyasi sabitlik mövcud olduğu üçün qiyama dərhal müdaxilə edilə bilmişdi. Lakin Babəkin

137 Yaqubi, *Tarix*, II/418-419.

138 Əhməd əl-Yaqubinin mu'təzilə mənsubları ilə təəssübkeş camaat arasında meydana gəldiyini bildirdiyi bu hadisəni (وقد وقعت بين المعتزلة والجماعة العصبية) mənbənin təhqiqatçısı və naşiri Əbduləmir Məhna şərh edərkən yazır ki, burada sözügedən "təəssübkeş camaat" Arrandakı əhli-sünnədir (*Tarix*, II/419). Mövzuya vaqif olmayanların zənn etdiyi kimi "ifrat millətçi xürrəmilər" deyil. Dövrün tədqiqatçıları Abbasi xəlifələrindən Mə'mun, Mu'təsim və Vasiq dövrünin hədis (sünnə) əhli alimləri ilə mu'təzilə arasında teoloji mövzularda gərgin mübarizə şəraitində keçdiyini bilirlər. Bir qədər aşağıda, "mihnə" başlığı altında bu mövzuya ətraflı yer vermişik. Əhməd əl-Yaqubinin bu qeydindən həmçinin bu aydın olur ki, bu mübarizə və münaqişə sadəcə Bağdad və İraq mühiti ilə məhdudlaşmamış, əyalətlərdə də kəskin şəkildə özünü büruzə vermişdi. Sözügedən dövrdə Azərbaycan hədis (sünnə) əhlinin mövqeyinin xeyli güclü olduğu ölkələrdən idi. X əsr müəllifi Şəmsəddin əl-Məqdisi Azərbaycan və Arran əhalisi haqqında məlmuat verərkən "*onların (Azərbaycan əhalisinin) məzhəbi hədis əhli Hənbəlilərinki ilə eynidir, sadəcə Dəbildə Əbu Hənifənin məzhəbi üstünlük təşkil edir*" (ومذاهبهم مستقيمة إلا أن أهل الحديث حنابلة والغالب بدبيل مذهب أبي حنيفة رحمه الله) deyə qeyd etmişdir (bax: *Əhsən ət-Təqasim*, 378-379.

139 Yaqubi, *Tarix*, II/418-419.

140 Yaqubi, *Tarix*, II/419; İbn Quteybə, *əl-Məarif*, 389; Həddarə, *əl-Mə'mun,* 84. Əhməd əl-Yaqubinin bildirdiyinə görə Hatim ibn Hərsəmə Babəkə yazdığı məktubda Mə'mun haqqında alçaldıcı ifadələr işlətmişdi. İbn Quteybə əd-Dinəvəri isə Babəkin qiyama qalxmasının əsas səbəbkarı kimi Hatim ibn Hərsəməni göstərir.

141 Məqdisi, *Kitab əl-Bəd'i vət-Tarix*, VI/116; Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/556; İbn əl-*Əsir*, *əl-Kamil*, VI/284.

142 Məqdisi, *Kitab əl-Bəd'i vət-Tarix*, VI/116.

143 Təbəri, *Tarix*, XII/5363; İbn əl-Əsir, *əl-Kamil*, VI/187; Nizamülmük, *Siyasətnamə*, 158; Bünyadov, *Azərbaycan VII-IX əsrlərdə*, 301.

liderliyində başlamış xürrəmi qiyamına xilafət daxilindəki xaos və ikihakimiyyətlilik səbəbiylə çevik reaksiya verilə bilməmişdi. Qiyamçılara qarşı Yəhya bin Muazın komandanlığı altında ilk nizami ordu üç il sonra h. 204-cü (819-820) ildə göndərilmişdi. Lakin Yəhya ibn Muaz mühim bir hərbi uğur qazana bilməmişdi[144]. Mə'mun h. 205-ci (820-821) ildə Yəhya ibn Muazı əl-Cəzirə valisi təyin edərək onun yerinə İsa ibn Muhəmməd ibn Əbi Xalidi Azərbaycan və Arrana göndərmişdi. İsa ibn Muhəmməd h. 206-ci (821-822) ildə Babək qarşısında ağır məğlubiyyətə uğradığı[145] üçün xürrəmilərə qarşı hərbi əməliyyatlara rəhbərlik işi h. 207-ci (822-823) ildə əmir Əli ibn Hişama həvalə edilmişdi. H. 209-cu (824-825) ildə isə İsa ibn Muhəmməd vəzifəsindən azad edilmiş, onun yerinə Zureyq ləqəbi ilə tanınan Əli ibn Sədəqə[146] Azərbaycan və Arran valiliyinə təyin edilmişdi. Əli ibn Sədəqə Urmiyə şəhərini ələ keçirmiş qiyamçılarla vuruşaraq şəhəri ələ keçirə bilmişdi[147]. Əli ibn Sədəqə qiyamçı xürrəmilərə qarşı hərbi əməliyyatlara komandanlıq işini əmir Əhməd ibn Cüneyd[148] əl-İskafiyə həvalə etmişdi. Könüllü olaraq xürrəmilərə qarşı səfərbər olmaları üçün Mosul və ətrafındakı ərəb qəbilələrinə xəbər göndərən Əhməd ibn Cuneydin bu çağırışından sonra minlərlə könüllü döyüşçü toplanmışdı[149]. Əhməd ibn Cüneyd bir müddət Azərbaycanı tərk edib Bağdada getmiş, geri qayıdarkən xürrəmilər tərəfindən pusquya düşürülərək əsir alınmışdı. Xəlifə Mə'mun bu hadisədən sonra Əli ibn Sədəqəni[150] vəzifəsindən azad edib İbrahim ibn Leys ət-Tuceybinin h. 209-cu (824-825) ilin sonlarında Azərbaycan valisi təyin etmişdi[151].

Yerli mənbələrin verdiyi məlumatlar 820-ci illərin sonuna doğru cənubi Qafqaz uğrunda Babək və xilafət arasında qızğın mübarizə getdiyini deməyə əsas verir. Arran və buradakı alban zadəganları Babəkə öz silahlı dəstələrini ərzaq və qışlaqla təmin etmək üçün lazım idi[152]. Babəkin ərəblər qarşısında uğur qazanmış olması Arrandakı xristian hakimlərin ona meyl etməsinə səbəb olmuşdu. Onlar ərəblərə və öz təbəələrinin qaldırdıqları qiyamlara qarşı xürrəmilərin silahlı qüvvələrindən istifadə edirdilər. 827-ci ildə Ərməniyyədəki əmirlərdən Səvadə ibn Əbdulhəmid əl-Cəhhafinin Sünikə (Sisyan) hücumu Sünik hakimi Vasakın yardım üçün Babəkə müraciət etməsinə səbəb olmuşdu. Döyüşçüləri ilə Sisyana gələn Babək Sulk qalasında möhkəmlənmiş Səvadə əl-Cəhhafini oradan sıxışdırıb çıxara bilmişdi. Vasakın həmin il ölməsindən sonra Babək onun qızı[153] ilə evlənmiş[154] və Sulk qalası arvadının mülkiyyəti olaraq Babəkin ixtiyarına keçmişdi. Beləcə Babək qərbi Arran torpaqları, o cümlədən Qarabağın dağlıq hissəsi üzərində öz hakimiyyətini qura

---

144 Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/576; İbn əl-*Əsir*, *əl-Kamil*, VI/311.

145 Yaqubi, *Tarix*, II/420.

146 İbn Cərir ət-Təbəri bu şəxsin adını "Zureyq ləqəbli Sədəqə ibn Əli", İbn əl-Əsir "Zureyq ləqəbli Əli ibn Sədəqə",

147 Bəlazuri, *Futuh əl-Buldan*, 362.

148 Zəkəriyya əl-Əzdi, Əhməd ibn Cüneydin xilafət sarayındakı katiblərdən biri olduğunu bildir (*Tarix əl-Məvsil*, 356).

149 Zəkəriyya əl-Əzdi, *Tarix əl-Məvsil*, 356.

150 Ərəbdilli müəlliflər bu komandanın adını fərqli şəkildə qeyd edirlər. Əhməd əl-Bəlazuri onun adının "Sədəqə ibn Əli ibn Sədəqə ibn Dinar" olduğunu, əl-Əzd qəbiləsinin məvlası olduğunu yazır (Futuh əl-Buldan, 362). Bu onun qeyri-ərəb mənşəli olduğunu söyləməyə əsas verir. Əhməd əl-Yaqubi onun adının "Zureyq ibn Əli ibn Sədəqə əl-Əzdi" olduğunu bildirir (*Tarix*, 419).

151 Zəkəriyya əl-Əzdi, *Tarix əl-Məvsil*, 356-357; Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/580-581, 595, 601; İbn əl-*Əsir*, *əl-Kamil*, VI/315, 328, 337; İbn Miskəveyh, *Təcarib əl-Uməm*, III/384.

152 Bünyadov, *Azərbaycan VII-IX əsrlərdə*, 318.

153 İbn Cərir ət-Təbərinin əsərində (*Tarix ər-Rusul vəl-Müluk*, IX/47) adı "İbnət əl-Kələndaniyyə" (ابنة الكلندانية) şəklində qeyd olunan bu qadın güman ki, Babəkin Cavidanın dul qalmış qadınından sonra evləndiyi ikinci qadın idi. Mövzu ilə bağlı bəzi yazılarda bu qadının adının "Kəldaniyyə xatun" şəklində yazıldığına şahid oluruq. Yəni zənn edilir ki, qadının adı "Kəldaniyyə" imiş. Halbuki "ibnət əl-Kələndaniyyə" "xristianlığın kələndani məzhəbində olanın qızı" mənasını ifadə edir. Ərəblər "xaldiya (khaldea) katolik kilsəsi" mənsubu xristianları "kələndani" adlandırırlar. Bu məzhəbə mənsub xristian icma bu gün İraqın şimalında indi də qalmaqdadır. Bu gün yaqubi (süryani) məzhəbinə mənsub olan xristianların bir qismi kəldani adlanırlar. Ehtimal etmək olar ki, Sünik hakimi olan atası Vasak xaldiya katolik məzhəbinə mənsub olduğu üçün onun Babəkin arvadı olan qızı ərəbdilli müəlliflər tərəfindən "ibnət əl-Kələndaniyyə" olaraq adlandırılmışdı. Ərəbdilli mənbələrdə həmçinin Nəmrud (Hammurapi/e.ə. 1793-1750), Buxtunnəsr (I Nabu Kodonosor/e.ə. 1125-1104) kimi qədim Babil hökmdarları da "Kəldanilərin kralları" (ملوك كلدانيّين) adlandırılırlar. Bax: Əbül-Fərəc Qriqorius ibn əl-İbri, *Tarixu Muxtəsər əd-Duvəl*, Beyrut 1890, 42.

154 Moses Dasxuranci, *The History of the Caucasian Albanians*, (tərc. C. Dowsett), London 1961, 214.

bilmişdi. Bununla da bir sıra yollara nəzarəti ələ alaraq strateji üstünlük əldə etmişdi[155]. 826-cı ildə Balk şəhəri, 827-ci ildə isə Qelarkunik şəhərlərində əhali Babəkə qarşı baş qaldırmışdı. Qərbi Arranda onun hakimiyyətinə qarşı xristian əhalinin qaldırdığı qiyamları Babək amansızlıqla yatırmışdı. Qelarkunik qiyamı yatırılarkən Babək aralarında qadın və uşaqların da olduğu 15 min nəfəri qılıncdan keçirmişdi[156].

H. 212-ci (827-828) ildə Mə'mun yenidən Azərbaycandakı mülki və hərbi idarəçiləri dəyişmişdi. O, atası da Abbasilərin tanınmış komandanlarından olmuş Muhəmməd ibn Humeyd ət-Tusini Azərbaycan və Arran valisi təyin etmiş, xürrəmi qiyamının yatırılması işini də ona həvalə etmişdi. Lakin Muhəmməd ibn Humeydin Babək və xürrəmilərə qədər görüləcək çox işi olmuşdu. Onun ilk hədəfi Mosulu zəbt etmiş sabiq Azərbaycan valisi Əli ibn Sədəqə olmuşdu. Vəzifədən azad edilməsindən narazı qalan Əli ibn Sədəqə Mosul hakimi Seyyid ibn Ənəsə hücum edərək onu öldürmüş və şəhəri zəbt etmişdi. Əli ibn Sədəqəni məğlub edən Muhəmməd ibn Humeyd onun aman diləyini qəbul etmişdi. Həbs edilən Əli ibn Sədəqə Bağdada, Mə'munun yanına göndərilmişdi. Azərbaycana yönələn[157] Muhəmməd ibn Humeyd burada qiyam qaldırmış Yə'la ibn Murrə və digər ərəb qiyamçıların da müqavimətini qırmaq məcburiyyətində qalmışdı[158]. Əlində olan qüvvə və resursların əhəmiyyətli bir qismini bu işlərə sərf etdikdən sonra isə Babəkilərlə vuruşmaq üçün hazırlıq görməyə başlamışdı. O, hökumət qüvvələri və könüllülərdən[159] ibarət çoxminlik ordunu Ərdəbil[160] yaxınlığında qurdurduğu hərbi düşərgədə səfərbər etmişdi. Xürrəmilərin mərkəzi Bəzzə doğru irəliləyən Muhəmməd ibn Humeyd mühasirəyə düşməmək, ərzaq və sursat təchizatının davamlılığını təmin etmək məqsədiylə ələ keçirdiyi strateji əhəmiyyət daşıyan bütün dağ keçidlərində postlar qurmuşdu. Bu postlara yerləşdirilmiş döyüşçülər mühafizə və kəşfiyyat xidməti görürdülər. Bu şəkildə Həşdadsər dağının ətəklərinə qədər irəliləyən Muhəmməd ibn Humeyd burada qurduğu qərargahı qazdırdığı xəndəklərlə əhatəyə almışdı. Bundan sonrakı hərəkat üçün keçirilən hərbi müşavirədə alınan qərara görə ordunun mərkəz qüvvələrinə əmir Əbu Səid Muhəmməd ət-Tai, sağ cinaha Sə'di ibn Ehram, sol cihana isə Abbas əl-Yəqtin başçılıq edəcək, ordu bu şəkildə Bəzz istiqamətinə irəliləyəcəkdi. Şəxsi müşahidələri və kəşfiyyat məlumatlarına

---

155 Dasxuranci, *The History of the Caucasian Albanians*, 214; Armen Karagezyan, "İstoriko-geoqrafiçeskie utoçneniya", **VON AN ArmSSR, № 3** (1988), 56–61. Qeyd etmək lazımdır ki, hadisələrin baş verməsi ilə bağlı yerli alban mənbələrində göstərilən tarixlər ilə ərəbdilli mənbələrdə tarixlər arasında müəyyən fərqliliklər var. Məsələn M. Dasxurancinin bildirdiyinə görə Vasak ərəblərə qarşı kömək üçün Babəki Sünikə erməni təqviminin 270-ci ilində çağırmışdı. V. Minorski bunun miladi təqvimlə 821-822-ci illərə təqabül etdiyini bildirmişdir (bax: *The History of the Caucasian Albanians*, 213). Yenə həmin müəllif yazır ki, bundan iki il sonra (yəni 824-cü ildə ) Babək Tusini məğlub etmişdi. Ərəbdilli mənbələr Muhəmməd ibn Humeyd ət-Tusinin h. 214-cü ildə Babək tərəfindən məğlub edilib öldürüldüyünü bildirirlər. Bu miladi tarixlə 829-cu ilə təsadüf edir. Bundan iki il əvvəl isə 827-ci il olur, 822 deyil. A. Karagezyanın məqaləsində qeyd etdiyi tarixlər bu baxımdan ərəbdilli müəlliflərin göstərdikləri tarixlərə uyğun gəlir.

156 Dasxuranci, *The History of the Caucasian Albanians*, 214; Karagezyan, *həmin məqalə*.

157 İbn Xordadbeh (820-912) Muhəmməd ibn Humeydin ordusunun marşrutunu bu şəkildə qeyd edir: "Dinəvər-Şiz-Sisər-Bərzə-Marağa" (*Kitab əl-Məsalik vəl-Məmalik*, Leyden 1889, 121).

158 Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/619; İbn əl-*Əsir*, *əl-Kamil*, VI/351-352. İbn Cərir ət-Təbəri Azərbaycanda qiyam qaldırmış bu ərəbləri "əl-mutəğəllibə" (المتغلبة) adı ilə tərif edir. Bunlar əyalətlərdəki xilafət qüvvələrinin könüllü döyüşçüləri idilər. Təəssüf ki, onların qiyam səbəbi haqda məlumat verilmir. Buna səbəb xəlifə Əminin zorla hakimiyyətdən uzaqlaşdırılıb öldürülməsi ola biləcəyi kimi, artıq nümunəsini yuxarıda qeyd etdiyimiz kimi mu'təzili dəvətçilərinin əyalətlərdə belə müsəlman əhaliyə əqidə məsələsində təzyiq göstərməsi ola bilər.

159 Əbu Zəkəriyya əl-Əzdinin qeydlərinə istinad edərək deyə bilərik ki, bu könüllülərin mühüm bir qismi Azərbaycanın yerli müsəlman əhalisindən ibarət idi. Müəllif Muhəmməd ibn Humeydin nahiyələrdəki bütün Azərbaycan əhalisinə səfərbərlik barədə xəbər göndərdiyini bildir (وفرض علي أهل كل ناحية من أهل أذربيجان). *Tarix əl-Məvsil*, 386. Bu onu deməyə əsas verir ki, Azərbaycanın yerli əhalisinin bütünü deyil, müəyyən bir qismi xürrəmi üsyanında fəal iştirak etmişdi.

160 Zəkəriyya əl-Əzdinin əsərində şəhərin adı qeyd edilmir, sadəcə ordunun şəhər yaxınlığında toplanmış olduğu bildirilir (ميّز عسكره علي باب مدينته). Mənbənin naşiri Əli Həbibi burada sözügedən şəhərin Marağa olduğu qənaətindədir (bax: *Tarix əl-Məvsil*, 386). Onu bu fikrə sövq edən yuxarıda açıqladığımız İbn Xordadbehin qeydidir. Lakin bunun doğru olmadığını, Zəkəriyya əl-Əzdinin "mədinətihi" (مدينته), yəni "öz şəhərinə", kəlməsi ilə Ərdəbili qəsd etmiş olduğunu düşünürük. Belə ki, həmin dövrdə Ərdəbilin Azərbaycanın mərkəzi şəhəri olduğu, valilərin ölkəni bu şəhərdən idarə etdikləri bilinməkdədir. Bundan başqa Zəkəriyya əl-Əzdinin sonrakı qeydlərində Muhəmməd ibn Humeyd ət-Tusinin ordusunun Əhərə doğru istiqamət götürdüyünü bildirməsini də nəzərə alaraq deyə bilərik ki, səfərbərlik üçün hərbi düşərgə Ərdəbildə qurulmuşdu. Çünki Əhər Marağadansa Ərdəbilə daha yaxındır.

əsasən xilafət ordusunun bütün hərəkətlərindən xəbərdar olan Babək əvvəlcədən müəyyənləşdirdiyi yerlərdə döyüşçülərini yerləşdirərək pusqu qurmuşdu. Ordu dağlıq bölgədə 3 fərsəx (17 km) irəlilədikdən sonra pusqudakı xürrəmilərin qəfil hücumuna məruz qalmış, bu vaxt Babəkin başçılıq etdiyi xürrəmi dəstəsi də hücuma keçmişdi. Qəfil və assimmetrik hücum qarşısında çaşqına dönən xilafət ordusunda baş verən təşviş döyüş nizamının pozulmasına və qaçışa səbəb olmuşdu. Əmri altındakı döyüşçülərin qaçmış olmasına rəğmən qərargahını tərk etməyən Muhəmməd ibn Humeyd son nəfəsinə qədər döyüşərək öldürülmüşdü. Döyüşdən qaçanların bir çoxu da canını qurtara bilməmiş, təqib olunaraq öldürülmüşdülər. H. 25 rəbiyələvvəl 214-cü ildə (2 iyun 829) baş vermiş bu döyüş tarixdə birinci Həştadsər döyüşü olaraq bilinməkdədir[161].

Xilafət komandanlarının ard-arda Babək qarşısında məğlubiyyətə düçar olması cənubi Qafqazdakı həm müsəlman, həm də xristian əyan sinifi arasında mərkəzdənqaçma meyllərini gücləndirmişdi. Müsəlman əyanlar arasında İslamı qəbul etmiş yerlilər olduğu kimi, "mütəğəllibə" adlanan ərəblərdən ibarət könüllü dəstə komandanları da var idi. Mə'mun bu kimi meyllərin qarşısını almaq və cənubi Qafqazda xilafətin nüfuzunu möhkəmləndirmək üçün bir sıra tədbirlər görməli olmuşdu. Muhəmməd ibn Humeydin ölümündən sonra Mə'mun Abdullah ibn Tahiri Azərbaycan valisi təyin etmişdi. Abdullah ibn Tahir Dinəvərə gələrək xürrəmilərə qarşı hərbi səfərin hazırlıqları ilə məşğul ikən qardaşı, Xorasan valisi Təlhə ibn Tahirin ölüm xəbərini almışdı. Xorasanın idarəsi müvəqqəti olaraq kiçik qardaşları Əli ibn Tahirə tapşırılmışdı. Lakin bu vaxt Xorasandan xaricilərin qiyam qaldırıb əl-Həmra kəndinə hücum etdikləri və kənd əhalisinin bütünlüklə qılıncdan keçirdikləri xəbəri gəldiyi üçün xəlifə Mə'mun Abdullah ibn Tahiri Xorasana göndərməli olmuşdu. Azərbaycan valiliyinə isə Əli ibn Hişam təyin olunmuşdu. Əbdulə'la ibn Əhməd əs-Suləmi isə xəlifənin əmri ilə Arran valisi olmuşdu[162]. Mütəğəllibədən Muhəmməd ibn Əttab Gürcüstandakı xristian sanarların (الصنارية) yardımı ilə hərbi işdən anlayışı olmayan Əbdulə'la əs-Süləmini məğlub etmişdi. Mə'mun bu hadisədən sonra Arran valiliyinə Xalid ibn Yəzid ibn Məzyəd əş-Şeybanini təyin etmişdi. Böyük ordu ilə Cəzirə vilayətindən keçib Ərməniyyədəki Əxlat şəhərinə gələn Xalid ibn Yəzidi asiliyi ilə ad çıxarmış buradakı mütəğəllibənin lideri Səvadə ibn Əbdulhəmid əl-Cəhhafi[163] qarşılayıb ona itaətini bildirmişdi[164]. Xalid Ərməniyyəni tərk edərək Naxçıvana gəldiyi vaxt buradakı mütəğəllibədən Yəzid ibn Hısn ilə vuruşaraq onu məğlub etmişdi. Yəzid ibn Hısnın qaçıb gizlənməsindən sonra Xalid ibn Yəzid Kəsala (Qazax) getmişdi. Burada Muhəmməd ibn Əttab ondan aman diləyərək yanına gəlmiş, Xalid ibn Yəzid onu bağışlamışdı. Sanarların İbn Əttaba da itaət etmədiklərini onun özündən öyrənən Xalid ibn Yəzid Gürcüstana yürüş edərək sanarları məğlub etmiş və onları itaət edib xərac verməyə məcbur etmişdi[165]. Gürcü çarı, Kartli hakimi

---

[161] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/622; İbn əl-*Əsir*, *əl-Kamil*, VI/357-358; Əbu Zəkəriyya əl-Əzdi, *Tarix əl-Məvsil*, 389-393.

[162] Yaqubi, *Tarix*, II/421; İbn əl-*Əsir*, *əl-Kamil*, VI/360.

[163] Erməni mənbələrinin verdiyi məlumatlardan Səvadə və mənsub olduğu Qeysi Cəhhafi qəbiləsi Ərməniyyədə böyük nüfuza sahib oludğu aydın olur. Erməni salnaməçi İovannes Drasxanakertsi (840-925) Səvadə əl-Həccafinin erməni hakim sülaləsi Baqratunilərdən Arusyak adlı bir qadınla evləndiyini qeyd edir (*İstoriya Armenii*, (tərc. M. Darbinyan-Melikyan). Moskva 2011, 60). Aram Ter-Gevondyan yazır ki, Harun ər-Rəşidin hakimiyyəti dövründən Van gölü ətrafındakı Ərməniyyə torpaqlarında Süləm və Qeys tayfa ittifaqlarına mənsub qəbilələr məskunlaşmağa başlamışdılar. Ərəb Cəhhafilərin lideri Ərməniyyədə mövqeyini möhkəmləndirmək məqsədiylə erməni naxarar ailəsi Mamikonyanlara mənsub bir qızla evlənmişdi. 774-775-ci il erməni qiyamının yatırılması Mamikonyanların siyasi fəaliyyətinə son qoyduğu üçün onların mülklərinin böyük bir qismi əsasən Malazgird və ətrafında məskun ərəb Cəhhafilərə keçmişdi (bax: Aram Ter-Gevondyan, *The Arab Emirates in Bagratid Armenia*, (tərc. N. Garsoyan), Lissabon 1976).

[164] İ. Drasxanakertsinin əsərində hadisə bir qədər fərqli qeyd olunur. O, yazır ki, Səvadə əl-Cəhhafi erməni sparapeti Smbat və Sünik (Sisyan) hakimi Sahakın da yardımı ilə Xalid ibn Yəzid ilə vuruşmaq üçün qüvvələrini səfərbər etmişdi. Lakin Xalid ibn Yəzid daha az qüvvə ilə onlara qəfil hücum edərək məğlubiyyətə uğratmışdı. Döyüşdə Sahak öldürülmüş, Smbat ilə Səvadə isə qaçaraq canlarını qurtarmışdılar (*İstoriya Armenii*, 60-61). Mümkündür ki, hadisə həm əl-Yaqubinin, həm də İ. Drasxanakertsinin nəql etdikləri kimi olmuşdur. Xalid ibn Yəzid qarşısında məğlubiyyətə uğrayan Səvadə əl-Cəhhafi aman diləyərək əvf edilmişdi.

[165] Yaqubi, *Tarix*, II/422; Bünyadov, *Azərbaycan VII-IX əsrlərdə*, 252-253. Z. Bünyadov Əbdulə'la əs-Süləminin h. 202-ci (817) ildə vali vəzifəsinə təyin olunduğunu yazır. Halbuki bu haqda məlumat verən Əhməd əl-Yaqubi

kuropalat[166] I Aşot Baqrationi topladığı ordu ilə Xalid ibn Yəzidin üzərinə getmişdi. Baş vermiş döyüşdə məğlub olaraq qaçan I Aşot məbəddə ona toxunulmayacağına ümid edərək Girdimandakı bir kilsəyə sığınmışdı. Lakin onu təqib edənlər I Aşotu kilisənin içində edam etmişdilər. Bu qələbələrdən sonra Xalid ibn Yəzid Ərməniyyə, Kartli və Eretini itaət altına ala bilmişdi[167].

Arran və bütünlükdə cənubi Qafqaz uğrunda Babəklə xilafət arasında gedən amansız mübarizənin yeganə səbəbi xürrəmilərin bu əyalətlərə ərzaq təminatı üçün ehtiyaclarının olması deyildi. Görüldüyü kimi Bağdaddan Arrana göndərilən Xalid ibn Yəzid Gürcüstan məsələsinə xüsusi əhəmiyyət vermiş, bu bölgədə xilafətin mövqeyini möhkəmlədmək üçün ciddi səy göstərmişdi. Bunun səbəbi Babəkin başçılıq etdiyi üsyana Bizans imperiyası tərəfindən edilən yardımın qarşısını almaq idi. Həmin dövrdə Bizansın cənubi Qafqaza açılan qapısı Gürcüstanın Qara dəniz sahilindəki limanları idi. Ehtimal etmək olar ki, Bizans məhz bu limanlar vasitəsi ilə cənubi Qafqazdakı xilafət əleyhdarı qiyam hərəkətlərini dəstəkləmişdi. Bu səbəbdən də Arran istər Babək, istərsə də Abbasilər üçün xüsusi strateji əhəmiyyət daşıyırdı. Cənubi Qafqazın xristian alban hakimləri çox asanlıqla tərəf dəyişdirə bilirdilər. Şəki hakimi Səhl ibn Sumbat, Beyləqan hakimi Əbul-Əsəd Stepanos, onun bacısı oğlu[168] Yesai Əbu Musa, Sünik hakimi Vasak, Xaçın hakimi Azər-Nersi (Atrnersex) və digərləri xürrəmi üsyanı boyunca bəzən Babəkin, bəzən də Abbasilərin tərəfində olmuşdular[169]. Onların kimin tərəfində olmaları bölgədə tərəflərdən hansının hərbi-siyasi üstünlüyə sahib olmasından asılı idi. Xilafətlə Babək arasında Arran və cənubi Qafqaz uğrundakı mübarizədə pavlikian icmasının da rol oynamış olması[170] qeyd etdiyimiz bölgədəki Bizans nüfuzu məsələsini təsdiq edər mahiyyətdədir. Belə ki, Babəkin Arranda nüfuzunun artmasından, Arran hakimlərinin Babəkin hegemonluğuna boyun əyməsindən ən çox narahat olan buradakı pavlikian icması olmuşdur. Ön Asiyada pravoslavlığın bayraqdarı olan Bizans imperiyasının amansız təqibindən yaxa qurtaran pavlikianlar xilafətin hakimiyyəti altında özlərini daha rahat və azad hiss edirdilər[171]. O cümlədən Alban əyanları arasında da Babəkin himayədarlığı altına keçmək məsələsinə birmənalı münasibət yox idi. Bu fikir ayrılığı onların arasında qanlı hesablaşma ilə nəticələnmişdi. Xaçın hakimi Azər-Nersi (Atrnersex) Albaniyanın hakim ailəsi Mehranilərə mənsub Bəraz-Şirzadı (Varaz-Trdat) və onun azyaşlı oğlunu öldürmüşdü[172]. Düşünürük ki, Bəraz-Şirzad və hələ ana qucağındakı oğlunun qətlinə səbəb onun Bizansa deyil, ərəblərə meyl etməsi səbəbindən idi. Onun mənsub olduğu Mehranilər sülaləsi ənənəvi olaraq xilafət hakimiyyətinə müsbət münasibəti ilə seçilmişdi. M. Dasxurancinin (X əsr) bildirdiyən görə 826-cı ildə Balk şəhərindəki xristian əhalinin

Əbdulə'lanın bu vəzifəyə təyinini Muhəmməd ibn Humeydin ölümündən (h. 214/829) sonrakı hadisələr arasında qeyd edir.

[166] Kuropalat-Bizans sarayında yüksək dövlət çini sayılırdı. I Aşota bu çini onu himayə edən və dəstəkləyən Bizans sarayı vermişdi.

[167] *Kartlis Tsxovreba*, 140. M. Qurqenidze və M. Surquladzenin müəllifliyi ilə "*Pravoslavnaya Ensklopediya*"da I Aşota həsr olunmuş məqalədə onun ölüm tarixi 29 yanvar 826 yaxud 829-cu il olaraq göstərilir (bax: http://www.pravenc.ru/text/77252.html). Əhməd əl-Yaqubinin qeyd etdiyi xronolowi ardıcıllığa uyğun gəldiyi üçün bunlardan 829-cu ilin daha doğru olduğu qənaətindəyik. Buradan sözügedən döyüşün 829-cu il yanvar ayının 29-da baş verdiyini də təxmin edə bilərik.

[168] İbn Cərir ət-Təbəri İsa ibn Yusif adı ilə tanınan Yesai Əbu Musanın Əbül-Əsəd Stepanosun bacısının oğlu olduğunu qeyd edir (ابن أخت أصطفانوس). Bax: *Tarix ər-Rusul vəl-Muluk*, IX/193.

[169] Dasxuranci, *The History of the Caucasian Albanians*, 214-215; Fəridə Məmmədova, *Kavkazskaya Albaniya i Albanı*, Bakı 2005, 391.

[170] Məmmədova, *həmin əsər*, 393.

[171] Pavlikianlığın inanc əsaslarına dair məlumat verən mənbələrdən biri "tövbə mətnləri"dir. Yenidən pravoslavlığa döndərilən pavlikianlar üçün pravoslav keşişlərin hazırladığı bu "tövbə mətnləri"ndən pravoslav kilsəsinin pavlikian inancı Mani təlimi ilə eyniləşdirir. Mahiheizmin təsiri altında formalaşmış xristianlığı əsas götürən, lakin dualist dini cərəyan olduğunu iddia edir. Həmin "tövbə mətnləri"ndə tövbəkar pavlikianlardan "*biri xeyir, digəri şərr tanrısı olan iki tanrıya inanlara lə'nət olsun, ata, oğul və müqəddəs ruhdan ibarət tanrının axirətin tanrısı, başqa birinin isə bu dünyanın tanrısı olduğunu söyləyənlərə lə'nət olsun, Kibbosda şeytan kimi Mani təlimini öyrədən Konstantinə lənət olsun*" kimi sözlər söyləmələri tələb olunduğu yazılmışdır (bax: Bernard Hamilton, *Bizanslı Heretiklerin Tarihi*, (tərc. B. Baysal), İstanbul 2010, 140-141). Halbuki Mani təliminin təsirlərini özündə büruzə verən xristian dini cərəyanı pavlikianlıq deyil, çox vaxt onunla qarışdırılan, eyniləşdirilən tondrakilikdir (daha ətraflı məlumat üçün bax: Karen Yuzbaşyan, "Tondrakitskoe dviwenie v Armenii i pavlikiane", **İzvestiya AN Arm. SSR**, IX, İrəvan 1956, 31-44).

[172] Dasxuranci, *The History of the Caucasian Albanians*, 215.

qiyamı məhz bu qətl hadisəsindən sonra başlamışdı[173]. Balk qiyamı isə Beyləqan hakimi Əbul-Əsəd Stepanosun köməyə çağırdığı Babək tərəfindən amansızlıqla yatırılmışdı. 827-ci ildə Babək Qelarkunikdə xristian albanlara qanlı divan tutaraq onların qiyamını yatırmalı olmuşdu. 15 min xristianı öldürüb 150 minini əsir aparan Babək burada Makenasos monastırını da oda verib yandırmışdı. Babəkin qanlı divan tutduğu xristian albanların ikonaklast-pavlikan camaatı olduğunu düşünməyə kifayət qədər əsas var. Belə ki, Babəklə müttəfiqi Əbul-Əsəd Stepanosun bu hərəkətinə cavab olaraq Davon və Şapux adlı iki pavlikian Əbul-Əsəd Stepanosa sui-qəsd təşkil edərək onu öldürmüşdülər. Onun yerinə keçən Yesai Əbu Musa qatilləri yaxalayaraq cəzalandırmışdı[174]. Sözügedən dövrdə xilafətin dəstəyinə arxalanan pavlikianlar Bizansa qarşı hərbi yürüşlər təşkil etməkdə idilər[175]. Bu haqda irəlidə, pavlikianlıqla əlaqəli qisimdə ətraflı məlumat veriləcəkdir. Kiçik Asiyada Bizansa qarşı vuruşan pavlikianların, cənubi Qafqazda Bizansın müttəfiqi olan xürrəmilər və pravoslav albanlara qarşı müxalif mövqedə olmaları təbii idi. Xilafət Bizansa qarşı pavlikianlara yardım etdiyi kimi, Bizans da xilafətə qarşı xürrəmiləri dəstəkləməkdə idi. Babəklə Bizans sarayı arasında sıx əlaqənin və əməkdaşlığın olmasına dair ərəbdilli mənbələrdə də məlumatlar mövcuddur. Əbu Əli Bəl'əmi (X əsr) Babəklə Bizans imperatoru Feofil (829-842) arasındakı məktublaşmanı öz əsərində qeyd etmişdir[176]. Bu məktubda Babək imperator Feofili özünün gizli xristian olduğuna inandırmağa çalışır və bildirir ki, hazırkı şəraitdə o, insanları açıqca xristianlığa dəvət edə bilmir. Həmçinin yazır ki, bu ancaq ərəblər üzərində tam qələbədən sonra mümkün ola bilər. Əbu Əli Bəl'əmi Babəkin gizli xristian olması barədə imperatoru aldatdığını da qeyd edir[177]. Lakin salnaməçi Süryani Mixail və İbn əl-İbri qeyd edirlər ki, Babəkin Nəsr (yaxud Nasir) adlı bir komandanı xürrəmilərdən ibarət böyük bir dəstə ilə Bizans tərəfinə keçmiş və xristianlığı qəbul etmişdilər[178]. Bu xristian xürrəmilər imperator Feofilin ordusunda xilafətə qarşı vuruşmuşdular[179]. Buraya qədər sadaladıqlarımız Babəkin Bizans sarayı tərəfindən fəal şəkildə dəstəkləndiyi göstərir. 827-ci ildə Abbasilər Sardiniya adasını ələ keçirməklə və ümumiyyətlə Aralıq dənizinin qərbindəki Bizans mövqelərinə sürəkli təzyiq altında saxlamaqla onların cənubi Qafqazdakı fəaliyyətlərini azaltmağı hədəfləmişdi. Bunun paralelində artıq qeyd etdiyimiz kimi Bizansın cənubi Qafqazla əlaqəsini təmin edən Gürcüstan və Arranda ərəblər öz mövqelərini möhkəmləndirə bilmişdilər.

Mə'mun h. 215-ci (830-831) ildə Abdullah ibn Tahirin yerinə xürrəmi qiyamına qarşı Əli ibn Hişam ibn Fərrxosrov əl-Mərvəzini təyin etmişdi. Azərbaycanla birlikdə Cibal və Qumm vilayətlərinin idarəsi də Əli ibn Hişama həvalə edilmişdi. Bundan sonrakı iki il ərzində Əli ibn Hişam xürrəmilərə qarşı mübarizədə irəliləmə əldə etmədiyi kimi haqqında edilən şikayətlər artaraq çoxalmışdı. Onun haqqında insanlara zülm etdiyi, mal və əmlaklarını qəsb etdiyi, etiraz edənləri isə öldürtdüyü barədə xəbərlər alan Mə'mun Uceyf ibn Ənbəsəni silahlı dəstə ilə Azərbaycana göndərmişdi. Güman ki, vəzifəsindən azad ediləcəyi təqdirdə üsyan qaldıracağından ehtiyat edilmişdi. Uceyfə Əli ibn Hişamı yaxalayaraq Bağdada gətirməsi tapşırılmışdı. Əli ibn Hişam bunu anlayaraq Uceyfi öldürmək istədi isə də Uceyf daha cəld davranaraq Əli ibn Hişamın adamlarına hücum edərək məğlub etdi. Əli ibn Hişam ələ keçməmək üçün qaçıb Babəkə sığınmaq istəyərkən Uceyfin adamları tərəfindən yaxalanmış və Bağdada gətirilmişdi. Xəlifənin əmri ilə h. 217-ci il cəmaziyələvəl ayının 4-ü (7 iyun 832) boynu vurularaq edam olunan Əli ibn Hişamın başı vətəni Xorasana göndərilmişdi[180].

---

173 *Yenə orada*.
174 Dasxuranci, *The History of the Caucasian Albanians*, 215; Məmmədova, *həmin əsər*, 393.
175 Mango, *Bizans, yeni Roma imparatorluğu*, 112-113; Yuzbaşyan, *həmin məqalə*, 40.
176 Əbu Əli Muhəmməd Bəl'əmi, *Tarixe-Bəl'əmi*, IV, Tehran, 1353, 1264.
177 Bəl'əmi, *Tarixe-Bəl'əmi*, IV/1264. (آن ملك روم را نام روفيل بن ميخاييل بود, و بابك اورا بفريفتي و گفتی من به اصل ترسالم ودين ترسايى دارم از پنهان)
178 Michel le Syrien, *Chronique*, III, (nəşr. Ww. B. Chabot), Paris 1905, 96; Əbül-Fərəc Qriqorius ibn əl-İbri, *Tarix əz-Zaman*, (tərc. İ. Ərmələ), Beyrut 1991, 31.
179 Bünyadov, *Azərbaycan VII-IX əsrlərdə*, 321.
180 İbn əl-*Əsir*, *əl-Kamil*, VI/360, 364; Səfədi, *Kitab əl-Vafi bil-Vəfayat*, XXII/178; İbn Teyfur, *Kitabu-Bağdad*, 146-147.

Xürrəmilərə qarşı hərbi əməliyyatların paralelində bu qiyamı fəal şəkildə dəstəkləyən Bizansa qarşı iri miqyaslı hərbi əməliyyata şəxsən komandanlıq etmək üçün yola çıxan Mə'mun Pozantı çayı sahilindəki hərbi düşərgədə ölümünə səbəb olan xəstəliyə yaxalanmışdı. Mənbələr təzə dərilmiş xurma yeyib soyuq bulaq suyu içdikdən bir müddət sonra Mə'munun şiddətli qızdırmayla müşayiət olunan xəstəliyə tutulduğunu qeyd edirlər. Eyni xəstəlik əlamətləri ətrafındakı bir neçə adamda, o cümlədən vəliəhd qardaşı Əbu İshaq Muhəmməddə də müşahidə edilsə də, onlar Mə'mundan fərqli olaraq sağala bilmişdilər. Ehtimal ki, bu malyariya xəstəliyi idi. Xəstəliyi ağırlaşdığı üçün Mə'mun oğlu Abbası və vəliəhd qardaşını çağıraraq vəsiyyətini etmişdi. Vəsiyyətin dövlət işləri ilə bağlı qismi yazılaraq bütün vilayət canişinlərinə göndərilmişdi. Şiddətli qızdırma növbələri ilə tez-tez huşunu itirən Mə'mun h. 18 rəcəb 218-ci (11 avqust 833) ildə Pozantı çayı kənarındakı ordugahda ölmüşdü. 48 yaşında dünyaya gözlərini yuman Mə'munun cənazəsi Tarsusa[181] gətirilərək orada dəfn edilmişdi[182].

Harun ər-Rəşidin çoxsaylı övladlarından biri olan Əbu İshaq Muhəmməd h. 10 şaban 180-ci (18 oktyabr 796) ildə Bağdaddakı Xuld (əbədiyyət) qəsrində dünyaya gəlmişdi. Anası Maridə[183] adlı umm-vələd cariyə idi. Uşaqlığında təhsil və tədrisə həvəsli olmayan Əbu İshaq Muhəmməd yeniyetməlik yaşlarından hərbi işə meyl salmış, hərbi yürüşlərdə iştirak etmişdi. Gənc yaşlarından hərbi və inzibati-idari vəzifələr tapşırılmış Əbu İslaq Muhəmməd özünün fiziki qüvvəsi ilə məşhur olmuşdu[184]. Qardaşı Mə'munun ölümü və Tarsusda dəfn edilməsindən sonra Bağdada gələn Əbu İshaq Muhəmməd "əl-Mu'təsim Billah" ləqəbi ilə Abbasi dövlətinin səkkizici hökmdarı olaraq iqtidara sahib olmuşdu. Bəzi hərbiçilər Mə'munun oğlu Abbası taxta çıxarmaq istəsələr də əksər dövlət xadimləri, hərbiçilər və mu'təzilənin tanınmış simalarının dəstəklədiyi Mu'təsim qardaşı Mə'munun vəsiyyətinə uyğun olaraq xəlifə olmuşdu. Abbas özü də əmisinə ilk bey'ət edənlərdən olaraq qarışıqlıq çıxarmaq istəyənləri susdurmuşdu. Paytaxtda qarışıqlıq çıxarmağa cəhd ediləcəyindən ehtiyat edən Mu'təsim qardaşının dəfnindən sonra Bizans üzərinə hərbi səfəri dayandıraraq İraqa qayıtmışdı. O, 833-cü ilin ramazan ayının ilk günü (20 sentyabr) Abbasla birlikdə Bağdada daxil olmuşdu[185].

## Xürrəmi üsyanının yatırılması və Babəkin ələ keçirilməsi

Mə'munun ölümündən qısa müddət əvvəl xürrəmi qiyamı əhatə etdiyi dairəni daha da genişlədərək İranın qərbinə sıçramışdı. Cibal, Həmədan, İsfəhan, Masəbzan, Mihricanqəzəq xürrəmiləri h. 218-ci (833) ilin ortalarında üsyan qaldırmışdılar. Mu'təsim hakimiyyətə gələndən dərhal sonra h. 218-ci ilin şəvval (oktyabr 833) ayında əmir İshaq ibn İbrahimi Cibal əyaləti ordu komandanlığına təyin etmiş və İran xürrəmilərinin üzərinə göndərmişdi. Babək İran xürrəmilərinə yardım üçün göndərdiyi dəstəyə Nəsr[186] adlı bir xürrəmi başçılıq etmişdi. Həmədan yaxınlığında xürrəmilərlə İshaq ibn İbrahimin ordusu arasında baş vermiş şiddətli döyüş xürrəmilərin ağır məğlubiyyəti ilə nəticələnmişdi. Döyüş meydanında 60 min cəsəd qoyan xürrəmilərin sağ qalanları Nəsrin başçılığı altında qaçıb Bizansa getmişdilər. İshaq ibn İbrahim xürrəmilərin əsir aldığı qadın və uşaqlarını Bağdada gətirmişdi[187]. Mu'təsim xürrəmilərin dağıtdıqları qala və istehkamları təmir edib yenilərini

[181] Tarsus şəhəri Türkiyənin Mersin vilayətinin şərqində yerləşir.
[182] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/646-648; İbn əl-Əsir, *əl-Kamil*, VI/372, 375.
[183] Maridənin Kufədə doğulub böyüdüyü, atası Şəbibin İraqın Nəhrivan bəldəsindəki Bəndəniceyn qəsəbəsindən, anasının isə Soğdlu olduğu bildirilir (İbn əl-Əsir, *əl-Kamil*, VI/460).
[184] Ğamidi, *əl-İktifa fi Əxbar əl-Xülə fa*, I/1462-1463; Süyuti, *Tarix əl-Xülə fa*, 520; İbn Kəsir, *əl-Bidayə*, X/497-498; Zəhəbi, *Siyər*, X/297-298.
[185] İbn əl-Əsir, *əl-Kamil*, VI/482; Zəhəbi, *Siyər*, X/298.
[186] Bu şəxsin kimliyi və hərbi-siyasi fəaliyyəti haqqında aşağıda ətraflı məlumat verəcəyik.
[187] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/667-668; İbn əl-Əsir, *əl-Kamil*, VI/383-384, 387; Michel le Syrien, *Chronique*, III/88; Treadgold, *A History of the Byzantine, State and Society*, 439. Həmədan döyüşündən sonra Bizans ərazisinə qaçan xürrəmilərin sayı haqqında bir neçə mindən 14 minə qədər müxtəlif rəqəmlər qeyd edilməkdədir (bax: Wwohn Rosser, "Theophilus' Khurramite Policy and its Finale: The Revolt of Theophobus' Persian Troops in 838", **Byzantina, VI,** (1974), 268-271; Warren Treadgold, "The Chronological Accuracy of the "Chronicle" of Symeon the Logothete for the Years 813-845", **Dumbarton Oaks Papers, XXXIII,** (1979), 157-197). Bu haqda irəlidə daha ətraflı məlumat veriləcəkdir.

inşa etmək üçün əmir Əbu Səid Muhəmməd ibn Yusifi h. 220-ci (835) ildə Azərbaycana göndərmişdi[188]. Yollarda təhlükəsizlik təmin olunmadığı üçün xəbərləşmə və hərbi hərəkatlar xürrəmilərin pusqularına, qəfil basqınlarına məruz qalırdı. Əbu Səid Muhəmməd Zəncan Ərdəbil yolu üzərindəki dağıldılmış bütün hərbi məntəqələri, istehkam və qalaları təmir etdirmiş və yenilərini inşa etdirmişdi[189]. Beləcə Bağdadla Azərbaycan arasındakı poçt-xəbərləşmə xətti, eləcə də orduların hərəkət və hərbi təchizat yolu təhlükəsiz hala gətirildi. Tezliklə bu tədbir öz nəticəsini göstərmişdi. Babək Müaviyə[190] adlı dəstəbaşısının əmrinə verdiyi xürrəmi döyüşçüləri Azərbaycandakı müsəlman əhalinin məskun olduğu yerlərə hərbi yürüşə göndərmişdi. Bundan xəbər tutan Əbu Səid Muhəmməd bir qrup döyüşçü ilə Müaviyənin dəstəsini təqib etmiş və onunla döyüşə girmişdi. Məğlub olan xürrəmilərin bir qismi öldürülmüş, sağ qalanlar isə əsir götürülmüşdülər. Onların aparmaqda olduqları qənimətlər də Əbu Səidin əlinə keçmişdi. Əbu Səid öldürülən xürrəmilərin başlarını əsirlərlə birlikdə Bağdada, Mu'təsimə göndərmişdi[191].

Mə'munun yeritdiyi daxili siyasət və ziddiyətli qərarları xilafətin bir sıra bölgələrində, o cümlədən cənubi Qafqazdakı ərəb və yerli müsəlmanların mərkəzi hakimiyyətə qarşı mövqe sərgiləmələrinə səbəb olmuşdu. Xürrəmi qiyamı və Babək hərəkatının geniş vüsət alıb uğur qazanmasında bunun az rolu olmamışdı. Mə'munun Arran valiliyinə təyin etdiyi Hatim atası, Abbasilərə sədaqətlə xidmət etmiş Hərsəmə ibn Ə'yənin həbs edildiyi Mərv zindanında öldürülməsinin (816) intiqamını xəyanətlə almağa çalışdı. O, valilik etdiyi Arranın iri xristian feodalları və Babəklə gizli əlaqə quraraq onlarla məktublaşmış və onları qiyama təşviq etmişdi[192]. Babəklə müttəfiq olan digər bir müsəlman ərəb zadəganı Muhəmməd ibn əl-Bəis[193] idi. Yəmən mənşəli bəni-Rəbiə qəbiləsinə mənsub Muhəmməd ibn Bəis Urmiyə gölündəki adada yerləşən Şahi qalasının və Təbriz şəhərinin sahibi idi[194]. Muhəmməd ibn əl-Bəis də xilafət mərkəzinə tabe olmaq istəməyib müstəqil hərəkət etmək arzusunda olan bölgədəki digər ərəb mühacirlər əyanlar kimi başlanğıcda Babək üsyanını dəstəkləmişdi. Ehtimal ki, onu buna məcbur edən Mə'munun hakimiyyəti dövrünün əvvəlində xilafətdə meydana gəlmiş qarışıqlıq, qeyri-müəyyənlik olmuşdu. O, Babəklə konfliktə girərək əlindəkiləri itirməkdənsə onunla əməkdaşlıq edib mövqeyini qorumağa üstünlük vermişdi. Lakin Mu'təsimin hakimiyyətə gəlməsindən sonra xürrəmilərin Həmədan döyüşündə (833) ağır bir şəkildə məğlub olub böyük itgi vermiş olmaları, Əbu Səid Muhəmmədin Azərbaycana gələrək təhlükəsizlik tədbirlərini gücləndirməsi və Müaviyənin dəstəsini məğlub etməsi Muhəmməd ibn əl-Bəisin yenidən xəlifənin tərəfinə keçməsinə səbəb olmuşdu. Mu'təsimə məktub yazan İbn Bəis ona itaətini bildirmişdi. Lakin bu itaətin doğruluğunu və sadiqliyini əməli ilə sübut etməli idi. Bunun üçün o, hiyləyə əl atmışdı. İbn Bəis Babəkin dəstəbaşılarından İsmət əl-Kürdinin qızı ilə evlənib qohumluq əlaqəsi qurmaq və onun etibarını qazanmaqla işə başlamışdı[195]. Babək İbn əl-Bəisin əlində olan qala və düşərgələrdən hərbi səfərlərdə istifadə edirdi. İsmət əl-Kürdi əmrindəki xürrəmi döyüşçülərlə çıxdığı yürüşlərdən birində kürəkəni İbn əl-Bəisə qonaq olmuşdu. İbn əl-Bəis qonaqlar üçün təşkil etdiyi ziyafətdə onlara çoxlu şərab içirərək sərxoş etmişdi. Sərxoş

---

[188] İbn əl-Əsir, *əl-Kamil*, VI/388-389.

[189] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/11; İbn əl-Əsir, *əl-Kamil*, VI/388; İbn Şakir, *Uyun ət-Təvarix*, 80.

[190] İbn Cərir ət-Təbəri Babəkin Müaviyə adlı bir qardaşından bəhs edir. Lakin burada sözügedən Müaviyənin Babəkin qardaşı, yoxsa başqa bir şəxs olduğu haqda heç bir şey qeyd etmir.

[191] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/12; İbn əl-Əsir, *əl-Kamil*, VI/389.

[192] Yaqubi, *Tarix*, II/419; İbn Quteybə, *əl-Məarif*, 389; Həddarə, *əl-Mə'mun,* 84. Əhməd əl-Yaqubinin bildirdiyinə görə Hatim ibn Hərsəmə Babəkə yazdığı məktubda Mə'mun haqqında alçaldıcı ifadələr işlətmişdi. İbn Quteybə əd-Dinəvəri isə Babəkin qiyama qalxmasının əsas səbəbkarı kimi Hatim ibn Hərsəməni göstərir.

[193] əl-Mərzubani (öl. 994) Muhəmməd ibn əl-Bəisin istedadlı şair olduğunu bildirir və onun qəzəllərindən nümunələr qeyd edir (bax: *Mu'cəm əş-Şüəra'*, I, (nəşr. A. əl-Cərrah), Beyrut 1971, 462-463)

[194] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/12; İbn əl-Əsir, *əl-Kamil*, VI/389. İbn Cərir ət-Təbəri və İbn əl-Əsir Muhəmməd ibn Bəisin Şahi qalasını digər bir ərəb zadəgan Vəcna ibn ər-Rəvvadan aldığını qeyd edir. İbn əl-Fəqih əl-Həmədani (X əsr) isə onun babası Əbu əl-Bəis Həlbəs ər-Rəbiyi'nin həmin dövrdə kənd olan Mərəndin sahibi olduğunu, bu yaşayış məntəqəsini qala divarları ilə əhatəyə aldırdığını, Muhəmməd ibn əl-Bəisin isə burada qəsr tikdirdiyini yazır (*Kitab əl-Buldan*, 581). Əhməd əl-Yaqubi isə İsmən əl-Kürdinin Mərəndin sahibi olduğunu yazır (*Tarix*, II/433).

[195] Yaqubi, *Tarix*, II/433.

xürrəmilərin boynu vurulandan sonra İsmət əl-Kürdi İbn əl-Bəis tərəfindən Bağdada, Mu’təsimin yanına göndərilmişdi. İsmət əl-Kürdi Babəkin bütün hərbi sirlərini ərəblərə danışaraq canını satın ala bilmiş və xəlifə Vasiqin (842-847) hakimiyyəti illərinə qədər zindanda qalmışdı[196].

Mu’təsimin əmri ilə h. 220-ci (835) ildə xürrəmi qiyamını yatırmaq üçün Azərbaycandakı xilafət qüvvələri komandanlığına Afşin ləqəbi ilə tanınan Heydər ibn Kavus[197] təyin edilmişdi. Azərbaycana gələn Afşin qərargahını Bərzənd[198] şəhərində qurmuş, Bərzəndlə Ərdəbil arasındakı qalaları möhkəmləndirərək yolları ciddi nəzarət altına almışdı. Qalalardakı qarnizon komandanlarının izni və müşayəti olmadan hərbi yollarda heç bir hərəkətə icazə verilmirdi. Babəkə qarşı əks-kəşfiyyat fəaliyyətini gücləndirən Afşin onun casuslarını yaxaladığı zaman onları öldürmür, cəzalandırmırdı. Əksin onlara hədiyyə verir və Babəkdan aldığı pulun iki mislini təkif edərək öz tərəfinə çəkirdi. Beləcə Afşin qısa müddət ərzində düşmən qüvvələri haqqında çox dəyərli məlumat toplaya bilmişdi[199]. Babək isə ikili işləyən casusların gətirdikləri məlumatlarla Afşinin əmri altındakı xilafət qüvvələri və hərəkətləri haqqında yanlış məlumat və təsəvvürə sahib olmuşdu.

Babək xilafət ordusuna qarşı ənənəvi taktikasını davam etdirmişdi. O, ərzaq, hərbi təchizat və əsgərlərin maaşını daşıyan karvanlara hücum etməklə Afşinin əmri altındakı ordunu zəiflətmək və əhval-ruhiyyəsini zəiflətmək istəyirdi. H. 220-ci (835) ildə Mu’təsimin türk əmir Böyük Buğa (Buğa əl-Kəbir) ilə göndərdiyi karvan Ərdəbilə gəlmişdi. Bu karvanda ərzaq, silah-sursat və böyük məbləğdə pul vəsaiti var idi. Babək casusları vasitəsi ilə karvanın Ərdəbildən Bərzənddəki qərargaha gedəcəyi vaxtı öyrənmiş və yolda basqın üçün hazırlaşmışdı. Eyni zamanda Afşin də casusları vasitəsi ilə Babəkin planından xəbər tutmuşdu. Buna görə də karvan Ərdəbildən yola çıxsa da bir müddət irəlilədikdən sonra geri Ərdəbilə qayıtmışdı. Babəkin şəxsən başçılıq etdiyi ordu karvana hücum edib oradaki döyüşçüləri öldürsələr də axtardıqlarının bu qafilədə olmadığını görmüşdülər. Böyük Buğanın gətirdiklərinin yol üzərindəki Ərşəq qalasına çatdırıldığını zənn edən Babək qüvvələri ilə qalaya yaxınlaşmışdı. 400-ü süvari olmaqla 1000 nəfər döyüşçüdən ibarət qala qarnizonu komandanı Heysəm əl-Qənəviyə qalanı təslim edib getməyi təklif edən Babək rədd cavabı aldıqdan sonra hücum əmri vermişdi. Süvari qüvvələri ilə səssizcə Babəkin ordusunu təqib etməkdə olan Afşin Ərşəq qalasına hücum etməkdə olan xürrəmilərə qəfil hücum etmişdi. Gözlənilməz hücum qarşısında ağır məğlubiyyətə uğrayan xürrəmilər çox sayda itki vermişdilər. Ətrafındakı az sayıda adamı ilə qaçaraq canını qurtara bilən Babək Muğana getmişdi. Lakin buradan Bəzzə tək başına getməyə cəsarət etməyərək qasid göndərib bir qrup döyüşçüsünü yanına çağırmış, onlarla birlikdə Bəzzə qayıtmışdı. Afşin isə qazandığı qələbədən sonra Bərzənddəki qərargahına qayıtmışdı. Məğlub olmasına baxmayaraq Babək hərəkətsiz durmamış, Biri Xuşşdan[200], digəri isə Marağadan Bərzəndə ərzaq və su daşımaqda olan iki karvana hücum edərək ələ

---

[196] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/11; İbn əl-Əsir, *əl-Kamil*, VI/389.

[197] Afşin Heydər ibn Kavus Orta Asiyadakı Uşrusanə (اشرسانه) bölgəsinin hakim ailəsinə mənsub idi. Uşrusanə indiki Tacikistanın şimal qərbində, Fərqanə vadisinin girişində, Zərəfşan çayı hövzəsində yerləşirdi. Mərkəzi şəhəri Pənckət (ərəbcələşmiş Bunckət) idi. Pənckət Səmərqəndin şərqində, Şaşın (Daşkənd) cənubunda yerləşirdi (daha ətraflı məlumat üçün bax: Bartold, *Turkestan v Epoxu Monqolskoqo Naşestviya*, 221-225). Afşin titulu daşıyan Uşrusanə hakimləri xilafətdən vassal asılılığında idilər. Afşin farscadakı “Pişin” kəlməsinin ərəbcələşmiş forması idi. H. 207-ci (822-823) ildə Mə’munun əmri ilə Uşrusanəyə yürüş edən əmir Əhməd ibn Əbi Xalid bölgəni fəth edərək Uşrusanə afşini Kavus ibn Xaraxurə (كاوس بن خاراخوره) və oğlu əsir alınaraq Bağdada gəndərmişdi. Kavus və oğlu xəlifənin hüzurunda İslamı qəbul etdiklərini bildirmişdilər. Mə’mun Kavusu yenidən Uşrusanə hakimliyinə təyin etmişdi. Fəzl və Heydər adlı oğullarından ikincisi atasının ölümündən sonra Uşrusanə afşini olmuşdu (Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, VIII/596; Bəlazuri, *Fütuh əl-Buldan*, 605-606). Afşin Heydər Misirdə baş vermiş qiyamın yatırılması, Bizansa qarşı hərbi yürüşlərdə hərbi işdəki məharətini göstərə bilmişdi.

[198] Bərzənd indiki Yardımlı rayondan qərbdə, Talış dağlarının ətəklərində yerləşən şəhər idi. Şəhərin xarabalıqları hal-hazırda cənubi Azərbaycan (İran) ərazisindəki Şahmarbəyli kəndi yaxınlığında qalmaqdadır. Daha ətraflı məlmuat üçün bax: Nəsirov, *Orta Əsrlərdə Yaşamış Azərbaycanlı Alimlər*, 37.

[199] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/11; İbn əl-Əsir, *əl-Kamil*, VI/389-390.

[200] Xuşş-Ərdəbil ilə Bərzənd arasında yerləşən qala-şəhər idi. Ərdəbildən Xuşşa 8 fərsəx, Xuşşdan Bərzəndə 6 fərsəx (1 fərsəx = 5,762 km) məsafə var idi (İbn Xordadbeh, *əl-Məsalik*, 121)

keçirmişdi. Bu durum Afşinin ordusunda ərzaq qıtlığı meydana gəlməsinə, əsgərlərin aclıq və susuzluq çəkməsinə səbəb olmuşdu. Afşin Seyrəvan[201] hakiminə müraciət edərək onun göndərdiyi ərzaqla ordudakı qismən vəziyyəti yaxşılaşdıra bilmişdi. Böyük Buğanın Ərdəbildə saxladığı mal və təchizatı Bərzəndə çatdırmasından sonra çətinlik aradan qaldırılmışdı[202].

H. 221-ci (836) ildə Afşin Bəzz istiqamətinə irəliləmək üçün hərəkət etmişdi. Bu hərəkatda Böyük Buğa və Əbu Səid Muhəmməd də öz orduları ilə iştirak etməkdə idilər. Böyük Buğa Həşdadsər dağı yaxınlığındakı, daha əvvəl Muhəmməd ibn Humeydin ordusunun qərar tutduğu istehkama gələrək burada səngər qazdırdı və istehkamı təmir etdirərək möhkəmləndirdi. Öz ordusu ilə tək başına hərəkətə keçən Buğa uğursuzluğa düçar olaraq geri çəkilmiş və Afşindən yardım istəmişdi. Afşin ona qardaşı Fəzl ibn Kavusu və digər bir neçə əmiri göndərmişdi. Afşin Babəklə girişdiyi döyüşdə qələbə çalaraq onun qərargahını və arvadlarından birini ələ keçirmişdi. Böyük Buğanın ordusu isə şiddətli soyuq, qar və küləyin yaratdığı əlverişsiz hava şəraitindən ötürü səngərlərdən çıxa bilməmişdi. Afşin hava və relyef şəraitini nəzərə alaraq geri çəkilmişdi. Böyük Buğa Afşinin geri çəkilməsindən xəbərsiz olduğu üçün Bəzz qalası yaxınlığına qədər irəliləmişdi. Afşinin ordusunun səngərlərini tərk edib geri çəkildiyini öyrənəndə isə artıq çox gec idi. Yanındakı əmirlərlə müşavirə edən Buğa da geri çəkilmək qərarına gəlmişdi. Onun ordusunun ələ keçirdiyi xürrəmi əsirlərin arasında Cavidanın oğlu da var idi[203]. Babək onun azad edilməsi müqabilində böyük miqdarda pul təklif etsə də Buğa qəbul etməmişdi. Lakin geri çəkilmə nizamsız və dağınıq halda olduğu üçün Babək Böyük Buğanın ordusunu bir gecə vaxtı mühasirəyə ala bilmişdi. Buğa və ordusu çətinliklə də olsa mühasirəni yarıb çıxa bilmişdi. Bir çox döyüşçü öldürülmüş və yaralanmışdı. Xürrəmilər Cavidanın oğlu da aralarında olmaqla əsirləri xilas etmiş, silah və ərzaq ələ keçirmişdilər. Afşin özbaşınalığı səbəbiylə Böyük Buğanı hərəkatdan uzaqlaşdırmış, Marağaya qayıtmasını əmr etmişdi. Afşin bahar aylarına qədər əsgəri tərxis etsə də xürrəmilərə qarşı casus savaşını davam etdirmişdi. O, Babəkin bacarıqlı komandirlərindən olan Tərxanı sui-qəsdlə aradan götürə bilmişdi. Casusları vasitəsi ilə Tərxanın Marağa yaxınlığındakı bir kənddə yaşayan ailəsinin yanına gedəcəyini öyrənən Afşin, İshaq ibn İbrahimin məvlası olan bir türk sui-qəsdçi vasitəsi ilə Tərxanı öldürtə bilmişdi. Türk sui-qəsdçi Tərxanın kəsilmiş başını Bərzəndə, Afşinə göndərmişdi[204].

Afşin xürrəmi qiyamını yatırmaq üçün özündən əvvəlki komandanlardan fərqli müharibə taktikası istifadə etmişdi. O, qiyamçıların mərkəzini ələ keçirib işi bitirmək üçün "həlledici döyüş"ə girməmişdi. Çünki nizami ordunun döyüşçülərindən fərqli olaraq xürrəmilər bölgənin coğrafiyasına və relyefinə daha yaxşı bələd idilər. Bu onlara ərazidən səmərəli istifadə imkanı verirdi. Belə bir vəziyyətdə həlledici döyüşə girmək fəlakətlə nəticələnə bilərdi. Afşin hərəkatı zamana yayaraq mərhələli irəliləyişlə Babək və xürrəmilərin ətrafındakı halqanı daraltma yolunu tutmuşdu. Afşindən əvvəlki komandan və valilərin Arran və Ərməniyyədəki durumu xilafətin lehinə çevirmələri Babəki arxa cəbhədən məhrum etmişdi. Belə bir vəziyyətdə Babək müttəfiqi Bizans imperiyasının dəstəyindən və Arranın xristian feodallarının ərzaqla təminatından məhrum qalmışdı. Afşin isə əksinə Bağdaddan fasiləsiz canlı qüvvə, ərzaq, silah-sursat və nəqd pul təchizatı ilə təmin olunurdu. H. 222-ci (836-837) ildə Mu'təsim əmir Cə'fər ibn Dinar əl-Xəyyatı Afşinə kömək üçün Azərbaycana göndərmişdi. Əmir İtax[205] ət-Türki isə əlavə canlı qüvvə və 30 milyon dirhəm nəqd

---

[201] əs-Seyrəvan (السيرَوَان), zənn edildiyi kimi Şirvan deyildir. Əs-Seyrəvan Cibal vilayətinin Masəbzan bölgəsindəki qəsəbənin adı idi (bax: Yaqut əl-Həməvi, *Mu'cəm əl-Buldan*, III/296).

[202] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/14-16; İbn əl-Əsir, *əl-Kamil*, VI/391-392.

[203] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/27; İbn əl-Əsir, *əl-Kamil*, VI/399; İbn Miskəveyh, *Təcarib əl-Uməm*, IV/19. Mənbələrdə sözügedən şəxsin adı "İbn Cüveydan" (ابن جويدان) şəklində qeyd olunur. Düşünürük ki, bu mənbələr nüsxələnərkən katiblər tərəfindən yol verilmiş istinsax xətasıdır. Əslində "İbn Cavidan" (ابن جاويدان) kimi yazılmalı idi. Qurtuluşu üçün böyük miqdarda fidyə təklif etməsi onun Babək üçün əhəmiyyətli bir şəxs olduğunu göstərir. Bu məlumat həmin şəxsin Babəkin oğulluğu, Cavidanın isə oğlu olduğunu düşünməyə əsas verir.

[204] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/23-28; İbn əl-Əsir, *əl-Kamil*, VI/397-400; İbn Xəldun, *əl-İbər*, III/324.

[205] Ərəbdilli mənbələrdə bu türk komandanın adı (إيتاخ) şəklində qeyd edilir. Bunu "İtax", "İytax" kimi oxumaq mümkündür. Lakin bu oxunuş türkcə heç bir məna ifadə etməməkdədir. Fəqət (أيتاخ) yaxud (أيتاك) şəklində yazıb "Aytak/Aytək" kimi oxunarsa türkcə məna kəsb etmiş olur. İbn Cərir ət-Təbərinin "Tarix ər-Rusul vəl-Müluk"unu ingiliscəyə tərcümə etmiş C. E. Bosworth bu türk komandanın adını transkripsiyasını "Aytâkh" şəklində etmişdir.

pulu Afşinə çatdıraraq İraqa geri qayıtmışdı. Xilafətin Azərbaycanda böyük hərbi qüvvə cəmləşdiriyini görən Babək buna qarşı hərbi tədbirlərlə yanaşı diplomatik bir həmlə də etmişdi. O, müttəfiqi Bizans imperatoru Feofilə (829-842) yazdığı məktubla xilafət hərbi qüvvələrinin demək olar ki, bütünü ilə özünə qarşı Azərbaycanda cəmləşdiyini bildirərək ondan kömək istəmişdi. Yaranmış vəziyyətin əsl fürsət olduğunu bildirən Babək imperatora indi hücuma keçəcəyi təqdirdə heç bir ciddi müqavimətlə üzləşməyəcəyini yazırdı. Babəkin təhrik etdiyi Feofil müttəfiqinə yardım məqsədiylə hərəkətə keçmişdi[206]. H. 222-ci (836-837) ilin baharında Afşin Bərzənddəki ordugahdan hərəkətə keçərək 5 km qərbdəki Kəlanrud çayı hövzəsində mövqe tutmuşdu. Onun əmri ilə Əbu Səid Muhəmməd də öz ordu birlikləri ilə həmin yerə gələrək dayanmışdı. Babəkin dəstəbaşılarından Azin xilafət ordusunun qarşısını kəsmək üçün bir qədər aralıda mövqe tutmuşdu. Babək ona ailəsini bir qalada mühafizə etməyi tövsiyə etsə də Azin müsəlmanları qəsd edərək "*bu yəhudilərin üzündən ailəmi qoyacaq yer tapa bilmədim*" deyə cavab vermişdi. Güman ki, o, ailəsini qoyacağı qalanın ələ keçirilə biləcəyindən ehtiyat edərək özü ilə döyüş meydanına gətirmişdi. Azinin öz ailəsini qoyduğu yeri öyrənən Afşin onları ələ keçirmək üçün əmir Zəfər əs-Sə'dini bir dəstə süvari ilə oraya göndərmişdi. Həmin yer bir dağın zirvəsi olduğu üçün Zəfər əs-Sə'di çətin dağ keçidlərindən keçərək həmin zirvəyə qalxmış və Azinin ailəsini əsir almışdı. Lakin Azin bundan xəbər tutduğu üçün geri qayıdış yolunda Zəfər əs-Sə'dinin dəstəsinə basqın edərək ailə üzvlərindən bəzilərini xilas edə bilmişdi. Afşin də bundan xəbər tutduqda Müzəffər ibn Qeysər, Buxaraxudat və Sə'id adlı əmirləri Zəfərin köməyinə göndərmişdi. Onlar itki versələr də, Azinin ailə üzvlərindən bəzilərini ələ keçirə bilmişdilər[207]. Afşin Mu'təsimin də əmr etdiyi kimi ordunu təhlükəyə atmadan çox asta yürüşlə Bəzzə doğru irəliləmişdi. Gecələr yürüşə fasilə veriləndə belə o, süvarilərin bir qismini atlarından enməyə qoymayıb daim döyüşə hazır vəziyyətdə gözlətmişdi. Afşin xürrəmilərin çox ustalıqla bacardıqları gecə basqınlarından ehtiyat edirdi. Gündüz irəliləyərkən isə bütün ordu birliklərinə sadəcə döyüş təbillərinin səsini eşidərkən yerimək, təbil səsi kəsildikdə isə dayanmaq əmri vermişdi[208]. Beləcə bir-birindən aralı olan ordu birlikləri sinxron şəkildə hərəkət etmişdilər. Bu döyüş nizamını qoruyub saxlamağı təmin etmiş və birliklərin aralı düşüb qəfil basqına uğrama təhlükəsini aradan qaldırmışdı. İrəliləmə o qədər yavaş olmuşdu ki, döyüşçülər bu durumdan şikayətlənməyə başlamışdılar. Afşin ordusunu bu şəkildə Rud ər-Ruda[209] qədər gətirmişdi. Afşin burada xürrəmilərin ordu birlikləri ilə qarşılaşsa da döyüşə girməmişdi. Onun əmri ilə mühüm əhəmiyyətli yüksəkliklər axtarılaraq buralarda müşahidə və mühafizə postları qurulmuşdu. O, bir vaxtlar üzərində qala olub sonradan dağıldılmış üç zirvə təsbit etmişdi. Onun müəyyən etdiyi üç dağ zirvəsində müvəqqəti qala-istehkamlar inşa edilmiş, bu zirvələrə aparan yollar üzərində səngərlər qazılaraq postlar qurulmuşdu. İstehkamçı bənnalar 10 gün ərzində işlərini tamamlaya bilmişdilər. Afşin Bəzz qalası və ətrafını nəzarət altında saxlaya bilən bu yeni qala-istehkamlara piyada əsgərlər yerləşdirmişdi. Afşin həmin istehkam və səngərlərə yaxınlaşıb qışqıraraq onları döyüşə təhrik edən xürrəmilərin hərəkətlərinə rəğmən əsgərlərinə səngərləri tərk etməmək əmri vermişdi. Asta yürüşlə ordusunu Bəzzə yaxınlaşdıran Afşin arxadan qəfil hücuma uğramamaq və pusquya düşməmək üçün keçdikləri yolları hərbi dəstələrlə mühafizə altına alırdı. Beləcə ordunun arxası boş və nəzarətsiz qalmamış olurdu[210]. Babək Bəzz qalasının mühafizəsi üçün yanında az sayda döyüşçü saxlayaraq xürrəmilərin əsas hissəsini pusquda gizlətmişdi. O, Afşinin Bəzzə həlledici döyüş üçün hücumunu gözləməkdə idi. Bu hücum baş verdiyi zaman pusqudakı xürrəmilər Afşinin ordusuna qəfil hücum edəcəkdilər. Bəzzdəki xürrəmilər onları müşahidə etməkdə olan Afşin və döyüşçülərini qıcıqlandırmaq üçün şərab içib zurna çalırdılar[211]. Babəkin planını anlayan Afşin pusqudakı xürrəmilərin yerini öyrənmək istəsə də, buna nail ola bilməmişdi. Buna görə də qalaya qəti hücumu yubandırırdı. Lakin gözləməkdən sıxılan xürrəmilər Bəzzin

---

[206] Təbəri, *Tarix ər-Rusul*, IX/56; Əbu Zəkəriyya əl-Əzdi, *Tarix əl-Məvsil*, 424; İbn əl-Əsir, *əl-Kamil*, VI/417; İbn Kəsir, *əl-Bidayə*, X/481; Bəl'əmi, *Tarixe-Bəl'əmi*, IV/1264.
[207] Təbəri, *Tarix ər-Rusul*, IX/29-30; İbn əl-Əsir, *əl-Kamil*, VI/402-403; İbn Xəldun, *əl-İbər*, III/324.
[208] Təbəri, *Tarix ər-Rusul*, IX/34; İbn əl-Əsir, *əl-Kamil*, VI/405-406.
[209] Cəbrayıl rayonu istiqamətinə təqabül edən, Arazın cənubundakı ərazidən axaraq Araz çayına tökülən Qarasu çayının mənbəyini götürdüyü dağlıq bölgə.
[210] Təbəri, *Tarix ər-Rusul*, IX/31; İbn əl-Əsir, *əl-Kamil*, VI/402.
[211] Təbəri, *Tarix ər-Rusul*, IX/36; İbn əl-Əsir, *əl-Kamil*, VI/405.

qapılarından çıxaraq ən ön sırada mövqe tutmuş Cə’fər ibn əl-Xəyyatın döyüşçülərinə hücum etmişdilər. Cə’fər ibn əl-Xəyyat əks hücumla xürrəmiləri geri sıxışdıra bilmiş, Bəzzin qapılarına qədər irəliləmişdi. Bu döyüşü müşahidə edən Afşin "planımı məhv etdiyi" deyərək Cə’fərə qəzəblənmişdi. Bu vaxt əmir Əbu Duləf əl-İcli də Cə’fər ibn əl-Xəyyatın yardımına yetişdi. Bəzz divarlarında xürrəmilərin şiddətli müqaviməti ilə qarşılaşan Cə’fər Afşindən 100 oxçu istəsə də Afşin imtina edərək ona "*işimi bərbad etnin, döyüş planımı pozdun, indi ehtiyatla geri çəkil və döyüşçülərini də itki vermədən geri çək*" deyə göstəriş verdi[212]. Könüllü mücahidlər qrupu da başqa bir istiqamətdən Bəzzə doğru hücuma keçəndə qopan gurultu və nərələri eşidən pusqudakı xürrəmilər ümumi hücumun başladığını zənn edərək yerlərindən çıxıb iki istiqamətdə hücuma keçdilər. Bunu müşahidə edən Afşin "*pusqu yerlərini aşkara çıxaran Allaha həmd olsun*" demişdi. Cə’fər ibn əl-Xəyyat və könüllü mücahidlər arxadan dəstək qüvvələri gəlmədiyi üçün hücumu dayandırıb geri çəkilməli oldular. Cə’fər könüllülərdən biri ilə Afşinin yanına gələrək döyüşçünün əlindəki daşı Afşinə göstərmiş və "*bu daşı görürsənmi? Onu Bəzzin divarından qoparmışıq, lakin sən köməyə gəlmədin*" demişdi. Afşin isə "*pusqudakılar arxadan hücuma keçsəydilər nə hala düşəcəyini o vaxt görəcəkdik*" deyə cavab vemişdi. Ordunun arxa tərəfindəki yolları qoruyan dəstəyə başçılıq edən Buxaraxudatın sayıqlığı pusqudakı xürrəmilərin məqsədlərinə çatmasına mane olmuşdu. Könüllü mücahidlər qrupu Bəzzə təkrar hücum etmək əzmində olsalar da, Afşin buna mane olmuşdu[213]. Bu ordu arasında Afşin haqqında işi qəsdən uzatdığı və hücumu yubandırdığına dair şayiələrin gəzməsinə səbəb olmuşdu. Hətta mücahidlərdən birinə röyasında gördüyü Peyğəmbərin (s.ə.v) "*əgər Afşin Babəkə qarşı əzm göstərməz isə dağlar onu daşa tutacaqdır*" dediyi də əsgərlər arasında gəzməyə başlamışdı. Bu sözlər Afşinə çatdırılanda o, "*Allah niyyətimi də, xürrəmilərə olan münasibətimi də bilir. Əgər Allah dağların kimisə daşa basmasını diləsəydi bu kafiri (Babəki) daşa tutdurardı, beləcə xürrəmilərin şərrindən xilas olmuş olardıq*" deyə cavab vermişdi[214]. Lakin bütün bunlar könüllü mücahidlərin təkidinə mane olmamışdı. Onlardan biri Afşinin yanına gələrək "*əgər qədərimizdə şəhid olmaq varsa, bizi bundan məhrum etmə. Biz buraya Allahın razılığını qazanmaq üçün gəlmişik. Bizə izn ver Bəzzə hücum edək, bəlkə də Allah bizim əlimizlə bu şəhərin fəthini müyəssər edər*" demişdi. Afşin hücum üçün gün müəyyən edərək onları silah-sursat, ərzaq və su ilə təchiz etmişdi. Könüllü mücahidlər Bəzzin qapısı istiqamətində hücuma keçərək burada xürrəmilərlə şiddətli döyüşə girmişdilər. Xürrəmilər buna əks hücumla cavab vermişdilər. Tərəflər arasında cərəyan edən döyüş könüllü mücahidlərdən çox sayıda döyüşçünün atılan qaya parçaları ilə yaralanmaları və geri çəkilmələri ilə nəticələnmişdi[215]. Afşinin növbəti hücum əmri Azinin mövqe tutduğu yüksəkliyin ələ keçirilməsi üçün olmuşdu. Bu hücum uğurla başa çatdırılmış və strateji yüksəklik xürrəmilərdən alınmışdı. Daha sonra Afşin Əbu Səid Muhəmməd, Buxaraxudat, Bəşir ət-Türki, Əhməd ibn Xəlil, Cə’fər ibn Dinar əl-Xəyyatın əmri altındakı ordu birliklərinə Bəzzə ümumi hücum əmri vermişdi. Babəkin pusqudakı döyüşçüləri Bəşir ət-Türki və Fərqanəli döyüşçülər tərəfindən məğlub edilmişdi. Bu hücum Bəzz qalası üçün sonun başlanğıcı idi. Babək bunu anlamışdı. Bundan sonrakı hərəkəti onun fanatik bir idealist olmadığını, reallığı dərk edə bilən rasional düşüncə sahibi olduğunu göstərir. Babək Bəzzdən çıxıb Afşinin ordugahına tərəf gəlmiş və onunla təkbətək görüşmək istədiyini bildirmişdi. Onun "*möminlərin əmirindən aman istəyirəm*" sözünü məmnuniyyətlə qarşılayan Afşin bunu çoxdan etməli olduğunu söyləmişdi. Afşin dərhal Mu’təsimə bu haqda məktub yazaraq qasidlə göndərmişdi[216]. Lakin Babək hiylə işlətmişdi. O, Bəzz uğrunda ölüm-qalım savaşı aparan xürrəmilərin yanına qayıtmayaraq bir qrup yaxın adamı ilə döyüşlərin getdiyi yerdən uzaqlaşmışdı. Bu vaxt xilafət ordusunun döyüşçüləri artıq Bəzzin küçələrində xürrəmilərlə vuruşmaqda idilər. Afşinin əmri ilə Bəzzdə Babəkə məxsus qəsr və saraylarda gizlənib döyüşməyə davam edən xürrəmilərin olduqları yerlərə neftçilər (naffatin) od vurmuşdular. Küçələrdə, meydanlarda, evlərdə

---

[212] Təbəri, *Tarix ər-Rusul*, IX/37; İbn əl-Əsir, *əl-Kamil*, VI/406.
[213] Təbəri, *Tarix ər-Rusul*, IX/37-38; İbn əl-Əsir, *əl-Kamil*, VI/406.
[214] Təbəri, *Tarix ər-Rusul*, IX/39; İbn əl-Əsir, *əl-Kamil*, VI/407; İbn Ə’səm, *Kitab əl-Futuh*, VIII/438; Nuveyri, *Nihayət əl-Ərəb*, XXII/179-180.
[215] Təbəri, *Tarix ər-Rusul*, IX/39; İbn əl-Əsir, *əl-Kamil*, VI/407; İbn Ə’səm, *Kitab əl-Futuh*, VIII/438.
[216] Təbəri, *Tarix ər-Rusul*, IX/43-44; İbn əl-Əsir, *əl-Kamil*, VI/411; İbn Miskəveyh, *Təcarib əl-Uməm*, IV/28.

və bağlarda şiddətli döyüşlər davam etmişdi. H. 20 ramazan 222-ci ildə (26 avqust 837) Bəzz qalası bütünlüklə fəth edilmişdi. Bəzz uğrunda gedən döyüşlərdə 80 mindən çox xürrəmi öldürülmüşdü[217]. Qaranlıq çökəndə Afşin Bəzzdəki döyüşçüləri geri çəkərək səngərlərdə gecələmələrini istəmişdi. Gecənin qaranlığından istifadə edən Babək Bəzzə qayıtmış, tapa bildiyi qədər ərzaq və pul götürərək yenidən qalanı tərk etmişdi. Kələybər çayı vadisi[218] ilə şimala hərəkət edən Babəkin niyyəti Arazı keçib Həkəri çayı vadisinə daxil olmaq və şimala doğru hərəkət etmək idi. Afşin casusları vasitəsi ilə Babəkin sıx meşəliklə əhatə olunan bu vadidə gizləndiyini öyrənmişdi. Afşin Arrandakı xristian feodallara xəbər göndərərək Babəkin onların torpaqlarına keçə biləcəyinə dair xəbərdar etmiş və gördükləri yerdə yaxalamalarını əmr etmişdi. O, Kələybər çayı vadisini 15 ayrı kəşfiyyatçı dəstəsi ilə nəzarətə götürmüşdü. Afşinin əmri ilə oda verilən Bəzz qalası yandırılmış və bütün evləri, qala divarları dağıldılaraq yerlə bir edilmişdi. Bəzzdə sözün həqiqi mənasında daş üstdə daş qalmamışdı. Bir müddət sonra Afşinin Babək üçün əmannamə tələbinə cavab gəlmişdi. Mu'təsim təslim olması müqabilində Babəkin canını bağışladığına dair fərman göndərmişdi. Afşin Babəkin buna çox sevinəcəyini bildirərək aralarında Babəkin oğlunun da olduğu əsir xürrəmilərdən xəlifənin məktubunu Babəkə çatdırmalarını istəmişdi. Lakin onlar onun Babəki özləri qədər yaxşı tanımadığını bildirərək bundan imtina etmişdilər. Afşinin təkidindən sonra xürrəmilərdən iki nəfər ailələrinin təhlükəsizliyi və himayə edilmələri qarşılığında Mu'təsimin əvf məktubunu Babəkə çatdırmağa razı olmuşdular. Elçilər Babəkin oğlunun atasına yazdığı məktubu da özləri ilə aparmışdılar. Onlar Babəkin gizləndiyi vadinin içindəki meşəliyə gedərək onu tapmış və nə üçün göndərildiklərini bildirmişdilər. Babək onlardan nə üçün əsir düşdüklərini soruşanda onlar ailələrinin və uşaqlarının ələ keçdiyini, gecənin qaranlığında onun harada olduğunu bilmədikləri üçün yanına gələ bilmədiklərini, buna görə də ailələrinə toxunulmaması qarşılığında müsəlmanlara təslim olmaqdan başqa yol tapa bilmədiklərini söyləmişdilər. Babək "*bunun doğru olduğunu necə bilim, ey fahişənin oğlu. Lakin sən nə cürətlə o fahişə oğlunun məktubunu mənə gətirmisən?*" deyib xürrəminin boyunun vurmuş və xəlifənin məktubunun möhürünü açmadan cəsədinin yaxasına sancmışdı. Digərinə isə, öz oğlunu nəzərdə tutaraq "*get o fahişənin oğlundan sonruş ki, mənə məktub niyə yazır?*" demişdi. Sonra isə öz oğluna bir neçə cümləlik məktubda belə yazmışdı: "*Əgər sən indi mənim yanımda olsaydın, davamıza sadiq qalıb hökmranlıq əldə edənədək yolumuzu davam etdirsəydin, mən bilərdim ki, sən mənim oğlumsan. Lakin mən indi sənin fahişə ananın necə bir əxlaqsız olduğuna əmin oldum* (وقد صحّ عندي الساعة فساد أمّك الفاعلة)*. Ey fahişənin oğlu* (يابن الفاعلة)*, mən bundan sonra uzun yaşasam adım hökmdar kimi anılacaq, kral kimi yad ediləcəm* (ذكرت كنت ملكاً)*, lakin sən xeyirsiz bir cinsdən əmələ gəlmisən və mən şahidlik edirəm ki, sən mənim oğlum deyilsən. Çünki bir gün rəhbər kimi yaşamaq 40 il zəlil qul kimi yaşamaqdan daha xeyrlidir* (تعيش يوما واحدا وأنت رئيس خير، أو تعيش أربعين سنة وأنت عبد ذليل)"[219].

Babək ərzaq ehtiyatı tükənənə qədər gizləndiyi yerdə qalmışdı. Daha sonra yanında qardaşları Abdullah və Müaviyə, anası Bərumənd və alban dərəbəyi Vasakın qızı olan xristian arvadı[220] ilə

[217] Nizamülmülk, *Siyasətnamə*, 160. Müəllifin bildirdiyinə görə Bəzz uğrunda gedən döyüşdə Babəkin əmrində 100 minə yaxın xürrəmi döyüşçü var idi.

[218] İbn Cərir ət-Təbəri və İbn əl-Əsir bu vadinin adını "əl-Ğeydə" (الغيضة) şəklində qeyd edirlər (*Tarix ər-Rusul vəl-Müluk*, IX/46; *əl-Kamil*, VI/412).

[219] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/46; İbn əl-Əsir, *əl-Kamil*, VI/411; İbn Ə'səm, *Kitab əl-Futuh*, VIII/439-440.Babəkin öz oğlu haqqında bu cür fikirlər səsləndirməsi onun Cavidan sağ ikən onun arvadı ilə yaxın münasibətdə olduğunu ağla gətirir. Yuxarıda qeyd etdiyimiz kimi bir sıra mənbələrdə bunu bildirən məlumatlar var. Ola bilsin bu səbəbdəndir ki, Babək "fahişə" adlandırdığı arvadının dünyaya gətirmiş olduğu bu oğlanın atasının özümü, yoxsa Cavidanmı olduğu barədə tərərddüdə düşmüşdür. "*Sən xeyirsiz bir cinsdən əmələ gəlmisən*" (ولكنك من جنس لا خير فيه) sözü ilə də ehtimal ki, buna eyham vurmuşdur.

[220] Bu qadın haqqında daha əvvəl məlumat vermişdik. İbn Cərir ət-Təbəri əsərində bu qadını "İbnət əl-Kələndaniyyə" (ابنة الكلندانية) şəklində zikr edir (*Tarix ər-Rusul vəl-Müluk*, IX/47). Bu qadının adı bəzilərinin zənn etdiyi kimi "Kəldaniyyə xatun" deyildi. "İbnət əl-Kələndaniyyə" "xristianlığın kələndani məzhəbində olanın qızı" mənasını ifadə edir. Ərəblər "xaldiya (khaldea) katolik kilsəsi" mənsubu xristianları "kələndani" adlandırırlar. Bu məzhəbə mənsub xristian icma bu gün İraqın şimalında indi də qalmaqdadır. Atası Vasak xaldiya katolik məzhəbinə mənsub olduğu üçün onun Babəkin arvadı olan qızı ərəbdilli müəlliflər tərəfindən "ibnət əl-Kələndaniyyə" olaraq adlandırılmışdı.

birlikdə şimala doğru hərəkət etmişdi[221]. Lakin Afşin bütün yolları fasiləsiz müşahidə altında saxlayan əsgərləri əraziyə yerləşdirdiyi üçün diqqətdən yayına bilməmişdilər. Gözətçi əsgərlər tanımadıqları bir dəstə atlının hərəkət etməkdə olduğunu qərargaha bildirəndə əmir Əbus-Sac süvari dəstəsi ilə həmin yerə yollanmışdı. Onlar Babəki və adamlarını bir bulaq başında yemək yeyərkən yaxlamışdılar. Babək bir neçə adamı ilə atına minib qaça bilmişdi. Qardaşı Müaviyə, anası və arvadı isə Əbus-Sacın əlinə keçmişdi. O, əsirləri Afşinin yanına göndərmişdi[222].

Araz çayını keçərək Arran (Dağlıq Qarabağ) torpaqlarına daxil olan Babək Həkəri çayı vadisi boyunca şimala doğru hərəkət etmişdi. Məqsədi buradan keçərək qərbə, Bizans imperiyası ərazisinə daxil olmaq idi. Arranın xristian dərəbəyləri də Afşin tərəfindən əvvəlcədən xəbərdar edildikləri və ərazilərinə nəzarəti gücləndirdikləri üçün Babək çox ehtiyatla hərəkət etməli olmuşdu. Lakin ərzağı tükənib aclıq çəkməyə başlayınca yerli əhali ilə təmas qurmağa məcbur olmuşdu. O, rast gəldiyi bir cütçünün yanına adamlarından birini ərzaq satın almaq üçün göndərmişdi. Digər bir cütçü silahlı adamların çörək və yemək aldıqlarını görüb həmin yerin hakiminə xəbər vermişdi. Həmin bölgə Sünikin xristian alban hakimi Səhl ibn Sunbata məxsus olduğu üçün onu xəbərdar etmişdilər. Yubanmadan həmin yerə gələn Səhl ibn Sunbat Babəki gördükdə onu tanımış və atından enib Babəkin əlini öpmüşdü. Babəkin Bizansa getmək niyyətində olduğu öyrənən Səhl oradaki bütün xristian feodalların ona ehtiram göstərdiklərini, hətta aralarında Babəkin övladaları[223] olduğunu da bildirərək sədaqətlə qulluq edəcəyinə onu inandırmışdı. Babək qardaşı Abdullahı isə Beyləqan hakimi Əbu Musa Yesai ibn Stepanosun yanına göndərmişdi. Səhl ibn Sunbat Afşinə Babəkin öz yanında olduğu xəbərini göndərmiş, Afşin də xəbərin doğru olub olmadığını yoxlamaq üçün öz adamlarını göndərmişdi. Səhlin yanındakı adamın Babək olduğu anlaşılandan sonra onu yaxalamaq üçün silahlı dəstə göndərilmişdi. Səhlin planı üzrə Babək onunla birlikdə çıxdığı ovda Afşinin döyüşçüləri tərəfindən əhatəyə alınmışdı. Satıldığını anlayan Babək Səhli qəliz söyüşlərlə təhqir etdikdən sonra "*məni bu yəhudilərə çox ucuza satdın. Əgər məqsədin pul idisə mən sənə daha artığını verərdim*" demişdi[224]. Əbu Səid Muhəmməd tərifindən təslim alınan Babək Bərzəndə, Afşinin qərargahına gətirilmişdi. Afşinin tələbi üzrə Əbu Musa Yesai də Babəkin qardaşı Abdullahı yaxalayaraq Bərzəndə göndərmişdi. Babək və qardaşı Bərzənddəki qərargahda bir müddət saxlanandan sonra Mu'təsimin əmri ilə İraqa göndərilmişdilər. Səhl ibn Sunbatın oğlu Müaviyə Afşindən 100 min dirhəm, Səhlin özü isə 1 milyon dirhəm, qiymətli daşlarla bəzədilmiş kəmər və xristian feodallara xas tac hədiyyə olaraq almışdı[225].

Bəzzin fəthi ilə burada saxlanılan, əksəriyyəti müsəlman qadın və uşaqlardan ibarət 7600 əsir azad edilmişdi. Afşin ətraf bəldələrə xəbər göndərmişdi ki, Bəzzdə yaxınları əsir olaraq saxlanılanlar gəlib onları apara bilərlər. Beləcə çox sayıda ərəb və yerli müsəlman gəlib öz yaxınlarını aparmışdı. Lakin özlərini xürrəmilərin əsiri kimi təqdim edən xeyli adam da var idi ki, onların ardınca heç kim gəlməmişdi. Afşin Babəkin onların saxlandıqları düşərgəyə aparılmasını əmr etmişdi. Onlar Babəkin yaxalandığını görəndə nalə çəkib şivən qoparmağa və üzlərini silləməyə başladılar. Afşin onların xürrəmi olduqlarını, əsir müamiləsi görməmək üçün özlərini Bəzzdəki əsir müsəlman kimi

---

[221] Təbəri, *Tarix ər-Rusul vəl-Muluk*, IX/46-47; İbn əl-Əsir, *əl-Kamil*, VI/412.
[222] Təbəri, *Tarix ər-Rusul vəl-Muluk*, IX/47; İbn əl-Əsir, *əl-Kamil*, VI/412; İbn Miskəveyh, *Təcarib əl-Uməm*, IV/31.
[223] Xristian Alban feodallarının ailələrində Babəkin övladlarının olmasının səbəbi bu idi ki, Babək bir qadından xoşu gəldiyi vaxt onu əldə edənə qədər təkid edərdi. Əgər qadının qardaşı və ya atası könüllü olaraq qadını Babəkin yanına göndərərdisə hər hansı bir problem meydana gəlmirdi. Əks halda Babək həm qadını zorla alır, həm də onu verməkdən imtina edənin əmlakını talan edirdi. Əldə etdiyi qadınla bir müddət yaşayandan sonra isə onu yenidən geri göndərirdi. Bax: Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/47-48; İbn əl-Əsir, *əl-Kamil fit-Tarix*, VI/412.
[224] İbn əl-İbri (1225-1286) qeyd edir ki, Babək böyük məbləğ təklif edərək Səhl ibn Sunbatın əlindən qurtulmaq istəsə də o, bunu qəbul etməmişdi. Səhl onu ərəblərə təslim etməzdən əvvəl isə öz adamlarına Babəkin gözü qarşısında onun anası, bacısı və avradını zorlatmışdı (bax: *Tarixu Muxtəsər əd-Duvəl*, 123). Lakin bu məlumat böyük ehtimalla yanlış, yaxud uydurmadır. Çünki yuxarıda qeyd etdiyimiz kimi Babək onu təqib edən Əbus-Sacdan qaçarkən qardaşı Müaviyə, anası və arvadı Əbus-Sacın adamlarının əlinə keçmişdilər. Əbus-Sac isə onları Afşinin yanına göndərmişdi. Yəni Babək Səhl ibn Sunbatın yanına gedərkən ailəsinin qadın üzvləri yanında yox idi.
[225] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/48-50; İbn əl-Əsir, *əl-Kamil fit-Tarix*, VI/413-414; İbn Ə'səm, *Kitab əl-Futuh*, VIII/440-441; İbn Miskəveyh, *Təcarib əl-Uməm*, IV/33-34; Əbu Zəkəriyya əl-Əzdi, *Tarix əl-Məvsil*, 425.

təqdim etdiklərini anlayanda "*Allah sizə lənət etsin*" deyərək onları lə'nətləmişdi. 3.309 xürrəmi döyüşçü əsir alınmışdı. Əsir alınan xürrəmilər arasında Babəkin ailə üzvləri də var idi. Arvadları, qızları və gəlinləri olmaqla Babəkin ailəsinə mənsub 23 qadın və onun 17 oğlu əsir olaraq müsəlmanların əlinə keçmidi[226]. Əgər Nizamülmülkün (1018-1092) verdiyi məlumat yanlış deyilsə Babəkin qızlarından biri Mu'təsimin hərəminə götürülmüşdü[227].

Əli əl-Məs'udi Babəkin yaxalanması hadisəsini İbn Cərir ət-Təbəridən bir qədər fərqli anlatmaqdadır. Məs'udiyə görə Səhl Babəkin öz torpaqlarına gəldiyini öyrənəndə onu hökmdar kimi qarşılayaraq öz qəsrinə aparmışdı. Səhl Babəklə eyni süfrəyə oturmaq istəyəndə isə başına gələcəklərdən xəbərsiz olan Babək Səhlə "*səncə sənin kimi biri mənimlə bir süfrədə yemək yeyə bilərmi?*" demişdi. Babək özünü hökmdar, Səhli isə öz vassalı hesab edirdi. Ayağa qalxıb "*bağışla ey kral, həqiqətən mən kiməm ki, hökmdarla bir süfrəyə oturum*" deyən Səhl ibn Sunbat otaqdan çıxmış və bir qədər sonra əlində zəncir olan dəmirçi ilə geri qayıtmışdı. O, Babəkə "*uzat ayaqlarını ey kral*" dedikdə Babək "*mənə xəyanətmi etdin, ey Səhl*" deyə cavab vermişdi. Səhl isə Babəkə onun haqqında əslində nə düşündüyünü söyləmişdi: "*ey xəbis qadının oğlu, şübhəsiz sən davar və qoyun çobanından başqa bir şey deyilsən. Sən hara, siyasət, ölkə və ordu idarə etmək hara?*"[228]. Səhl Babəki qandallayıb zəncirə vurduqdan sonra Afşinə xəbər göndərmişdi. Afşinin göndərdiyi 400 zirehli süvari gəlib Babək və yanındakıları təslim almış və Bərzəndə aparmışdılar[229].

Yanında Babək və qardaşı Abdullah olmaqla Bərzənddən hərəkət edib İraqa üz tutan Afşin h. 03 səfər 223-cü (04 yanvar 838) ildə Samərraya çatmışdı. Samərraya bir neçə kilometr qalmış Babəki bəzədilmiş bir filə, qardaşı Abdullahı isə inəyə mindirmişdilər. Hər ikisinə təmtəraqlı libas və başlıq geyindirilərək Samərraya doğru yola çıxarılmışdılar. Mu'təsimin əmri ilə Bab əl-Ammə (xalq qapısı) adlanan yerdən əl-Matirə adlanan xilafət igamətgahına qədər yolun sağında və solunda düzülmüş izdiham aralarından keçib getməkdə olan filə minmiş Babəkə tamaşa etməkdə idilər. Babək bu şəkildə Samərraya daxil olmuşdu. Mu'təsimin əmri ilə Babəkin əlləri və ayaqları çarpaz kəsildikdən sonra başı bədənindən ayrılmışdı. Bu əslində silahlı quldurluq edərkən adam öldürmüş canilərə verilən cəza idi. Babəkin başı Xorasana göndərilib oradaki şəhərlərdə gəzdirilərək əhaliyə nümayiş etdirilmişdi. Bədəni isə Samərrada bir dirəyə asılmışdı. Mu'təsim Babəkin qardaşı Abdullahı isə Təbəristanın məcusi hakimlərindən Bavəndi sülaləsinə mənsub İbn Şirvini[230] Bağdada göndərmişdi. İshaq ibn İbrahim xəlifənin əmri ilə Babəkə verilmiş cəzanın eynisini Abdullaha və İbn Şirvinə Bağdadda vermişdi[231].

---

[226] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/55; İbn əl-Əsir, *əl-Kamil fit-Tarix*, VI/417; İbn Kəsir, *əl-Bidayə vən-Nihayə*, X/481.

[227] *Siyasətnamə*, 161.

[228] Məs'udi, *Muruc əz-Zəhəb*, IV/46-47. (يا ابن الخبيثة إنما أنت راعي غنم وبقر ، ما أنت والتدبير للملك ونظم السياسات وتدبير الجيوش ؟)

[229] Məs'udi, *Muruc əz-Zəhəb*, IV/46-47.

[230] Qarin ibn Şəhriyar ibn Şirvin Bavəndi.

[231] Burada bir xüsusu qeyd etmək yerinə düşəcəkdir. Bu İbn Cərir ət-Təbəri tərəfinən qeyd edilmiş Babəkin qardaşı Abdullahla İbn Şirvin arasındakı mükalimədir. Abdullah İbn Şirvindən kim olduğunu soruşanda o, Təbəristan hakimi olduğunu deyir. Abdullah isə cavabında "*Məni dehqanlardan biriylə edam yoldaşı olmağa müvəffəq edən Tanrıya şükür olsun*" (الحمد لله الذّي وفّق لي رجلا من الّدهاقين يتولي قتلي) deyir. Fəqət İbn Şirvin Babəki də edam etmiş Nudnud adlı cəlladı Abdullaha göstərib "*sənin edam yoldaşın bax budur*" deyə cavab verir. Abdullah isə ona "*sən dostumsan* (أنت صاحبي), *o, isə qoluzorlunun* (علْج) *biridir*" demişdi. İbn Şirvindən özü üçün faluzcə (şirniyyat növüdür) hazırlatmasını və bir qədər şərab tapmasını istəmiş, şirniyyatdan doyunca yeyəndən sonra isə ona "*sən mənim də dehqan olduğumu biləcəksən*" demişdi. Bütün gecəni 4 ritl (1 ritl-416 qr) şərabı içən Abdullah səhərsi gün əlləri və ayaqları çarpaz kəsilərək edam edilmiş, cəsədi asılaraq nümayiş etdirilmişi (bax: Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/53). Edam olunarsən səsini çıxarmadığı bildirilir. Ehtimal ki, nə baş verdiyini anlamayacaq qədər sərxoş idi. Necə deyərlər "*набухался на смелость*". İbn Şirvinlə Abdullah arasındakı dialoqda mühüm olan məqam hökmdar Bavəndi ailəsinə mənsub İbn Şirvinin Abdullahı özünə tay hesab etməməsi, Abdullahın isə bu iddiasında israrlı olmasıdır. Bu hadisə ilə əl-Məs'udi tərəfindən nəql olunan (yuxarıda qeyd etmişik) Babəklə Səhl ibn Sunbat arasındakı dialoq arasında bir bənzərlik, paralellik var. İbn Şirvin kimi hakim sülaləyə mənsub Səhl də özünü hökmdar hesab edən Babəki aşağılayaraq onu "*qoyun və davar çobanı*" adlandırmışdı. Bu zadəgan Cavidanın arvadına yiyələnib qısa yoldan hökmranlıq taxtına əyləşmək istəyən Babəkin dövrün hakim sülalələri və zadəgan ailələri tərəfindən onun özünü zənn və təqdim etdiyi

## Nəticə

Babəkin başçılığı altında 21 il davam etmiş üsyanda xürrəmilər tərəfindən 255.500 insan öldürülmüşdü[232]. Bunların bir qismini müsəlman Azərbaycanlılar təşkil edirdilər. Xürrəmi üsyanı Abbasi dövlətini iqtisadi cəhətdən sarsıdan iki qiyamdan biri idi (dəgəri Zənc üsyanı idi). Üsyanın yatırılması üçün 10 milyonlarla dirhəm vəsait sərf edilmişdi. Afşin xürrəmilərə qarşı əməliyyatlara komandanlıq etdiyi dörd il ərzində döyüşə çıxdığı hər gün üçün 10 min, qərargahda qaldığı hər gün üçün isə 5 min dirhəm məvacib almışdı. Bu ortalama 10 milyon dirhəmdən artıq vəsait edir. Babəkin edam olunmasından sonra isə Mu'təsim Afşinə mükafat olaraq 20 milyon dirhəm[233] pul vəsaiti vermişdi[234]. Bu rəqəmlər sadəcə Afşinə sərf edilmiş vəsaiti göstərir. 21 il ərzində xürrəmilərə qarşı vuruşmuş orduların ərzaq, silah-sursat təchizatı, hərbi mühəndislik, əsgərlərin məvacibləri buraya daxil deyil.

Yuxarıda təfərrüatı ilə açıqladığımız kimi X-XI əsrlərdə yaşamış səyyah və coğrafiyaşünasların verdikləri məlumatlarda Azərbaycan və İranın bəzi yerlərində xürrəmilərin sonrakı əsrlərdə də yaşadıqları qeyd edilir. Bu onu deməyə əsas verir ki, Abbasilər Azərbaycan və İran xürrəmilərinin sadəcə silahlı gücünü qırmaqla kifayətlənmişdilər. Xürrəmiliyi din, əqidə olaraq mənimsəmiş olanlara isə toxunulmamışdı. Batini-ismaililik sahəsindəki araşdırmaları ilə bütün dünyada tanınan Fərhad Dəftəri bu qənaətdədir ki, Azərbaycan, İran və Xorasandakı xürrəmi əhali sonrakı əsrlərdə, ələlxüsus Səlcuqlular dövründə Həsən Sabbahın ismaili-batini propaqandistlərinin hədəf kütləsi halına gəlmişdilər. Bu xürrəmilərin batiniliyə transformasiyası prosesini sürətləndirmişdi[235]. Səyyahların X-XI əsr xürrəmilərində ismaili-batiniliyə xas inancları müşahidə etmiş olmaları bu səbəbdəndir. İbn əl-Əsir əl-Cəzəri (öl. 1233), İbn Şakir əl-Kutubi (öl. 1363) kimi sonrakı əsrlərdə yaşamış müəlliflərin əsərlərində isə xürrəmiliyin artıq batinilik olaraq təqdim olunduğunu görməkdəyik[236].

Düşmənləri ilə adətən vəsayət müharibəsi aparmağa, yəni öz müttəfiqinin əli ilə vuruşmağa üstünlük verən Bizans imperiyası Xəzər xaqanlığının zəifləməsindən sonra xilafətə qarşı belə bir dəstəkdən məhrum qalmışdı. Babək və xürrəmilərin simasında özünə etibarlı müttəfiq tapan Bizans imperiyası regionda yenidən fəallaşmışdı[237].

şəkildə qəbul etmədiklərini göstərir. Ona müvəqqəti itaətlərinin səbəbi isə sahib olduğu silahlı gücə itaət etməkdən başqa yollarının qalmaması səbəbi ilə idi.

[232] Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, IX/54-55; İbn əl-Əsir, *əl-Kamil fit-Tarix*, VI/417; İbn Kəsir, *əl-Bidayə vən-Nihayə*, X/481; İbn əl-İbri, *Tarixu Muxtəsər əd-Duvəl*, 122.

[233] 1 dirhəmin 2,975 gr gümüş pul olduğunu nəzərə alaraq sadəcə Afşinin dövlət xəzinəsindən aldığı məbləğ 90 ton (2.869.775 unsiya) gümüşə təqabül edir. Bu isə təqribən 75 milyon manata bərabərdir.

[234] İbn əl-Əsir, *əl-Kamil fit-Tarix*, VI/417.

[235] Daftari, *Kratkaya İstoriya İsmailizma*, 50, 101.

[236] İbn əl-Əsir, *əl-Lübab fi təhzib Ənsab əl-Əşraf*, I/436; İbn Şakir, *Uyun ət-Təvarix*, 80; Nəfisi, *Babək*, 19. Məsələn, İbn əl-Əsir yazır: (الخُرَّمي, هذه النسبة إلي طائفة من الباطنية) – "Xürrəmi, bu batini qruplardan birinin adıdır".

[237] Bu haqda daha ətraflı məlumat üçün bax: Rosser, *həmin məqalə*.